www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 fevral 2015-ci il Çərşənbə axşamı № 36 (6064) Qiyməti 40 qəpik

**Xəbər**

## Kişi keçmiş arvadını Masazırdakı "məşhur" moteldə öldürdü

yazısı səh.14-də

**Gündəm**

### Aslan Aslanovun məhv etdiyi iki ailədən reportaj



"Yeni Müsavat" Lamiyə Quliyevanın icra başçısının oğlunu öldürməsinin detallarını yazır, ömürlük məhkum olan keçmiş nişanlısının atası üzünə duranların siyahısını açıqladı

yazısı səh.10-da

### Dövlətə borclu olan rəsmi qurumlar...

yazısı səh.4-də

### Gənc Diplomatlar "Khazar İslands"da oldular

yazısı səh.3-də

### Başqan müavinindən ADR-dəki müsavatçılara tövsiyə

yazısı səh.6-da

### "Moskva Bakı ilə gizli Qarabağ danışıqları aparır"

yazısı səh.8-də

### Türkiyədə Xocalı soyqırımı ilə bağlı böyük tədbir keçiriləcək

yazısı səh.6-da

*Yevda Abramov:*

### "Yəhudilərin Avropadan İsrailə qayıtmaqdan başqa yolları yoxdur"

yazısı səh.9-da

### Azərbaycanın qaz ümidi...

yazısı səh.12-də

### Bizim siyasətçilər çıxış öncəsi güzgü qarşısında məşq edirmi?

yazısı səh.15-də

### 90 saylı məktəbdə şagirdin döyülməsi olayı böyüyür

yazısı səh.13-də

### Bakıda 5-ci mərtəbədən yıxılan qadın sağ qaldı

yazısı səh.2-də

### Bu gün İntiqam Əliyevin məhkəməsidir

yazısı səh.2-də

## Fazil Məmmədova fövqəladə səlahiyyətlər verildi

# OLİQARXLARIN VERGİ QORXUSU - XƏBƏR

Vergilər nazirinə tapşırılıb ki, məmur-oliqarxların nəzarətində olan bütün istehsal müəssisələri - fabriklər, zavodlar, restoranlar, hətta qaçqınların adına rəsmiləşdirdikləri köşklər belə istisnasız olaraq vergiyə cəlb edilsin; vergi borcunu ödəməyən iri şirkətlərin siyahısı tutulub və prezidentə təqdim edilmək üçün hazırlanır...



yazısı səh.4-də

# Mərkəzi Bankdan şok manat qərarı

Milli valyutanın dollardan asılılığından imtina edildi; ekspertlər bildirirlər ki, hökumətin bu addımı manatın ucuzlaşmasını şərtləndirəcək...

yazısı səh.12-də



*Gülağa Aslanlı:*

### "İsa Qəmbər partiyanın cari fəaliyyətinə qarışmır"

yazısı səh.6-da



### Vasif Talıbov növbəti repressiya dalğası başladıb

yazısı səh.5-də



Viktoriya Nuland

### ABŞ təcrübəli diplomatını Bakıya göndərir

yazısı səh.9-da

# 17 fevral 2015

YENİ MÜSAVAT
N 36 (6064) 17 fevral 2015



## Prezident həmsədrləri qəbul etdi

**Prezident İlham Əliyev fevralın 16-da ATƏT-in Minsk Qrupunun həmsədrləri Pyer Andryönu (Fransa), İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.**

APA-nın məlumatına görə, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Xədicə İsmayılı tutduran şəxs mühacirətə hazırlaşır

### Xanım jurnalist özünə qarşı yeni ittihamları "siyasi və hüquqi savadsızlıq" adlandırır



Xədicə İsmayıl

**Xəbər verdiyimiz kimi, həbsdə olan jurnalist Xədicə İsmayıla qarşı yeni ittihamlar irəli sürülüb. Bu barədə onun vəkili Fariz Namazlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, jurnalistə qarşı mənimsəmə və israf etmə, qanunsuz sahibkarlıq, vergidən yayınma və vəzifə səlahiyyətlərindən sui-istifadə maddələri ilə ittihamlar da verilib.**

Müsahibimizin sözlərinə istintaq idarəsi AzadlıqRadiosunun işi ilə bağlı aparılan istintaqın nəticəsi olaraq X.İsmayıla qarşı bu cür ittihamlar irəli sürüb. F.Namazlı dedi ki, ümumi "QHT işinin" tərkib hissəsi olaraq radioda aparılan yoxlamanın nəticəsində yuxarıda yazılan ittihamlar irəli sürülüb. Vergi Departamenti əməkdaşlarının tərtib etdiyi aktda vergi-maliyyə hesabatlarında qanunsuzluq olduğunu iddia edirlər. X.İsmayıl qanunsuz gəlir əldə etməkdə də məhz bu səbəbdən ittiham olunur. Jurnalistin həmin vaxt AzadlıqRadiosu Bakı bürosunun rəhbəri olduğu iddia edilir.

**Amma F.Namazlı həmin vaxt X.İsmayılın ştatdankənar çalışdığını xatırlatdı:** "Ümumiyyətlə, ittihamlarda absurd məqamlar çox olub. Prokurorluq bununla bağlı açıqlama verəndən sonra biz də mövqeyimizi detallı açıqlayacağıq".

F.Namazlının sözlərinə görə, ittihamlar AzadlıqRadiosunun fəaliyyəti haqqında 15 yanvar 2015-ci il tarixli vergi aktı əsasında irəli sürülüb. Vəkil bildirib ki, X.İsmayıl özünü təqsirli bilmir və ifadə verməkdən imtina edib: "Xədicə İsmayıl deyir ki, bu, siyasi və hüquqi savadsızlıqdır".

Bu ittihamlara görə onu 12 ilədək həbs cəzası gözləyir.

Xədicə İsmayıl başqasını özünü öldürmə həddinə çatdırmaq ittihamı ilə dekabrın 5-də həbs edilib.

O, ittihamı rədd edir, həbsinin fəaliyyəti ilə bağlı olduğunu deyir.

Bu arada X.İsmayılın guya intihar həddinə çatdırdığı Tural Mustafayevlə bağlı da "Yeni Müsavat"a ilginc məlumat daxil olub. T.Mustafayev ötən ilin sonunda X.İsmayıla qarşı ittihamından imtina etdiyini facebook vasitəsilə elan edəndən sonra yoxa çıxıb. Onu heç cür tapmaq mümkün deyildi. Redaksiyamıza daxil olan məlumata görə, T.Mustafayev hazırda Tiflisdədir və mühacirətə hazırlaşır. Ona səssiz dayanmaq və etdiyi xidmətlərin qarşılığında ölkədən getmək üçün icazə verilib. T.Mustafayev Avropa ölkələrindən birinə mühacirət edəcək.

F.Namazlı dedi ki, T.Mustafayevlə bağlı ittiham xitam olunmayıb. Bu məsələ Bakı Şəhər Prokurorluğunda araşdırılır.

❑ Sevinc TELMANQIZI

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Bu gün İntiqam Əliyevin məhkəməsi davam edəcək

## Hüquq müdafiəçisinə qarşı ifadə verən "zərərçəkən" xanım mətbuatdan qaçır

**Bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində Hüquq Maarifçiliyi Cəmiyyətinin (HMC) sədri İntiqam Əliyevin məhkəməsi davam etdiriləcək. Prosesdə zərərçəkmişlərin ifadə vermələri gözlənilir.**

Məhkəmədə zərərçəkmiş qismində iştirak edən, bacısı Almaz Orucovanın bank hesabına 119 min manat pul köçürən və istintaq zamanı həmin məbləği İntiqam Əliyevə verdiyini bildirən HMC-nin xanım mühasibi Gülşən Orucova barədə müdhiş iddialar səsləndirilir. Qeyd olunur ki, G.Orucova İ.Əliyevin təşkilatından əlavə, mühasib çalışdığı Media Hüquqları İnstitutunun hesabından da bacısının adına pullar köçürüb. İ.Əliyevin özü də, məhkəmədəki çıxışı zamanı G.Orucovanın onun təşkilatı ilə yanaşı, 7-8 QHT-də mühasib işlədiyini bildirmişdi. O, xanım mühasibin köçürdüyü 119 min manat məbləğin detallarının araşdırılmasını tələb etmişdi. Bununla bağlı məhkəmədə qaldırılan vəsatətlər rədd edilmişdi. G.Orucova istintaq zamanı İntiqam Əliyevin əleyhinə ifadə verərək, onun tapşırığı ilə bacısının şəxsi hesabına pul köçürdüyünü bildirib. Həmin məbləği sonralar hüquq müdafiəçisinin özünə qaytardığını deyib. Məhz Orucova bacılarının bu ifadələri əsasında HMC rəhbərinə qarşı 119 min manatın mənimsənilməsi barədə ittiham irəli sürülüb. Bu ittihamı sübut edəcək yeganə amil bacıların ifadəsidir.



İntiqam Əliyev

İntiqam Əliyevin özü məhkəmədəki çıxışı zamanı 119 min manatı alması barədə tərtib olunan qəbzlərə atılan imzaların ona məxsus olmadığını bildirib. Hüquq müdafiəçisi səfərdə olduğu zamanlarda belə, Ə.Orucovanın hesabına pul köçürüldüyü məlum olub.

G.Orucova barəsində səsləndirilən iddialardan biri də onun çalışdığı QHT-lərlə bağlıdır. Qeyd olunur ki, 119 min manat onun mühasib çalışdığı müxtəlif təşkilatların hesablarından köçürülüb. Müdafiə tərəfinin məbləğlə bağlı çıxarışların edilməsi barədə verdikləri vəsatətlər də rədd olundu.

Maraqlıdır ki, Əfsanə Orucovanın mühasib işləmədiyi təşkilatlardan onun hesabına necə pul köçürülə bilər? G.Orucova hazırda "Yuga Motors" MMC-də çalışır. Onun İntiqam Əliyevə qarşı çıxmasını bu amillə əlaqələndirirlər.

Barəsində səsləndirilən müdhiş iddialarla bağlı sözügedən xanım mühasibin münasibətini öyrənməyə çalışdıq. Gülşən Orucova "mən bu barədə danışmaq istəmirəm" deyərək, telefonu qapadı.

İntiqam Əliyevin vəkilləri isə G.Orucovanın məhkəmədəki ifadəsindən sonra məsələyə münasibət bildirəcəklərini söylədilər.

❑ Cavanşir ABBASLI



## Anar Məmmədlinin səhhətində problemlər yaranıb

**Həbsdə olan Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDTM) rəhbəri, vicdan məhbusu Anar Məmmədlinin səhhətində problemlər yaranıb. Buna səbəb SDMTM rəhbərinin saxlanıldığı 13 saylı cəzaçəkmə müəssisəsinin ətrafının çirkli sularla əhatə olunması, ekoloji cəhətdən pis yerdə yerləşməsidir.**

Bu barədə mətbuata Anar Məmmədli ilə görüşən ailə üzvləri məlumat veriblər. Vicdan məhbusu yerinin dəyişdirilməsi ilə bağlı cəzaçəkmə müəssisəsinin rəhbərliyinə müraciət edib.

Bundan əlavə, Anar Məmmədlinin müstəqil qəzetləri əldə etmək imkanı yoxdur. O, ailə üzvlərinə deyib ki, cəzaçəkmə müəssisəsindəki kitabxanada ancaq dövlət qəzetləri var, müstəqil və müxalifyönlü qəzetlər yoxdur.

**SMDTM rəhbərinin vəkili Elçin Sadıqov müvəkkilinin yerinin dəyişdirilməsi ilə bağlı Penitensiar Xidmətə müraciət etdiklərini bildirdi:** "13 saylı müəssisənin yaxınlığında demək olar ki, yaşayış məntəqəsi yoxdur. Yanına gedib-gəlmək çətindir. Ailəsi əziyyət çəkir. Qanunvericilikdə nəzərdə tutulur ki, məhbus yaşadığı yerə yaxın cəzaçəkmə müəssisəsinə göndərilir. Ona görə də bu tamamilə qanunvericiliklə uyğunsuzluq təşkil edir. Həmçinin Anar Məmmədlidə allergiyalar yaranıb. Səhhətindən şikayətləri var. Bununla bağlı yerinin dəyişdirilməsini istəyir. Penitensiar Xidmətə müraciət ünvanlamışıq. Əgər cavab verilməsə, məhkəməyə müraciət etməli olacağıq. Anar bəyə orada təzyiq olma ehtimalı yoxdur. Belə bir hal mümkün deyil". A.Məmmədli 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

❑ Cavanşir ABBASLI

## Paltar sərən qadın 5-ci mərtəbədən yıxıldı



**Fevralın 16-da saat 11 radələrində Qara Qarayev prospekti ilə Babək prospektinin kəsişməsində yerləşən çoxmərtəbəli binada bədbəxt hadisə baş verib."Yeni Müsavat" qəzetinin əməkdaşlarından birinin verdiyi məlumata görə, o, həmin hadisənin şahidi olub: "Biz körpünün üstündən gördük ki, doqquzmərtəbəli binanın beşinci mərtəbəsində bir gənc qadın eyvanda sallanır, ərinin və ya qardaşının əlindən yapışıb qışqırır. Artıq aşağıda adamlar da yığışmışdı. Görünür, onlar bir neçə dəqiqə idi ki, bu vəziyyətdə idilər. Qəfildən qadın əlini buraxdı və gözlərimizin önündəcə yerə çırpıldı".**

Hadisə şahidlərinin sözlərinə görə, gənc qadın ayağının altına stul qoyaraq paltar asırmış, qəfildən ayağı sürüşüb və aşağıya yuvarlanmaq üzrə olarkən eyvandan yapışa bilib. Onun köməyinə əri gəlib. O, biri müddət qadını saxlaya bilsə də, sonda gücü tükənib və onun əlindən çıxan qadın binanın önündəki torpaq hissəyə düşüb. Xoşbəxtlikdən torpaq nəm olub və qadın ölməyib. Aşağıda dayanmış adamlar onu təcili olaraq xəstəxanaya çatdırıblar. Məsələ ilə bağlı "Modern" hospitalla əlaqə saxladıq. Hospitaldan verilən məlumata görə, qadının vəziyyəti çox ağırdır: "Xəstə Lalə Bayramovanı bizə ağır vəziyyətdə gətiriblər. Hazırda onun vəziyyəti çox pisdir. Bədəninin müxtəlif hissələrində, körpücük və onurğa sümüyündə sınıqlar var".

## Aslan Aslanovun rəis qardaşından ilginc mövqe

### Elsevər Aslanov: "Danışmağa icazəm yoxdur"

**Şəmkirin sabiq başçısı Aslan Aslanovun adı son günlər məhbus Lamiyə Quliyeva olayına görə hər gün mətbuatda hallandırılır. Oğlunun ölümündə ittiham olunaraq ömürlük həbsə məhkum olunan Vüqar Əliyevin, nişanlısı L.Quliyevanın, eləcə də hər ikisinin ailə üzvlərinin mətbuata onunla bağlı dedikləri şok effekti yaradıb. Hakimiyyətin üst instansiyasında onunla bağlı müvafiq qərar verildiyi və tezliklə həbs olunacağı gözlənilir. Hətta ötən həftə onun yaşadığı evin polis mühasirəsinə alınması və əməliyyat aparılması barədə də məlumatlar yayılmışdı.**

"Yeni Müsavat" isə bu olaylarla bağlı A.Aslanovun qardaşı Elsevər Aslanovla danışmağa cəhd edib. E.Aslanov əməkdaşımızla söhbətində V.Əliyevin onun, eləcə də qardaşı A.Aslanovun barəsində dediyi fikirləri nə təkzib, nə də təsdiq etdi. Dedi ki, bu işlə bağlı dəfələrlə məhkəmə prosesi keçirilib, işlərə bir neçə instansiyada baxılıb: "Məhkəmə öz sözünü deyib. Mənim nəsə deməyim doğru deyil".

**Dəqiqləşdirmə zamanı aydın oldu ki, E.Aslanov Daşkəsən rayonunun polis rəisidir:** "İndi də xidmət otağımdayam. Sizinlə öz otağımdan danışıram. Amma verdiyiniz heç bir sualı cavablamayacam. Çünki bununla bağlı rəhbərlikdən icazəm yoxdur".

❑ Sevinc TELMANQIZI

## ABŞ-ın yeni səfiri Elmar Məmmədyarovla görüşüb

### ABŞ-ın yeni təyin olunmuş səfiri əlaqələrin genişlənməsi üçün çalışacağını bildirib və etimadnaməsini təqdim edib

**Xarici işlər naziri Elmar Məmmədyarov fevralın 16-da ABŞ-ın Azərbaycana yeni təyin olunmuş səfiri Robert Sekutanı qəbul edib. Xarici İşlər Nazirliyinin rəsmi saytında yerləşdirilən məlumatda qeyd olunur ki, görüş zamanı səfir Robert Sekuta xarici işlər naziri Elmar Məmmədyarova etimadnaməsinin surətini təqdim edib.**

Görüş zamanı səfir bildirib ki, diplomatik fəaliyyəti dövründə ikitərəfli əlaqələrin genişləndirilməsi üçün səylərini əsirgəməyəcək. Xarici işlər naziri Elmar Məmmədyarov səfir Robert Sekutaya diplomatik fəaliyyətində uğurlar arzulayıb.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 36 (6064) 17 fevral 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Türmədə uşaq dünyaya gətirən məhbus qadın Lamiyə Quliyeva olayı son iki gündə xeyli böyüyüb. Buna səbəb də L.Quliyevanın və doğduğu uşağın atası olduğu iddia edilən kişi məhbusun verdiyi müsahibədir. Hər iki məhbus ANS telekanalına müsahibələrində bir-birindən fərqli, ziddiyyəti, amma ilginc müsahibələr verib.**

# Lamiyə danışdı, ara yenə qarışdı...

## Ekspertlər hesab edir ki, ANS-ə çıxan hər iki məhbus cəmiyyətə yalan danışdıqlarının mesajını verirlər

### Lamiyə Quliyeva: "Bizə şərait yaratdılar, görüşdük"

**4 saylı cəzaçəkmə müəssisəsində həbs həyatı yaşayan L.Quliyeva necə hamilə qalmasından danışıb:** "Mənim uşağımın atası məhkumdur. Onunla könüllü şəkildə görüşmüşük, DNT testi də verilib, nəticələr də məlumdur. Dustaqçılıq aləmində belə bir şey var ki, əlaqə saxlaya bilirsən və görüşə bilirsən. Mən axırıncı dəfə Kürdəxanıya göndəriləndə onunla orda tanış olmuşdum".

**L.Quliyeva süni mayalanma iddiasını isə qətiyyətlə təkzib edib:** "Bunlar boş sözlərdir. Elə bir şey mümkün olsaydı bütün qadın məhkumlar ana olardı. Mən nə laborantam, nə də professoram ki, elə bir şeyə əl atım. Sadəcə olaraq, biz danışdıq və görüşdük. Bizə şərait yaradıldı və görüşdük. Düzü, bilmirdim ki, ana olacam. Amma o məqsədlə görüşdük ki, mən ana ola bilim. Bəlkə də o, ailəlidir, övladı var və ailəsini qorumaq üçün, ya da bizim görüşümüzə şərait yaradan adamı satmamaq üçün belə deyir. Bunlar iyrənc söhbətlərdir".

**L.Quliyevanın övladının atası olduğu iddia edilən məhbus Elnur Rəsulov isə ANS-ə müsahibəsində tamam fərqli danışıb. E.Rəsulov deyib ki, L.Quliyevaya sperma göndərib və sonuncu bu yolla hamilə qalıb:** "Orda hava yeri vasitəsilə danışırdıq. Ayrı-ayrı kameralarda idik. O, ikinci mərtəbədə idi, mən isə birinci mərtəbədə. O, tez-tez məhkəməyə gedib gəlirdi. Bir dəfə məhkəmədən gələndə mənə dedi ki, mənə kişiyə məxsus olan o şeydən lazımdı *(spermanı nəzərdə tutur).* İzah etdi ki, üzü səpib və üzünə vurmaq üçün istəyir. Səhərisi gün mənə iplə yumru formalı qab göndərdi. İstədiyi şeyi qabla göndərdim. Bir-iki həftə keçmişdi ki, mənə dedi ki, deyəsən, mən hamiləyəm. Dedim ki, ola bilməz". E.Rasulov təcridxanada görüşmələrinin qeyri-mümkün olduğunu deyib və L.Quliyeva ilə birbaşa təmaslarının olmadığını vurğulayıb.

### Ombudsman Aparatı "Lamiyə Quliyeva bizə canlı təmas barədə danışmayıb" deyir

"Bakı İstintaq Təcridxanasında saxlanılan kişi və qadın məhkumların bir-biri ilə görüşməsi qeyri-mümkündür. Bunun üçün həmin şəxs ən azı dörd nəzarət postundan keçməlidir".

Bunu APA-ya açıqlamasında İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsinin müdiri, Milli Preventiv Qrupun rəhbəri Vüqar Məhərrəmov 4 saylı cəzaçəkmə müəssisəsində həbs həyatı yaşayan Lamiyə Quliyevanın hamilə qalması haqda dediklərini şərh edərkən deyib.

**V.Məhərrəmov bildirib ki, Elnur Rəsulov Ombudsman Aparatının əməkdaşlarına verdiyi izahatda canlı təmasın olmadığını göstərib:** "Lamiyə Quliyevanın uşağının atası Elnur Rəsulov dünən yayımlanmış müsahibəsində canlı təmasın olmadığını bir daha deyib. Biz Elnur Rəsulovla görüşən zaman da o bildirmişdi ki, spermanı Lamiyə Quliyevaya müalicə məqsədilə verib. Lamiyə Quliyeva bizimlə görüşən zaman hər hansı bir zorakılığa məruz qalmadığını demişdi. O, bizə yazdığı izahatda canlı təmas barədə bir söz deməyib. Yalnız onu bildirmişdi ki, hər hansı zorakılığa məruz qalmayıb".




### Ekspert iddia edir: "Əsas versiya zorlamadır"

**Adının çəkilməsini istəməyən ekspertlərdən biri bu məsələ ilə bağlı ilginc dəyərləndirmə aparıb. "Yeni Müsavat"a açıqlamasında ekspert bildirdi ki, hazırda hər kəs sanki uşağa ata axtarmağa çalışır. Onun fikrincə, bu işdə əgər penitensiar sistemin aşağı instansiyalı işçisinin - nadzor, kolon rəisinin - günahı olsaydı, sistemin rəhbərliyi onu çox asanlıqla güdaza verərdi:** "Burda hər kəs o istiqamətdə çalışır ki, ata razılaşsın, ana razılaşsın, sonra o prosesin üzərinə gedilsin. Əvvəlcə bu razılığa çalışırlar. Orda birinci şübhə ondan yaranır ki, heç də uşağın atası təqdim olunan şəxs deyil. Bunu penitensiar sistem də bilir, Lamiyə də, uşağın atası adına iddia olunan şəxs də bilir. Burdan çıxan nəticə budur ki, burda əsas versiya ilk gün ortaya çıxan zorlama versiyasıdır. Lamiyənin üzərində cinsi zorakılıq, təhdid, təşviq olub və bunu onun işini artıran adamlar ediblər. Və penitensiar sistemin rəhbərliyi də buna şərait yaradıb. Ona görə də bu gün penitensiar sistem kimisə cəzalandırmaqdan qorxur".

**Ekspert xatırlatdı ki, L.Quliyeva bütün bu olaylardan sonra məhkəmədə uşağı ilə birgə özünü cəmiyyətə təqdim edərkən "mən yorulmuşam, bezmişəm, kömək istəyirəm, ona görə zorən bu uşağı doğdum" deyib. Müsahibimizin sözlərinə görə, məhbus qadın yaşadıqlarının heç də öz xoşu ilə olmadığını ifadə edib:** "Bu, əslində cəmiyyətə mesaj idi ki, niyə bu yola getdi. Çünki başqa yolu qalmamışdı. Cəmiyyət onun səsini eşidəcək halda deyildi. Ən başlıca amil budur ki, bu hadisə pentensiar sistem daxilində olmayıb. Sistemin içərisində, qapalı rejimdə olmuş olsaydı, bu zaman cinayətkar və ya cəzalandırmağa çox adam tapıla bilərdi. Bu qadın sistemdən, həbsxanadan kənara çıxarılıb. İndi məsuliyyət bilavasitə məlum orqanın, sistem rəhbərliyinin üzərində qalır. O tapşırıq icra olunub sadəcə, içəridə cəzalandırılmalı adam çoxdur. İndi işin mahiyyəti odur ki, Lamiyə də nə dediyini bilir, oğlan da. Hətta bunların hər ikisi cəmiyyətə mesaj verirlər ki, həqiqət bunların heç birinin dediyi deyil. Lamiyə çox ağıllı və düzgün hərəkət edir. Siz diqqət etsəniz görərsiz ki, bu gün Lamiyənin dodaqları silikondur. Qarşınıza qoyun keçmiş müsahibələri, fotoları, müqayisə aparın. Ona görə də deyilir ki, bu, içəridən çıxıb. Çünki içəridə belə bir əməliyyat keçirməsi mümkün deyil. İçəridən çıxdığına görə də bu gün heç kimi cəzalandıra bilmirlər".

### Üzeyir Məmmədli: "Elnur Rəsulovun adını onlara Lamiyə özü verib"

L.Quliyevanın analıq söhbəti yeni çıxan vaxt eks məhbus, **NİDA-çı Üzeyir Məmmədli** "Yeni Müsavat"a açıqlamasında bildirmişdi ki, uşağın atası 1 saylı İstintaq Təcridxanasında cəza çəkən məhbuslardan biridir. Hazırda uşağın atası kimi cəmiyyətə təqdim edilən şəxslə Ü.Məmmədlinin haqqında danışdığı məhbusun eyni adam olub-olmadığını dəqiqləşdirmək üçün onunla əlaqə saxladıq. Ü.Məmmədli bildirdi ki, həqiqətən də L.Quliyevanın uşağının atası olduğu iddia edilən şəxslə türmədə münasibətlərinin olması barədə söz-söhbət gəzən şəxs eynidir: "Bu şəxsi penitensiar sistem kəşf etməyib. Onun adını Lamiyə verib onlara. Lamiyə türmədə deyirdi ki, bu adamla yazışırlar".

Müsahibimizin fikrincə, nə Lamiyə, nə də E.Rəsulov gerçəyi danışır. Onun sözlərinə görə, L.Quliyevanın dediyi formada türmədə görüş ola bilməzdi. Amma E.Rəsulovun iddia etdiyi şəkildə də L.Quliyevanın ana olması mümkün deyildi: "Qıraqda da görüşə bilməzlər. Nə Kürdəxanıda, nə də məhkəmədə bu, mümkün olan bir şey idi. Ola bilər, onları bu cür danışmağa məcbur ediblər".

**Keçmiş məhbusla L.Quliyeva ilə E.Rəsulovun necə əlaqə yarada biləcəyindən də danışdıq. Xatırladaq ki, E.Rəsulov iddia edir ki, onlar Lamiyə ilə hava yeri vasitəsilə danışıblar. Kişilər birinci, qadınlar isə ikinci mərtəbədə olublar və belə bir əlaqə forması mümkün olub. Ü.Məmmədli də bildirdi ki, bu cür ünsiyyət vasitəsi mövcud olub:** "Danışmaq, məktublaşmaq mümkündür. Amma heç cür kişinin iddia etdiyi kimi nələrsə yollamaq, Lamiyənin o yolla hamilə qalması mümkün deyil. Biz də tibb ədəbiyyatlarını oxumuşuq. Bundan başqa, hesab edirəm ki, heç Pentensianar Xidmət də belə bir hadisənin olmasını istəməzdi. Onlar üçün də bu hamiləlik, ardınca baş verənlər sürpriz olub. Çünki bu, ciddi başağrısı sayılır. Həmin vaxta qədər Lamiyəyə qarşı hər zaman sərt davranıblar. Ondan sonra isə tamamən münasibət dəyişib".

❑ **Sevinc TELMANQIZI**





# Gənc Diplomatlar "Khazar İslands"da olublar







**"Avesta Konsern"in həyata keçirdiyi möhtəşəm "Khazar İslands" layihəsinə maraq həm dünyada, həm də Azərbaycanda artmaqdadır. Azərbaycan Gənc Diplomatlar Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə birliyin yüzdən artıq üzvü "Khazar İslands"la tanış olmaq üçün layihənin həyata keçirildiyi əraziyə səfər ediblər. Qeyd edək ki, 2001-ci ilin mayın 12-də təsis edilmiş, 2005-ci il mayın 30-da rəsmi dövlət qeydiyyatına alınmış Azərbaycan Gənc Diplomatlar Birliyi öz ətrafında Azərbaycanda fəaliyyət göstərən ali məktəblərin beynəlxalq münasibətlər, diplomatiya, beynəlxalq hüquq və politologiya fakültəsində oxuyan və bu sahə üzrə ixtisaslaşaraq dövlət orqanlarında çalışan gəncləri öz ətrafında birləşdirir.**

Birliyin təşəbbüsü ilə "Khazar İslands"a ekskursiyasında Bakı Dövlət Universiteti, ADA, Naxçıvan Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Neft Akademiyası, Bakı Slavyan Universiteti, İtaliyanın Sapienza Universiteti, Taras Şevçenko adına Kiyev Dövlət Universiteti, Marmara Universitetində oxuyan tələbələr, eləcə də dövlət orqanlarında çalışan gənc mütəxəssislər iştirak ediblər. "Khazar İslands" layihəsini həyata keçirən "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli gənclərin layihəyə marağını onların Azərbaycanda baş verən sürətli iqtisadi inkişafı yaxından izləmələri ilə əlaqələndirərək bu inkişafı özündə əks etdirən layihələrlə yaxından tanış olmaq təşəbbüsünü yüksək qiymətləndirib. "Khazar İslands" layihəsi ilə bağlı gənclərə geniş məlumat verən "Avesta Konsern"in prezidenti bu layihə ilə bağlı ideyanın meydana gəlməsini və artıq reallaşmağa başlamasını Azərbaycan prezidenti İlham Əliyevin rəhbərliyi altında çox böyük uğurlar əldə etməsi ilə əsaslandırıb. Hacı İbrahim Nehrəmli bildirib ki, bu gün Azərbaycan dövlətinin gücünü göstərən önəmli məqamlardan biri də azərbaycanlı iş adamlarının həm ölkə daxilində, həm də ölkədən xaricdə böyük layihələrə imza atmalarıdır. Rəhbərlik etdiyi "Avesta Konsern"in həyata keçirdiyi "Khazar İslands" layihəsini də azərbaycan dövlətinin artıq güclü bir dövlətə çevrildiyinin sübutu hesab etdiyini söyləyən Hacı İbrahim Nehrəmi bu şəhərin həm də Azərbaycanın gələcəyi ilə bağlı aydın təsəvvürlər yaratmağa imkan verdiyini qeyd edib. Azərbaycanın gələcəyinin ölkə gənclərinin əlində olduğunu vurğulayan Hacı İbrahim Nehrəmli onları dövlətinə layiq mütəxəssis olmağa çağırıb və bunun üçün elmə xüsusi önəm vermələrini istəyib. "Khazar İslands" layihəsində 5 universitetin də yaradılmasının nəzərdə tutulduğunu qeyd edən "Avesta Konsern"in prezidenti həmin ali məktəblərin dünyanın ən yaxşı ali məktəbləri sırasında yer alması üçün əlindən gələni edəcəyini qeyd edib. Gənclərin adından xoş qarşılanma üçün "Avesta Konsern"in prezidentinə təşəkkür edən Azərbaycan Gənc Diplomatlar Birliyinin baş katibi Eltun İbrahimov "Khazar İslands" layihəsinin ölkə üçün önəmini vurğulayıb və layihənin həyata keçirilməsini yaxından izləyəcəklərini qeyd edib.

❑ **Xəbər xidməti**

YENİ MÜSAVAT
N 36 (6064) 17 fevral 2015

# Fazil Məmmədova fövqəladə səlahiyyətlər verildi

**Neftin qiymətinin kəskin düşməsi Azərbaycan hakimiyyətini büdcəyə daha ciddi nəzarət etmək üçün hərəkətə keçirib. Prezident İlham Əliyevin hökumət üzvləri ilə ötən iki ayda iki müşavirə keçirərək həm büdcədən ayrılan pulların xərclənməsinə, həm vergilərin ödənilməsinə ciddi nəzarət ediləcəyi barədə xəbərdarlığı da buna sübutdur.**




# Oliqarxların vergi qorxusu - xəbər

## Vergilər nazirinə tapşırılıb ki, məmur-oliqarxların nəzarətində olan bütün istehsal müəssisələri - fabriklər, zavodlar, restoranlar, hətta qaçqınların adına rəsmiləşdirdikləri köşklər belə istisnasız olaraq vergiyə cəlb edilsin; vergi borcunu ödəməyən iri şirkətlərin siyahısı tutulub və prezidentə təqdim edilmək üçün hazırlanır...

Qeyd edək ki, 2015-ci il dövlət büdcəsində Vergilər Nazirliyinin xətti ilə 7 milyard 112 milyon manat daxilolma proqnozlaşdırılır ki, bunun da 4 milyard 812 mln. manatı və ya 67,7 faizi qeyri-neft sektorunun, 2 milyard 300 mln. manatı və ya 32,3 faizi isə neft sektorunun payına düşür. Bu, 2014-cü ilin proqnozu ilə müqayisədə 10 milyon manat və ya 0,1 faiz çoxdur.

Hökumətin büdcə xərclərinə nəzarəti gücləndirməklə bərabər iri şirkətlərə nəzarət edən oliqarxların "kəmərlərindən" yapışacağı da gözlənilirdi ki, bu proses artıq bütün ölkəboyu başlayıb.

Bir neçə gün əvvəl Vergilər Nazirliyində struktur dəyişiklikləri edən prezident vergilər naziri Fazil Məmmədova 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsi verməsi barədə sərəncam imzaladı. Bu sərəncam Vergilər Nazirliyinin yaradılması ilə əlaqələndirilsə də, "Yeni Müsavat"ın xəbərinə görə, F.Məmmədova vergilərin toplanması ilə bağlı fövqəladə səlahiyyətlər verilib. Nazirə tapşırılıb ki, istisnasız olaraq məmur-oliqarxların nəzarətində olan bütün istehsal müəssisələri - fabrik-zavodlar, restoranlar, hətta qaçqın və məcburi köçkünlərin adına rəsmiləşdirdikləri köşklər belə vergiyə cəlb edilsin. Bu vergitoplama oliqarxların nəzarətində olan səhiyyə sahələrindən tutmuş iaşə obyektlərinədək tətbiq edilir. Üstəlik, əvvəllər əlbəttə ki, daha yuxarıların razılığı ilə iri müəssisələrini külli miqdarda vergidən yayındıran oliqarxlara deyilib ki, qapılarını və ciblərini vergi müfəttişlərinin üzünə açsınlar, əks təqdirdə, onları pis aqibət gözləyə bilər. Yeri gəlmişkən, xarici neft şirkətlərinin ödənişlərini çıxmaq şərti ilə büdcə daxilolmalarının əhəmiyyətli hissəsi iri dövlət və özəl müəssisələrin payına düşür.

Borclu dövlət müəssisələri ilə bağlı da xüsusi tədbirlər planı işə düşüb. Məsələn, dövlət büdcəsinə borclu olan "Azerenerji" rəhbəri Etibar Pirverdiyevin vəsaitlərin toplanması səlahiyyətlərinin əlindən alınması bu planın tərkib hissədir. Dövlətə külli miqdarda borcu olan bəzi komitələrə də artıq xəbərdarlıq gəlib ki, yaxın vaxtlarda maliyyə toplanması ilə bağlı vəziyyəti düzəldə bilməsələr, onların rəhbərlik etdikləri qurumları da müvafiq nazirliklərin içərisində "əridəcəklər". Bir mənbəmizin iddiasına görə, ləğv edilən və ya səlahiyyətləri məhdudlaşdırılan məmurlar bununla canlarını qurtarmır, onlar da illərdir yığdıqları pullardan "əlavə ödənəyə" vəsait verməyə cəlb edilirlər...

Vergi borcları ictimai rəyin o qədər diqqət yetirmədiyi, ancaq yetərincə nəhəng bir korrupsiya layihəsidir. Oliqarxlar nəinki dövlət vəsaitini və əmlakını mənimsəyir, hətta dövlətin büdcəsinə çatacaq pulu belə oğurlayırlar. 100-200 manatlıq vergi borcuna görə kiçik müəssisələr haqda az qala cinayət işi qaldıran Vergilər Nazirliyi iri dövlət müəssisələrinin milyardlarla ölçülən borcuna görə susmağa məcbur idi. Amma indi məhz hakimiyyətin ən yuxarılarından gələn "vergiləri ödəyin" tapşırığı elə F.Məmmədovun himayəsində olan şirkətlərə də aiddir.

Məlumata görə, vergi borcunu ödəməyən oliqarxların şirkətlərinin siyahısı tutulub və prezidentə təqdim edilmək üçün hazırlanır. Bu səbəbdən də oliqarxlar ciddi təlaşa düşüblər. Onların bir qismi vergi borclarını tezliklə ödəməyə hazır olduqlarını bildirib, bəziləri külli miqdarda vəsaiti toplamaq üçün vaxt istəyiblər. Bir az aşağı ranqlı məmurlar *(onların sırasında bir neçə deputat da var)* isə tez-tələsik 100-120 nəfərlik müəssisələrini və iaşə obyektlərini "bankrot" adı ilə bağlamağa başlayıblar. Amma Vergilər Nazirliyinin müfəttişləri deyib ki, bu üsulla yaxalarını kənara çəkə bilməzlər, çünki prosesə dövlətin ən üst düzeyindən ciddi nəzarət var və Bakı Avropa Oyunlarına onlar öz töhfələrin vergiləri ödəməklə verməlidirlər. Vergilər nazirinin tapşırığı ilə vergi ödəyiciləri üçün post-terminalların sayı da artırılır. Hazırda respublikada 82 min quraşdırılmış və aktiv fəaliyyətdə olan post-terminal var. Avropa Oyunlarınadək isə onların sayının 95 minə çatdırılması planlaşdırılır ki, bu da vergilərin yığılması prosesini daha da tezləşdirməlidir.

Qaynağımız deyib ki, məmurların xüsusilə səhiyyə müəssisələrində ƏDV artırılıb ki, bu da özəl tibb ocaqlarında xidmət haqqının artırılmasına səbəb olacaq.

Seçki ilində əllərində milyardlarla manat cəmləşən oliqarxiyanı hakimiyyət özündən narazı salmaq istəməz. Amma aydındır ki, iqtisadiyyatın zəifləməsi, büdcənin boşalması, inflyasiya və bahalaşmanın sürətlənməsi oliqarxlar üçün daha təhlükəlidir...

❑ **Xəbər xidməti**

# Daha çox hansı dövlət qurumu borcludur?

## "Gəncə Regional Elektrik Şəbəkəsi", "Şimal Elektrik Stansiyası", "Birləşmiş Sukanal" və "Sutikinti" müəssisələri dövlətə daha çox borcludur



**Neftin ucuzlaşması fonunda dövlət büdcəsinin doldurulması problemə çevrilib. Bu məqamda isə iri dövlət qurumlarının vergi borcları yenidən gündəmə gəlib. Bu gün dövlətin iri vergi ödəyicilərinin, böyük şirkətlərin büdcəyə külli miqdarda borcları var. Bu borclar ildən-ilə daha da artır. Ancaq bu qurumlar büdcədən həm dotasiya, həm də investisiya xərcləri əldə etməklə, dövlət vəsaitlərinin səmərəsiz və qeyri-şəffaf istifadəsi ilə məşğuldurlar.**

Bildirilir ki, 2015-ci ildə dövlət mülkiyyətində olan iri vergi ödəyicilərinə ayrılan subsidiyaların həcmində 7,5 milyon manatdan çox artım proqnozlaşdırılır. Bu xərclər əsasən büdcə zərfində 3 istiqamətdə özünü göstərir: nəqliyyat, mənzil-kommunal təsərrüfatı və rabitə xərcləri çərçivəsində. Son illərin təcrübəsi göstərir ki, subsidiya alan strukturlar dövlət büdcəsinə ödədikləri verginin əhəmiyyətli hissəsini xərclər çərçivəsində geri alırlar. Yəni büdcədən aldıqları subsidiya həcmində də vergi ödəyirlər.

Qeyd edək ki, Vergilər Nazirliyi mütəmadi olaraq vergi borcu olan şirkətləri açıqlayır. Sonuncu məlumat bu ilin 4 fevralına aiddir. Həmin tarixdə nazirlik 380 vergi ödəyicisinin adını açıqlayıb ki, onların borcları yığılıb qalıb.

Vergilər Nazirliyi isə məsələ ilə bağlı "Yeni Müsavat" qəzetinin sorğusuna cavab olaraq bildirib ki, Konstitusiyanın 73-cü maddəsinin I bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.

Bildirilir ki, ümumilikdə 1 yanvar 2010-cu il tarixdən 1 yanvar 2015-ci tarixədək respublika üzrə dövlət büdcəsinə olan borc məbləğinin 61,0 faiz azaldılmasına nail olunub. Borclu vergi ödəyicilərinin adları mütəmadi olaraq "Vergilər" qəzetində dərc olunur və artan yekunla Vergilər Nazirliyinin www.taxes.gov.az rəsmi internet səhifəsində yerləşdirilir. Borcunu ödəmiş vergi ödəyicilərinin adları həmin siyahıdan çıxarılır. Bildirilir ki, dövlət mülkiyyətində olan iri vergi ödəyicilərinin dövlət büdcəsinə olan borcları əsasən onların tabeçiliyində olan müstəqil vergi ödəyicilərinin hesabına yaranır. Daha çox vergi borcu olan vergi ödəyicilərindən "Azərenerji" ASC-nin tabeçiliyində olan "Gəncə Regional Elektrik Şəbəkəsi" MMC və "Şimal Elektrik Stansiyası" MMC, "Azərsu" ASC-nin tabeçiliyində olan "Birləşmiş Sukanal" MMC, "Sutikinti" Müəssisəsi və "Gəncə Sukanal" Törəmə ASC, Müdafiə Sənayesi Nazirliyinin tabeçiliyində olan Telemexanika Zavodu və Şirvan Araz Zavodu, habelə Sumqayıt şəhəri Mənzil Təsərrüfatı İstismarı İdarəsi, Abşeron Rayon İcra Hakimiyyəti Mənzil-Kommunal Təsərrüfatı İstehsalat-İstismarı Təmiri Birliyi və Lənkəran Şəhər Mənzil İstismar və Kommunal Müəssisələr İdarəsinin dövlət büdcəsinə böyük məbləğlərdə vergi borcları mövcuddur və onlar barəsində qanunda nəzərdə tutulmuş tədbirlər görülməkdədir.

**Ekspertlər isə problemin ciddiliyini vurğulamaqla bərabər, çıxış yolu da təklif edirlər. Ekspert Natiq Cəfərli bildirir ki, bu, ağrılı və illərlə davam edən bir problemdir:** "Hələ ki problemin həlli yolu tapılmayıb. Bir neçə ildən bir Azərbaycan hökuməti bəzi iri vergi ödəyicilərinin vergi borclarını azaltmaqla, silməklə bu problemi ildən-ilə keçirə-keçirə bugünkü vəziyyət yaranıb. İndi idarəetmədə effektivliyi artırıb, həmin dövlət müəssisələrinin və yaxud da dövlətin mülkiyyətində olan açıq və qapalı səhmdar cəmiyyətlərin idarəetməsinin effektivliyini artırıb, onların gəlirlə işləməyini təmin etmədən vergi borclarının ödənilməsindən danışmaq yersizdir. Çünki ən azından, sadə məntiqlə bunlar gəlirlə işləməli, pul qazanmalıdırlar ki, vergi borclarını da vaxtı-vaxtında ödəsinlər. Vergi borclarından əlavə bu müəssisələrin bir-birilərinə də ciddi borcları var. Kommunal xərclərlə bağlı da ciddi borcları var. İldən-ilə yığılmış borclardır bunlar. Yəni idarəetmə effektivliyi artmasa, bu məsələnin həlli mümkün deyil. Bunun da bir neçə yolu var. Hələ ki Azərbaycan hökuməti bu yolların heç birindən istifadə etmək istəmir. Birinci yol özəlləşdirmədir ki, müəyyən dövlət müəssisələrinin, açıq və qapalı səhmdar cəmiyyətlərinin hissə-hissə satışa çıxarılmasıdır. Bazarda bunları satışa çıxararaq qismən də olsa özəlləşdirilməsinə getmək və o alınan vəsait hesabına büdcədə olan problemlərin bir hissəsini qapatmaq lazımdır. İkinci yol isə uzunmüddətli problemləri ilə həmin müəssisəni özəl sektora icarəyə verib, sıfırdan başlayaraq onların yenidən qurulmasına şərait yaratmaq lazımdır. İdarəetməni özəl sektora dövr etmək olar. Özəl sektor da pul qazandıqdan sonra vergi öhdəliklərini yerinə yetirə bilsin. Hələ ki bu iki variantın heç birinə Azərbaycan hökuməti getmək istəmir. Görünən odur. Bəzi optimallaşdırmaya bənzər addımlar atmağa çalışırlar. Məsələn, "Azərİşıq"ın yaradılması, Torpaq Komitəsinin ləğv olunması və bu kimi addımlar idarəetmədə bəzi optimallaşdırma işartıları verir. Amma bu, köklü problem olduğundan, belə kosmetik dəyişikliklərlə bu problemi həll etmək mümkünsüzdür. Ona görə də köklü islahat lazımdır. İslahatın da iki rolu var, qismən, ya tamamilə özəlləşmə, ya da uzunmüddətli icarəyə verilmə. Bu, olmasa bu problem uzun müddət necə yığılıb qalıbsa, bundan sonra da elə olacaq. Həmin müəssisələrin effektiv idarə olunması sual altına düşəcək, gəlirlə işləməyəcək. Gəlirlə işləməsə də, vergi borclarını ödəyə bilməyəcək".

❑ **Röya RƏFİYEVA**



Vasif Talıbov

## Naxçıvanda növbəti həbs dalğası - "niyə namaz qılmırsan..."

### Muxtar Respublika polisi Vasif Talıbov əleyhinə vərəqə yayanları axtarır, Türkiyədə Naxçıvan polislərini niyə deportasiya ediblər?

**2015-ci il yanvarın 24-də Naxçıvanda saxlanan 3 dindarın həbsi ilə bağlı bir sıra təfərrüat əldə etmişik. Həbs olunanlardan biri Bakıda yaşayıb və Naxçıvan polisi tərəfindən həbs edilərək, Naxçıvana aparılıb. Bu barədə "Yeni Müsavat"a Zəka Mirağayev adlı vətəndaşımız məlumat verib. Onun sözlərinə görə, Bakıdan Naxçıvana aparılan dindar barədə məlumat onun valideynləri Sabunçu Rayon Polis İdarəsi, Baş Prokurorluq və digər orqanlara müraciət edəndən sonra üzə çıxıb.**

Şikayətçi qeyd edir ki, 2 ay əvvəl də Naxçıvanda dindarlara qarşı kütləvi həbs (70-80 nəfər) keçirilib. Əməliyyat birbaşa Naxçıvanın daxili işlər naziri Əhməd Əhmədovun başçılığı ilə həyata keçirilib və bu barədə mətbuatda məlumat yayılsa da, həbsin təfərrüatları o qədər də bilinməyib. "Həmin vaxt həbsdə olanlara işgəncələr verilib və məcbur ediblər ki, məzhəb ayrılığı olaraq, bir-birilərini söysünlər. Hətta həmin işgəncələr zamanı Naxçıvana uyğun olan, həmişəki kimi belə bir gülünc hadisə də baş verib: Həbs olunanlar arasında namaz qılmayan birisi olur və o iddia edir ki, mən namaz qılmıram, məni niyə döyürsünüz? Naxçıvan polisi də deyirmiş ki, sən niyə namaz qılmırsan ki?! Və döyməyə davam etmişlər" - deyə şikayətçi yazır.

Qeyd edək ki, həbs olunan 3 nəfər hazırda həbsdən buraxılsalar da, onların sənədləri Naxçıvan polisindədir və onlara muxtar respublikanı tərk etmək qadağan olunub. Həbslərin səbəbləri isə xeyli dərəcədə ilgincdir. Şikayətçi bildirir ki, təxminən 2 il əvvəl Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri Vasif Talıbova qarşı Naxçıvanda şantaj vərəqələri yayılıb. Vərəqələrin küçələrə dağıdılması Naxçıvanda kameralara düşüb. Lakin vərəqələri yayan avtomobilin nömrəsini kameralarda aydın etmək mümkün olmayıb. Avtomobilin markası "Qaz 3110" olub. Kamera görüntülərini incələmək üçün hətta onları Tayvana göndəriblər. Amma yenə də nəticə əldə edilməyib. Yanvarın 24-də həbs olunan 3 dindara bu hadisəni törətdiklərini etiraf etmələri üçün təzyiq göstərilərək, imza atdırılıb. Lakin həbs olunan 4-cü vətəndaş protokolu imzalamadığı üçün onları həbs etmək mümkün olmayıb və 7 gün polisdə saxladıqdan sonra buraxılıb. Ancaq daha əvvəl həbs olunan 3 nəfərin cinayətlərini etiraf etməsi səhnəsi Naxçıvan televiziyası tərəfindən lentə alınıb, lakin həmin görüntülər efirə verilməyib.

**Z.Mirağayev deyir ki, bu hadisə ilə bağlı axtarılan Çingiz Talıbov isə Türkiyəyə sığınıb:** "Türkiyəyə keçəndən sonra İğdırda Azərbaycan konsulluğuna müraciət edib. Onlar da hiylə işlədərək "3 saatdan sonra gəl", deyiblər və 3 saatdan sonra konsulluğa gedən Çingiz Talıbovu mülki geyimli Azərbaycan polisləri tutublar. Ancaq küçədə zorla maşına mindirərkən Türkiyə polisi bu zorakılığın şahidi olub və hadisəyə müdaxilə edib. Nəticədə qanunsuz şəkildə insan oğurlayıb Naxçıvana aparmaq istəyən Naxçıvan polisinin əməlləri Türkiyə polisi tərəfindən ifşa olunub. 3 nəfər mülki geyimli Naxçıvan polisi Türkiyədən deportasiya olunub. Çingiz Talıbov isə hələ də Türkiyədədir. Ona görə Naxçıvana ailəsinin yanına geri qayıda bilmir ki, onu da qanunsuz həbs edib, işgəncə verəcəklər. Çingiz Talıbovun Naxçıvana qayıtması üçün ailəsinə də təzyiqlər olunur".

Həbsdə olan digər 3 nəfəri isə fevralın 11-də sənədlərini qaytarmamaqla azadlığa buraxıblar. Bu, həbsdə olanların ailələrinin ölkə prezidenti İlham Əliyevə olan çoxsaylı şikayətlərindən sonra mümkün olub. Çingiz Murtuz oğlu Talıbov isə Naxçıvan rəhbərliyi tərəfindən ona qarşı olan təzyiq və təhdidlərə son qoyulmasını istəyir və ölkə prezidenti İlham Əliyevdən ədalətli məhkəmə tələb edir ki, ona da digərləri kimi məcburiyyət, təhdidlər qarşısında çirkin əməllərə imza atdırmasınlar.

❑ KƏNAN

## Partiya sədrindən dialoqa qarşı olanlara sərt cavab

### "Belə görünür, bu qozbelləri heç qəbir də düzəltməyəcək"

**Azadlıq Partiyasının sədri Əhməd Oruc hakimiyyətlə siyasi partiyaların arasında başlanan dialoq prosesinə tənqidi mövqedən yanaşan siyasi qüvvələri hədəfə alan və qalmaqal yaradacaq yazı ilə çıxış edib. Musavat.com-a təqdim etdiyi geniş yazıda Əhməd Oruc bildirib ki, daxili barışın əleyhinə olan beynəlxalq güclər, onların dəstəyi ilə ayaqda duran bəzi qüvvələr dialoq prosesinin uğurla nəticələnməməsi üçün var gücü ilə işləyirlər.**



Əhməd Oruc

Ona görə də bu prosesin hakimiyyətə lazım olduğu barədə təbliğat aparılır: "Guya demokratik dəyişikliklər edilməsi üçün hakimiyyətə Qərbin güclü təzyiqləri var və hakimiyyət də məcburən bu demokratiya oyununu oynayır. Əvvəla, siyasətdən başı çıxan hər kəs başa düşür ki, Qərbin əlində demokratiya bir təsir, təhdid vasitəsidir. Qərb öz maraqlarına uyğun olduqda istənilən reyimlə əməkdaşlıq da edir, marağı olmadıqda demokratiya adı altında heç bir günahı olmayan ölkələri xarabazara da çevirə bilir. Bəli, bu proses hakimiyyətə lazımdır, Qərbi əsas təzyiq vasitələrindən, ölkədəki resurslardan mərhum etmək üçün, regionda və dünyada baş verən təlatümlərin fonunda öz hakimiyyətini qorumaq üçün. Və zənnimcə, məhz bu nöqtədə - ölkənin kənar təsirlərdən azad olması, dünyada baş verən fəlakətli proseslərdən qorunmaq baxımından hakimiyyətlə bizim maraqlarımız üst-üstə düşür və bu üst-üstə düşən maraqlar bugünkü prosesin əsas lokomotividir".

**Ə.Oruc qeyd edib ki, başlanan prosesin az da olsa ilkin nəticələri var, millətin içində bu proseslər nəticəsində vəziyyətin yaxşılaşacağına bir ümid yaranıb:** "Sivil ölkələrdə olduğu kimi bizdə də hakimiyyət təmsilçisi ilə milli müxalifət dialoq aparır, bir neçə siyasi məhbus azad olundu, digərlərinin ən azı vəziyyətinin yaxşılaşması üçün danışıqlar aparılır, dialoq vəziyyəti siyasi məhbuslara qarşı aqressiv münasibəti yumşaldıb, hakimiyyətə mövqelərimiz məsafədən bəyanat şəklində deyil, birbaşa təmasda, polemika şəklində çatdırılır. Təbii ki, bu nəticələr bizim və cəmiyyətin istəklərindən çox azdır, amma artacağına ümid var, proses davam edir. Və biz nəticələrdən narazı olduğumuz vaxt bir suala cavab axtarmalıyıq: bu prosesin alternativi nədir? Siyasi aktiv kəsimin həbsi, "Məhsul" stadionunda min nəfərlik aksiya? Bu düşünülməmiş siyasət elə bir şərait yaratdı ki, demək olar ki, bütün aktiv kəsim həbs olundu, ya didərgin vəziyyətindədir. Artıq həbs olunası elə bir aktiv də qalmadı. Bu aksiyaların hansısa nəticə verəcəyinə kimdəsə inam qalıbmı? Bu barışmamazlıq, qarşılıqlı inkar, nifrət bu ölkəni istənilən kənar təhdidə qarşı zəif vəziyyətə salır. İstər ərəb ölkələrində, istərsə də Ukraynada bu barışmazlıqların hansı nəticələr verdiyi göz önündədir. Və bütün bunlar birmənalı şəkildə söyləməyə əsas verir ki, başlanan bu proses milləti düşünən hər bir kəsə lazımdır".

**Ə.Oruc qeyd edib ki, 1993-cü ildə milli hökuməti süquta uğradanlar, 22 ildə müxalifəti günbəgün zəif salanlar, öz konyuktur maraqları naminə yüz minlik xalq hərəkatını bir ovuc səviyyəsinə qədər azaldanlar, milli platformanın bu qədər zəif bir duruma düşməsinin cavabdehləri hesab edirlər ki, müxalifət və millət adına yenə də yalnız onlar danışa bilər:** "Nədən? Cənablar, bəlkə 22 ildən sonra bu millətin həqiqi nümayəndələrinə də, "Con" və "Vasya" qarşısında heç bir öhdəliyi olmayanlara da öz aqibətlərini özlərinin müəyyən eləməsi üçün bir şans tanıyasız? Yoxsa bu milləti uğursuzluqdan uğursuzluğa aparmaq üçün andmı içmisiniz, yoxsa kiminsə qabağında öhdəlikləriniz var? Yoxsa kimlərsə bu məsələyə sizi vadar edir. Bugünlərdə müxalifətin əbədi liderlərindən biri sosial şəbəkədə tam ciddi görkəm alaraq "gerçək dialoq yalnız mənimlə ola bilər" məzmunlu bir status paylaşmışdı. Belə görünür bu qozbelləri heç qəbir də düzəltməyəcək.

Milli Şuranın cahanşümul liderlərindən biri "bizim bu cür dialoqlara itiriləsi vaxtımız yoxdur" kimi çox "ciddi" bəyanat verib. Əvvəla, görəsən, bu lider hansı daha ciddi işlərlə məşğuldur. Onların bu gün əsas işi Moskvanın bu dəfə də "Milyarderlər ittifaqı" və onun Bakı filialına hansısa sifariş veriləcəyini gözləməkdir".

❑ E.SEYİDAĞA

## "Minsk razılaşması" nə vəd edir?



Azər RƏŞİDOĞLU

**Şərqi Ukraynada atəşkəs əldə olundu. Bu atəşkəs faktiki olaraq Krımın ilhaqını unutdurmağa şərait yaradır. Lakin maraqlıdır ki, Rusiya indiyə qədər Ukraynanın şərqində baş verən proseslərdə iştirak etmədiyini iddia edirdi. Sənədə imza atmaqla Kreml savaş iştirakçısı olduğunu nümayiş etdirdi. Proseslərin təhlili, Şərqi Ukraynanın rəsmi Kiyevin nəzarətindən çıxacağı ehtimalını artırır. Odur ki, belə bir sual açıq qalır - atəşkəs kimə sərf edir? İlk baxışdan, yaranmış vəziyyətdə atəşkəs Ukraynaya bir sıra üstünlüklər verir. Düzdür, məsələnin siyasi tərəfi də var. Atəşkəs Ukraynanın şərqində baş verənlərin arxasında məhz Rusiyanın dayandığını sübut etdi. Rusiya açıq formada Şərqi Avropanı şantaj etməkdə davam edir.**

Araşdırmaçılar belə suala cavab axtarır - Minsk razılaşması nə vəd edir və bu atəşkəs Bişkək protokolundan nə ilə fərqlənir? Qarabağın Bakının nəzarətindən çıxdığı kimi, Şərqi Ukrayna da Kiyevin təsir dairəsindən çıxa bilər.

Digər tərəfdən, Minsk razılaşması tərəflərə zaman udmağa şərait yaradır. Lakin uzunmüddətli atəşkəs Ukraynaya sərf etmir. Minsk razılaşması ilə Luqansk, Donetsk, Krım faktiki olaraq rusların işğalında qaldı. Kiyev uzun müddət buna seyrçi qala bilməz. Onu da vurğulamaq lazım gəlir ki, Rusiya sanksiyalardan yayınmağa, Ukrayna isə ərazi bütövlüyünü təmin etməyə çalışa bilər. Bu baş verərsə, Vaşinqtonun mövqeyi bir qədər də sərtləşə bilər. Görünən budur ki, Rusiya artıq Qərblə açıq qarşıdurmaya başlayıb. İndi, hər kəsi belə sual maraqlandırır - Moskva belə açıq qarşıdurmaya sona qədər getmək fikrindədirmi? Ruslar nə zamana qədər Qərblə soyuq savaş yaşayacaqlar? Rusiya, bütün iqtisadi və beynəlxalq aləmdə yaranan diplomatik çətinliklərə dözüb bu mübarizədə sona qədər getmək istəyə bilər. Lakin bu Rusiyanın çöküşünü tezləşdirə bilərdi. Rusiya Qərbin təzyiqinə davam gətirməyərək, geri çəkiləcəksə, onda bu həm də Ukrayna demokratlarının qələbəsi hesab olunacaq. Son nəticədə geri çəkilən Rusiyaya Qərbin təzyiqlərin artması prosesi baş verə bilər. Kreml üçün yaranan vəziyyətdə cəmi iki çıxış yolu qalır - ya savaşı davam etdirmək, ya da Qərb qarşısında "ağ bayraq" qaldırıb, iqtisadi böhrandan qurtulmaq.

Minsk razılaşması Rusiyanın Ukraynada təsir imkanlarını saxlamağa imkan vermir. Ona görə də bu razılaşma Rusiya üçün sadəcə növbəti zaman qazanma kimi istifadə olunur. Çünki razılaşma olmadığı təqdirdə artıq Avropa Birliyində növbəti sanksiyaların qəbul etməsi reallaşmaq üzrə idi. Rusiya ən azından bunun qarşısını almış oldu.

Onu da nəzərə almaq lazımdır ki, Rusiyanın Qərbə təsir etməkl imkanı çox deyil. Ona görə də Rusiya Qərbi şantaj edir, lakin ona təklif edilən sənədi də imzalayır.

Şərqi Ukraynada hərbi əməliyyatlar müəyyən zamandan sonra müxtəlif bəhanələrlə yenidən başlaya bilər.

Rusiya nə sülh, nə müharibə taktikası ilə Ukraynada gedən islahatların qarşısını almaq istəyir. Bu isə Poroşenko hakimiyyətinə qarşı narazılıq yaratmaq və əksinqilabı həyata keçirməklə Ukraynanı yenidən öz əhatə dairəsinə qaytarmaq planına uyğundur. Putin hakimiyyətini qoruyub saxlamağın yolunu Ukrayna üzərində qələbədə görür. Ruslar yarı yolda dayanmaq istəmirlər. Hətta müəyyən kompromis mümkün olsa belə, rəsmi Moskva sonuna qədər özünü bölgənin sahibi kimi aparmaq niyyətindədir. Rusiyanın bu prosesdə aktiv iştirakının əsas səbəbi geosiyasi amillərlə bağlıdır. Avropa ilə Asiyanı birləşdirən Ukrayna Moskva üçün Qara dənizdə möhkəmlənmək baxımından əhəmiyyətlidir.

Moskva Kiyevi özünün tərəfdaşına çevirməyə çalışmaqla Qara dənizdə nəzarəti öz əlinə almağa cəhd göstərir. Bir sözlə, Ukraynasız Rusiya Avrasiya Birliyi ideyasını dəfn etmiş olur. Odur ki, atəşkəsin uzun sürməyəcəyi bir daha sübuta yetmiş olur...



# İnsan haqları təkcə geosiyasi instrumentdirmi?

Hüseynbala SƏLİMOV

**Bəli, hər şey bizim hakimiyyət təmsilçilərinin təqdim etdiyi qədər sadə və primitiv olsaydı adam müəyyən mövzulara toxunmaqla heç özünə əziyyət də verməzdi.**

Ona görə "təqdim etdiyi" kimi yazırıq ki, əslində onlar özləri də yaxşı bilirlər ki, məsələ heç də rəsmi təbliğatın vurğuladığı kimi deyil - müəyyən problemlər olsa da, hamı gözəl bilir ki, filan ölkədə insan haqlarının və demokratiyanın əsl vəziyyəti necədir...

Başqa cür olsaydı insanlar yaşamaq və işləmək üçün ABŞ-a deyil, Azərbaycana can atardılar. Amma belə deyil və bunu hamımız gözəl bilirik. O sözlər ki, burada Qərb ölkələri haqqında deyilir, onlar mahiyyətcə keçmiş sovet təbliğatını xatırladır...

Sovetlərin vaxtında vəziyyət bir qədər fərqli idi, adamların hamısı olmasa da çox böyük qismi yazılanlara və deyilənlərə inanırdı, ona görə ki, ölkə tamamilə qapalı idi və bu ölkəni yalnız istisna hallarda, özü də böyük nəzarət altında tərk etmək olardı...

İndi o vaxtlar deyil və elə bu səbəbdən də Azərbaycanda ABŞ demokratiyası haqqında deyilənlərin bir çürük qoz qədər də qiyməti yoxdur...

Təbii ki, insan haqları bitmiş problem deyil. Burada müəyyən nöqsanlar və problemlər hələ də qalır. Ən azı ona görə ki, insan haqları çox geniş məfhumdur. Bir də görürsən ki, ölkənin öz vətəndaşları ilə bağlı hər şey öz qaydasındadır. Amma məlum olur ki, bu ölkədə mühacirlərə qarşı təpkilər var, onların hüquqları pozulur. Bu, dərhal həmin ölkə üçün minus gətirir...

Və yaxud da baxıb görürsən ki, digər parametrlərə görə hər şey qaydasındadır, amma tutaq ki, dini və ya etnik dözümsüzlük var. Bu da hansısa ölkə üçün minus hesab edilir...

Məsələn, bu yaxınlarda maraqlı bir hesabat eşitdik. Məlum olur ki, ABŞ-da 11 sentyabrdan sonra müsəlmanlara qarşı törədilən cinayətlərin sayı beş dəfə artıb. Və yaxud da məlum olur ki, dini zəmində cinayətlər daha çox yəhudilərə və bir də müsəlmanlara qarşı törədilir...

Təbii ki, bunlar problemdir və heç kim də onları ört-basdır etmək niyyətində deyil. Amma necə etmək olardı ki, dünyada insan haqlarının vəziyyəti ilə bağlı qlobal hesabatlar yeni dövlətlərin təmsilçilərini qeyzləndirməsin?

Bunun üçün diferensial yanaşma təqdim etmək olardı. Məsələn, Azərbaycanda dini və etnik mənsubiyyətinə görə heç kim diskriminasiyaya məruz qalmır. Təbii ki, bu, çox, olduqca müsbət haldır. Hesabatlarda bunları qeyd etməklə daha obyektiv mənzərə yaratmaq olardı...

Amma bunlar qeyd edilmirmi? Təbii ki, qeyd edilir. Amma hesabatların məqsədi heç də bu və ya digər ölkədə insan haqlarının vəziyyətinin panoramını yaratmaq deyil. Daha çox pozuntulara diqqət yetirilir. Bizimkilər elə bilirlər ki, insanları qeyri-siyasi maddələrlə məsuliyyətə cəlb etməklə bütün dünyanın gözündən pərdə asa biləcəklər...

Təbii ki, bu, mümkün deyil. Dünya bizə açıq olduğu kimi biz də hələ dünyaya açığıq. Orada vəziyyəti bilirlər. Və hətta adama elə gəlir ki, onlar çox vaxt bildiklərindən qat-qat az tənqid edirlər.

Həm də məsəl var, deyirlər ki, görünən dağa nə bələdçi? Məgər hesabatlar olmasa, beynəlxalq təşkilatlar yazmasa, biz insan haqlarının ölkədəki vəsiyyətini bilmirikmi? Hamı hər şeyi bilir. Susmaq da heç də razılıq əlaməti deyil. İnsanlar ona görə susurlar ki, qorxurlar...

Bizə elə gəlir ki, bu hakimiyyətin amerikafobiyasının arxasında başqa mətləblər dayanır; bunlar ABŞ-dan deyil, Rusiyadan ehtiyat edirlər. Ona görə də özlərini elə göstərirlər ki, guya Rusiyanın yanındadırlar...

Bu hakimiyyətin əsas dayağı Rusiyadır. Yalnız ən sadəlövh adamlar buna şübhə edə bilər. Bunların bütün "seçkiləri", hətta bütün hakimiyyət məsələləri Rusiyanın siyasi texnoloqlarının təqdim etdiyi sxem üzrə baş verir...

2013-il yadınıza gəlirmi? Azərbaycana kim təşrif buyurdu? Özü də necə təşrif buyurdu?..

Yaxın dövrün hamıya bəlli detallarını bir daha açıqlamağa ehtiyac varmı? Onsuz da hamı hər şeyi bilir. O şeyi ki, televiziyalarda deyirlər, onları ciddi qəbul etməyə dəyməz; bir daha deyirik ki, görünən dağa bələdçi gərək deyil!..

Elə bu səbəbdən də gülünc siyasi komediya oynayırlar. Təbii ki, hər bir ölkədə bu və digər ölkə ilə əlaqələrin vəziyyəti ilə bağlı dinləmələr keçirilə bilər - ən azı ona görə ki, parlamentin beynəlxalq əlaqələr komitəsi var...

Amma biri var dinləmə, bir də var ki, komediya. Bunlarınkı əsl komediyadır... Bu komediya da əbədi ola bilməz. Bir gün pərdələr enməlidir...

# "İsa bəy partiyanın cari fəaliyyətinə qarışmır"

## İsa Qəmbərin başqanlığa qayıdacağı xəbəri təkzib edildi

**Bir neçə gündür bəzi media orqanlarında Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbərin başqanlığa dönəcəyi barədə informasiyalar yayılır. Xəbərlərdə iddia olunur ki, qurultaydan xeyli vaxt keçməsinə baxmayaraq, Müsavat daxilində narazılıqların tam aradan qalxmaması və bu vəziyyətin seçki ilində partiyanın fəaliyyətinə mənfi təsir göstərməsi İsa Qəmbərin başqanlığa qayıtması ideyasının gündəmə gəlməsinə yol açıb.**

Qeyd olunur ki, belə bir məqamda təşkilat daxilində düşünənlər var ki, İsa Qəmbər yenidən Müsavat Partiyasının başqanı olarsa, partiyada vəziyyət dəyişə bilər. Bu barədə modern.az saytının xəbərində məsələ bir qədər konkretləşdirilir: "Məlumata görə, qurum yenidən qurultay keçirib, İsa Qəmbəri başqan seçmək istəyir. Əldə etdiyimiz məlumatda qeyd olunur ki, İsa Qəmbərin yenidən Müsavat Partiyasının rəhbərliyinə gəlişini gözləyənlər də az deyil və bu istiqamətdə səy göstərir.

Məsələ ilə bağlı İsa Qəmbərin isə dəqiq və aydın mövqeyi yoxdur. Görünən isə odur ki, İsa Qəmbər həqiqətən də Arif Hacılıya etibar edir və bəlkə də bu səbəbdəndir ki, onun alovlu tərəfdarıdır. Lakin eks-başqanın növbəti dəfə Müsavat Partiyasının rəhbərliyinə gəlişi sözsüz ki, onun özünün iradəsindən və istəyindən asılı olacaq".



**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı isə "Yeni Müsavat"a açıqlamasında bəzi saytların yaydığı bu informasiyanın tamamilə yalan olduğunu bildirdi:** "Bu dezinformasiya olmaqla yanaşı, "Müsavat dağılır, Müsavat fəaliyyət göstərə bilmir" tipli anti-Müsavat fikrini yaymaq məqsədi güdür. Bu cür dezinformasiyaları yayanların məqsədləri həyata keçən deyil.

Qurultaydan sonra partiyanın Məclisi, MNTK-sı, Divanı və müavinliyi tam şəkildə artıq müəyyənləşib. Ola bilər müavinlərin və müşavirlərin sayına əlavələr olsun, yeni təyinatlar həyata keçirilsin. Partiyanın rəhbərliyi nizamnamə və proqrama uyğun olaraq öz fəaliyyətini davam etdirir".

"Qurultaydan sonrakı dönəmdə sabiq başqan İsa Qəmbərin partiyanın və yeni başqanının fəaliyyətinə dəstəyini hiss edirsinizmi" sualına G.Aslanlı belə cavab verdi: "Partiyanın fəaliyyətində keçmiş başqanın dəstəyi məsələsi siyasi məsələlərdə hansısa məsləhətləşmələr şəklində ola bilir və olur. Amma partiyanın cari fəaliyyətinə İsa Qəmbər qarışmır. Bu məsələni partiyanın başqanı Arif Hacılı və partiyanın müavinliyi həyata keçirir. Həftədə bir dəfə Divanın iclası olur. Həbsdə olan iki Divan üzvünü nəzərə almasaq, Divan üzvlərinin yüz faizi iclaslarda iştirak edirlər. Partiyanın cari fəaliyyəti nizamnamə və proqrama uyğun olaraq həyata keçirilir. Partiyada yeni başqan seçkisi keçirmək haqqında bir dəfə olsun təklif və ya fikrə rast gəlməmişəm".

❑ Etibar SEYİDAĞA

# Başqan müavinindən ADR-dəki müsavatçılara tövsiyə

## "O təşkilat Müsavata qarşı formal bir təşkilat olacaq, üzvlərimiz doğru qərar versinlər"

**Müsavat başqanlığına sabiq namizəd, partiyadan kənarlaşdırılan Qubad İbadoğlunun rəhbərliyi ilə yaradılan Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının fevralın 21-də təsis yığıncağı keçiriləcək. ADR-də keçmiş müsavatçılarla yanaşı hazırda Müsavat Partiyasının üzvü olan bir sıra şəxslər də təmsil olunur. Bəs, təsis konfransından sonra onların Müsavat Partiyasından çıxarılması gözlənilləndirmi? Bu barədə Müsavat rəhbərliyində müzakirə aparılırmı?**



Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlı bildirdi ki, bu məsələ partiyada müzakirə olunmayıb, hazırda gündəmdə həmin şəxslərin xaric edilməsi yoxdur: "Sadəcə, üzvlərimizə də tövsiyə edərdim ki, orda təmsil olunmaları onlar üçün uğur vəd etmir. O təşkilat Müsavata qarşı yaradılmış formal bir təşkilat olacaq. Ona görə də üzvlərimizə də tövsiyə edərdim ki, doğru qərar versinlər. Özləri də görəcəklər ki, o təşkilat Müsavata qarşı yaradılmış formal bir təşkilat funksiyasını üzərinə götürəcək".

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı isə bildirdi ki, Azərbaycan Demokratiya və Rifah Hərəkatında təmsil olunan Müsavat Partiyasının üzvləri nizamnaməni pozduqları halda cəzalandırılacaqlar:** "Həmin qurumda təmsil olunan Müsavat üzvləri hər hansı nizamnamə pozuntusuna yol verəcəklərsə, bunlar partiya rəhbərliyi tərəfindən araşdırılacaq və nizamnaməyə uyğun tədbir görüləcək. Orada təmsil olunanların əksəriyyəti Müsavat Partiyasından çıxarılmış və ya istefa vermiş şəxslərdir. Ancaq hazırda partiya üzvü olan şəxslər də var ki, onlar nizamnamə pozuntusuna yol verəcəklərsə, cəzalandırılacaqlar".

ADR-in Təşkilat Komitəsinin üzvü, Müsavat Partiyası Qadınlar Birliyinin sədri Ellada Məmmədli isə APA-ya açıqlamasında bildirib ki, ADR ictimai hərəkat olduğu üçün həm orada, həm də Müsavatda fəaliyyətini davam etdirəcək və bu, nizamnamə pozuntusu deyil.

**Ellada Məmmədli onu da deyib ki, Müsavat Partiyası Qadınlar Birliyinin buraxılması üçün zəmin hazırlayırlar:** "Hazırda partiyanın Qadınlar Birliyinin buraxılması ilə bağlı fikirlər sosial şəbəkələrdə yazışmalar formasındadır. Bu hazırlıqdır. Qubad İbadoğlunun partiyadan xaric edilməsi nizamnamə pozuntusu idi. Bundan sonra mən bunlardan hər şey gözləyirəm. Birliyin buraxılıb-buraxılmaması ilə bağlı konkret fikir söyləyə bilmərəm. Hazırda fəaliyyətimiz davam edir. Heç bir nizamnamə pozuntusuna yol vermirəm. Partiya rəhbərliyi məni hara dəvət edirsə, ora da gedirəm. Partiyanın sonuncu toplantısına məni dəvət etməmişdilər".

**Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlı isə bildirdi ki, Müsavat Qadınlar Birliyinin buraxılması partiyanın gündəliyində yoxdur.**

❑ E.SEYİDAĞA




# Türkiyədə Xocalı soyqırımı ilə bağlı böyük tədbir keçiriləcək

**Türkiyədə Xocalı soyqırımı ilə bağlı silsilə tədbirlərin keçirilməsi planlaşdırılır. Qondarma "erməni soyqırımı" şoularını darmadağın etmək üçün Xocalı həqiqətlərinin yayılması qardaş ölkənin də ciddi maraq dairəsindədir.**

İHH İnsani Yardım Vəqfinin təşkilatçılığı ilə fevralın 21-də İstanbulda Xocalı simpoziumu keçiriləcək. Simpoziumun plenar iclasında qurumun rəhbəri Bülənt Yıldırım, Azərbaycanın İstanbul baş konsulu Həsən Zeynalov, Türkiyə baş nazirinin müavini Numan Kurtulmuş, azərbaycanlı millət vəkilləri Məlahət İbrahimqızı və Jalə Əliyeva çıxış edəcəklər. Sonra Aygün Həsənoğlu, Aqil Ələsgər, Nevzat Çiçəyin sədrliyi ilə bölmə iclasları keçiriləcək. Bölmə iclaslarında QAT sədri Akif Nağı "Qarabağ məsələsi dünya münasibətləri sistemində", millət vəkilləri Fazil Mustafa "Xocalı qətliamı hüquqi müstəvidə", İlyas İsmayılov "Qarabağın gələcəyi və işğalın nəticələrinin aradan qaldırılması", dr.prof. Gökmen Kılıcoğlu "Dağlıq Qarabağ məsələsinin gizli tərəfləri", Kenan Alpay "İslam dünyasının Qarabağ məsələsinin həllində rolu", QAT Ali Məclisinin üzvü İlqar İbrahimov "Türkiyənin Qafqaz siyasəti, bölgə ölkələri və Qarabağ məsələsi", həmçinin digər müəlliflərin müxtəlif mövzularda məruzələrinin dinlənilməsi, qərarların qəbulu nəzərdə tutulur. Qarabağ Azadlıq Təşkilatından aldığımız məlumata görə, tədbirdə həmçinin Qarabağ qazisi, QAT İdarə Heyətinin üzvü Tahir Bayramov, QAT-ın Türkiyə təmsilçiliyinin rəhbəri Cəfər Dal, Xocalı hadisələrinin şahidi Dürdanə Ağayeva, tədqiqatçı alimlər Hatəm Cabbarlı, Mehmet Əli Bolat, Xəlil Bal və digərləri iştirak edəcək.

❑ Cavid TURAN

# Ümid Partiyasında seçkilərlə bağlı seminar keçirilib

**Belə bir anekdot var. Birinə deyirlər, sən əsl demaqoqsan. Qayıdır ki, nə olsun, heç qiymət verən yoxdu. Lətifəsi bizdən uzaq, indi biz də ədalətin zühuru üçün çarpışırıq. Üstəlik, toplumun dəstəyi olsa Tomas Morun utopiyasını və yaydığı humanist ideyaları reallaşdıracağımıza da inanırıq. Əslinə baxanda hamının iş-gücü var. Əlavə məsuliyyət artıq yükdü. Bu yükün altına girmişik, uğura inanırıq, ədalətə də.... demirik, hər şey hazırdı, qalıb bircə sizin dəstəyiniz. Deyirik, ən azı boş yerə külüng döymədiyimizi hiss edək.**

**Aysel ƏLİZADƏ**



## Tomas Mor kimi olmaq...

Söhbət "125- lər" Siyasi Klubundan gedir. Bu klubda elə adamlar var qaçaraq iş həyatından başları bir dəqiqə açılmır. Heç vaxt siyasi iddiası olmayıb. Karyerası, peşəsi ilə bir qatqıda bulunmağa çalışıb. Ancaq ölkədə, cəmiyyətdə olan problemlər bəzən adamı ruhundan tutub özünə çəkib "mənlə məşğul ol" deyir.

Çünki bura bizim vətənimizdi.

İstəsək də, istəməsək də, yorulub bezsək də. "Sən siyasətlə məşğul olmasan, o sənlə məşğul olacaq" misalının anlamı bəlkə də elə budu. Tarix göstərir ki, ölkədə heç bir siyasi qərarı vətəndaşlar verməyəndə kənardan gəlib onun bağımsızlığını *(hürriyyətini)* əlindən alıb "qərarları özünüz verəcəyik" deyirlər. O zaman adamların fərdi azadlığından söhbət gedə bilməz. Çünki bütün xalqın taleyi keçir başqalarının əlinə.

"Nəyinə gərəkdi?" - illərdi hamı bir-birinə bunu deyir.

Bəzən küyə düşüb özün də özünə bu sualı verirsən: "Nəyimə gərəkdi?"

Sonra büzüşüb qalırsan yerində. Çənən sinənə yapışır, "nəyinə gərəkdi, nəyə görə, niyə"... Ətrafda canlı-cansız nə varsa üstünə gəlir bu sualla. Tək hiss edirsən özünü.

Ardından öyrənirsən ki, təklənən yalnız sən deyilsən. Qoşulursunuz bir-birinizə. Artıq bu sual sizi narahat etmir. Cavabını bilirsiniz. Bu cavab şübhələrinizi oxşayıb razı salır sizi.

Ola bilər artıq bizə heç nə gərək deyil. Ancaq uşaqlarımıza gərəkdir. Onlar üçündü.

Biz bütün uşaqlığı Lenin babaya aid şeirləri əzbərləməklə keçən və günlərin birində "ölməz baba"nın başını havada sallanan görən, goruna söyüldüyünü eşidən adamlarıq. Gəncliyindən "bu kişilərdən hansıdı öndər" sualı ilə çaş-baş qalanlarıq. Birdən-birə köksüz, əcdadsız olan və bu əcdadı özü axtarıb tapan nəsillərik.

Böyük Məmməd Araz demiş, beləcə, bizdən ötdü.

Ancaq uşaqlarımıza dəyməsin deyə toparlanıb yenidən çırmanası, yorğun üzümüzü özümüz silləiəməli, süst bədənimizi gələcək qurmaqdan ötrü canlandırmalı oluruq. Bizə heç nə hazır gəlmədi. Oxumaq, görmək istədiyimizi özümüz tapmalı, aydınlanmaq aclığını özümüz doyurmalı, bəzən havaya yumruq atdığımızın əzabını özümüz ört-basdır edib yaşamalı olduq. Özümüz yaratmalı olduq dəyərlərimizi.

"Nəyimizə gərəkdi?" sualı da, "mənlik deyil" düşüncəsi də dünyanın ən rahat sığınacağıdı. Fayda verə biləcəyini qəlbinin dərinliyində duyursansa, zəhmətinin qarşılığında gülümsəyən gözlər sənə baxırsa, barış üçün, övladının mutluluğu, qutsal dəyərlər, insanlığın qazanması uğuruna çaba sərf etməkdən çəkinmirsən.

**İndi insanlıq üçün olan bütün çağırışlar sadəlövhlük sayılır. Russonun "Bilim və sənətin sorğulanması" essesində belə bir fikir var:** "Gün gələcək, hər kəs öz qiymətini görmədən başqasının dəyərini düşürməyə çalışacaq. Heç kim düşməninə qarşı kobudluq etməsə də, ustalıqla çamur atacaq. Soy davaları sönəcək, ancaq vətən sevgisinin də izi-tozu qalmayacaq. Pis sayılan cəhalətin yerini təhlükəli bir nihilizm tutacaq. Bir çox vərdiş, tərz pislənəcək, bir çoxu da dəyər adı alıb önəmli sayılacaq".

Kosmopolitliyin, eqosentrizmin, cinssizliyin stil, pont şəkli aldığı, güvənilməzliyin norma kimi qəbul olunduğu ədalətsizliyə öyrəşən dünyaya baxıb Russonun niyə Russo olduğunu başa düşürsən. Kosmopolitik də, cinssizlik də, hətta eqosentrizm də insanın bioloji, ruhsal və psixoloji durumuna bağlı məsələdir. Burda sənin başqasının haqqına girməyin, həyatına qarışmağın yersiz və gərəksizdi. Ancaq bunların stilə çevrilməsi tamamilə başqa məzmun daşıyır və məqsədlidir.

Övladların vicdansız, anlayışsız, acımasız, vecsiz, sevgisiz bir cəmiyyətdə yaşayacağından qorxursan.

Bütöv mənzərədə isə yalnız özünü düşünənlər, uşağının sabahına təkcə pul yığmaqla yatırım edənlər görünür.

Uçurumları, aysberqləri duyub həyəcan siqnalı verənlərə qoşulmaq istəyirsən. Və o an filosofları, aydınları görməzdən gəlib "nəyimə gərəkdi?!" düşünə bilmirsən.

Səni yalnız Çernışevskinin "nə etməli" sualı və bu suala verdiyi cavab düşündürür. "Vicdansız, anlayışsız, acımasız, vecsiz, sevgisiz olmamaq".

Biz problemlərin gözünə təkcə ayrı-ayrılıqda deyil, həm də intellektual birgəlikdə baxmaq istədik. "Nəyimə gərəkdi" yox, "nə etməli" düşünən insanların birliyini - "125 lər" klubunu yaratdıq.

125-lər nədir?

Parlamentdə təmsil olunan 125 deputatı simvolizə edən bir klubun adı. 125-lər klubunu formatına görə "Alternativ parlament" də adlandırmaq olar. Bu klubda təmsil olunan hər bir üzv qarşıdan gələn parlament seçkilərində hansı dairədə şansının yüksək olduğunu düşünürsə ordan namizədliyini irəli sürəcək. 125-lər siyasi partiya deyil, hərəkat xarakterli siyasi klubdu. Cəmiyyətə fayda verəcəyini düşünən, ölkə maraqları üçün çalışmağa hazır, neqativ situasiyalarda sözünü deyə bilən, intellektinə, siyasi duyumuna, vicdanına güvənən Azərbaycan vətəndaşı bu klubda təmsil oluna bilər.

Ötən il 14 fevral günü öz varlığını bəyan edən klubun bir ili tamam oldu. Bir il ərzində sıralarına dəyərli adamlar qoşuldu. Azad, istedadlı, savadlı, müasir adamları bir arada görmək, onları parlamentdə təsəvvür etmək həm də estetik baxımdan xoşdur. Yeri gəldi deyim, şəxsən mən parlamentdə duruşu, xarizması yerində, baxımlı, ağıllı, mərd adamların çoxluğunu arzulamışam həmişə. Vəzifənin, titulun, statusun böyük cazibəsi var. Bir də var yararlı olmaq istəyi və bacarığı. Yazının əvvəlində Tomas Morun adını çəkdik. Sonu edam olsa da, belə adamlarınkı sadəcə yaşamaq deyil, onların həyatı kürəxana kimidi, gördükləri işi zindan üzərinə qoyub, qan-tər içində tarixə döyürlər. Bu böyük ingilis öz cəmiyyətinə həyatını verdi, ölkəsinə yararlı olmaq üçün çabaladı, parlamentə getdi, həlledici məqamlarda ortada oldu, yazdı. İngiltərənin mədəniyyətinə, dövlətçiliyinə, təfəkkür fazasına xidmətləri çoxdu. Bəzi incəlikləri çıxsaq - dönəmin dini və siyasi görüşlərinin təsirini, Mor istinad nöqtələrindən biridi. Yanında ideya, qələm dostları olsa da Mor öz yolunda demək olar tək idi. "İdeal cəmiyyət" əslində çox adamın qəlbinin dərinliyindəki arzudu. İnsan bunu istəməyə bilməz. Ən adi səbəbdən, hər kəs işıqlı dünyada, xoşbəxt yaşamaq istəyir. Bu insanın əsrlərdi gerçək, təməl arzusudu. O, əslində bunun üçün yaşayıb. Hər kəs "qızıl dönəm" gözləyir. "Biz görməsək də uşaqlarımız görər" ümidi ilə yaşayır, inanır. Biz də bir yerdə bu inamla yola çıxdıq. Dediyimiz kimi, bizə sadəcə boş yerə külüng döymədiyimizi sizdən hiss etmək gərəkdi. İstədiyimiz qeybdən bir şey deyil, biz də elə sizin ürəyinizdə olanı istəyirik. Sadəcə, səsli.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



**Şənbə günü Ümid Partiyasının mərkəzi qərargahında seçkilərlə bağlı seminar keçirilib. Tədbirdə parlament seçkilərində "125-lər Siyasi Klubu"ndan namizəd olacaq şəxslər iştirak edib. Seminarda təlimçi Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə olub. Millət vəkili "seçki stratejiyası", "seçicilərlə iş", "seçkidə müşahidənin təşkil" və başqa mövzularda çıxışlar edib və tədbir iştirakçılarının suallarını cavablandırıb.**



## "Samuel Huntingtonun Mədəniyyətlərin Toqquşması və 2015-ci il dünya nizamı" mövzusunda dəyirmi masa keçirilib

**Fevralın 14-də Ümid Partiyasının mərkəzi qərargahında partiyanın gender bərabərliyi şöbəsinin təşkilatçılığı ilə "Samuel Huntingtonun Mədəniyyətlərin Toqquşması və 2015-ci il dünya nizamı" mövzusunda dəyirmi masa keçirilib. Analitik təhlil və siyasi proqnozlaşdırma şöbəsinin müdiri Fəxrəddin Abdullayev mövzu ilə bağlı ətraflı çıxış edib. Çıxışdan sonra mövzu ətrafında maraqlı siyasi diskussiya aparılıb. Tədbir iştirakçıları bu cür dəyirmi masaların keçirilməsinin davamlı olmasını təklif ediblər. Qərara alınıb ki, hər həftə müxtəlif mövzularda təlimlər keçirilsin və daha çox gəncin təlimlərdə iştirakı təmin edilsin.**



## Ümiddə toplantı keçirilib

**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadənin yanında Partiyanın İcra Aparatı növbəti toplantısını keçirib. Toplantıda qərarların icrası ilə bağlı şöbələrin hesabatı dinlənilib, şöbələrin iş planı, qarşıda duran vəzifələr, sosial şəbəklərdə fəaliyyətin artırılması və partiyanın təbliğatının gücləndirilməsi, parlament seçkiləri və seçkilərə hazırlıqla bağlı fəaliyyət istiqamətləri müzakirə olunub. Partiya sədri şöbə sədrlərinə seçkilərə hazırlıq istiqamətində tapşırıq və tövsiyələrini verib.**



# Başınıza meteorit düşsün

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən internetdə oxuduğum bu xəbəri dəyərli oxucularımla bölüşməyə dəhşətli ehtiyac duydum: "Azərbaycanın ilk veb-saytı olan science.gov.az-ın əməkdaşı Nərgiz Qəhrəmanovaya yeni vəzifə verilib. Azərbaycan Milli Elmlər Akademiyasından (AMEA) APA-ya verilən xəbərə görə, o, Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və Elmin populyarlaşdırılması idarəsinin Elektron informasiya şöbəsinin rəis müavini vəzifəsinə təyin olunub".**

Daha sonra yazmışdılar ki, Nərgiz xanım BDU filologiya fakültəsini bitirib, hazırda da Odessa Politexnik Universitetində magistraturada oxuyur. AMEA-nın filoloqu kompüterçiyə necə çevirdiyini bir qırağa qoyaq, ümumiyyətlə, biz Nərgiz xanımı tanımırıq, tanımadığımız adam haqda fikir yürüdə bilmərik. Bəlkə o, hazırda nəsə elmi kəşf edir? Bəlkə o, Nobel mükafatını respublikamıza gətirəcəkdir? Mən sadəcə bu xəbərdən başqa mətləblər öyrəndim.

Örnək üçün AMEA-da "elmin populyarlaşdırılması" adında bir idarənin varlığını bildim. Şok xəbərdir. Bunlar nəinki elmi öyrənirlər, hətta onu xalq arasında yayırmışlar! Bəs necə yayırmışlar? Gəlin bu haqda elə xəbərdə adı keçən AMEA saytına - science.gov.az saytına baxaq. Elə gözəl saytdır, necə deyərlər, iki göz, 3 D formatlı eynək lazımdır tamaşa eləsin!

Məsələn, saytın ən son yenilənməsi dünənə təsadüf edir və 2 xəbərdən ibarətdir. Bunlardan biri Şəmkirdən tapılan qab haqdadır. Oxuyaq: "Arxeoloji tapıntı ağzının kənarlarındakı yuvalara dörd quş fiquru keçirilmiş çölmək tipli qabdan ibarətdir. Təəssüf ki, qabın əsli muzeyə təhvil verilməmişdir. Hazırki qab əslinin qrafik təsviri əsasında muzeyin Bərpa laboratoriyasında bərpaçı-rəssam Əmiryusif Zəvərov tərəfindən gipsdən düzəldilmiş və qara boya ilə rənglənmişdir". Ta bu qabın əsli hardadır, hansı nazir xaricə satıb, yaxud hansı akademik evində aftafa kimi işlədir - sayt bu haqda bizə heç məlumat vermir. Milli Tarix Muzeyində insanlara Zəvərovun düzəltdiyi qabları "arxeoloji qazıntı" adıyla sırımaq nə dərəcədə düzgündür? Əcəb populyar idarədir!

"10 aprel 2015-ci il tarixdə AMEA İnsan Hüquqları İnstitutunun təşkilatçılığı ilə "Saxta erməni soyqırımı: uydurma və gerçəklik" mövzusunda konfrans keçiriləcək" - bu da ikinci xəbərdir. Saxta işlərə bu qədər vaxt ayırınca AMEA İHİ bəlkə Azərbaycanda yüzlərlə siyasi məhbus olmasını da araşdırsın? Əlbəttə, zarafat üçün yazdım. Qorxmayın. AMEA-dan elə qeyrət gözləyəcək qədər səfeh deyiləm.

AMEA xəbərləri 16 fevraldan dərhal 13 fevrala keçir, bunu da başa düşürük - şənbə-bazar alimlərimiz ağır işdən sonra dincəliblər, kabab yeyib çoxlu gəyiriblər. O üzdən, 13 fevral xəbərlərinə baxıb lap həzz alırıq. Buyurun:

"AMEA Şamaxı Astrofizika Rəsədxanasında "Ay fazaları və təqvim hadisələri" mövzusunda regional elmi seminar keçirilib.

Qafqaz Müsəlmanları İdarəsi və İran İslam Respublikası Tehran Universitetinin birgə təşkilatçılığı ilə keçirilmiş tədbirdə çıxış edən rəsədxananın direktoru, AMEA-nın müxbir üzvü Əyyub Quliyev, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi Hacı Fuad Nurullah, Tehran Universiteti Geofizika İnstitutunun rəhbəri, doktor Fərhəng Əhmədi və başqaları seminarın əhəmiyyətindən danışaraq, onun işinə uğurlar arzulayıblar.

İki gün davam edən seminarda "Şamaxı Astrofizika Rəsədxanasının 60 illik fəaliyyətinə qısa baxış", "Ay fazaları ilə bağlı Azərbaycan təqvimlərinin tərtibi", "Yeni Ayın görünməsinin meyarları", "Şəri vaxtların müşahidə aspektləri", "Şəri vaxtlarının və Yeni Ayın hesablanmasının metodları və proqramları" mövzularında məruzələr dinlənilib.

Məruzələrdə dini bayram və mərasimlərin dəqiq tarixinin, vaxtlarının təyin olunmasının vacibliyi vurğulanıb. Mövzular ətrafında geniş müzakirələr aparılıb. Sonra tədbir iştirakçıları rəsədxananın 2-m teleskopu və müşahidələr zamanı istifadə edilən cihaz və avadanlıqla tanış olublar".

Məncə AMEA növbəti seminarını "İnternetə girmək halaldırmı" mövzusuna həsr eləsin. Ukraynada oxuyan populyarizator Nərgiz xanım da seminarı geniş işıqlandırsın.

Ay qopub düşsün təpənizə!

# "Moskva Bakı ilə gizli Qarabağ danışıqları aparır"

## Konfliktin həllinə nəzarət uğrunda Qərb-Rusiya rəqabəti yeni fazaya adlayıb; Kreml Avrasiya layihələrini xilas eləmək üçün son həmlə hazırlıqları içində...

**Artıq reallıqdır ki, Rusiya postsovet məkanına nəzarəti müstəsna olaraq özünün müəllifi olduğu etnik-ərazi münaqişələri vasitəsilə həyata keçirməyə çalışır. Aylardır Ukraynada yaşananların başlıca motivi də elə budur - həmsərhəd, keçmiş sovet respublikalarında separatçılığı qızışdırmaqla bu ölkələrin daxili işlərinə real təzyiq rıçaqları qazanmaq, onları zorla SSRİ-nin yeni formatı olacaq Avrasiya Birliyinə, Gömrük İttifaqına qoşmaq.**

Şübhə yox ki, Dağlıq Qarabağ problemi Putin hökuməti üçün ilk növbədə bu kontekstdə önəm daşıyır. Moskva həm də tələsir. Çünki Avrasiya layihəsinin reallaşması uzanarsa, onun indiki üzvlərlə effekti böyük olmayacaq və günün birində Qazaxıstanla Belarus da onu tərk edə bilər. Ukrayna onsuz da əldən çıxmış kimidir.

Bu xüsusda Avrasiya Birliyinə dolğunluq gətirəcək yeganə ölkə Azərbaycandır. Müşahidələr göstərir ki, Kreml Bakını öz "caynağına" keçirmək üçün səylərini heç vaxt dayandırmayıb, tam əksinə Ukrayna uğursuzluqları fonunda gücləndirib. Amma Azərbaycanın indiyədək Moskvanın günahı üzündən həll edilməmiş Dağlıq Qarabağ problemi var.

Bəzi təhlilçilərə görə, Qərbin Qarabağ təşəbbüskarlığını nə vaxtsa bütünlüklə öz əlinə alacağından ehtiyatlanan Rusiya, hər halda, tələsməyə və təbii ki, öz maraqları da ciddiyə alınmaqla konfliktin hansısa formada həllinə məcbur duruma gəlib. Çünki heç kim bilmir ki, bir neçə ay sonra postsovet məkanındakı münaqişələrə hansı güc mərkəzinin təsiri daha güclü olacaq - Rusiyanın, yoxsa ABŞ və Avropanın? Moskvalı emissarların Bakıya artan səfərləri və bəzi Rusiya rəsmilərinin son açıqlamaları bu qənaəti möhkəmləndirir.



"Rusiya tezliklə Qarabağ münaqişəsini həll etmək barədə düşünür". **Bu barədə Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə komitə sədrinin 1-ci müavini Vladimir Nikitin** srağagün "Vesti kavkaza" nəşrinə açıqlamasında deyib. Rusiya və Azərbaycan arasında əlaqələrin "əla olduğunu", Bakının yaxın gələcəkdə Avrasiya Birliyinə daxil olmaq barədə düşünəcəyinə ümid etdiyini deyən rəsminin sözlərinə görə, Moskva Dağlıq Qarabağ probleminin həlli üçün son illər səylərini daha da artırıb.

"Mən bilirəm ki, Rusiya prezidenti Vladimir Putin və Dövlət Dumasının sədri Sergey Narışkin Azərbaycan və Ermənistan prezidentlərinin münaqişənin həlli yönündə razılığa gələ bilmələri üçün hazırda bir sıra məsələlər üzərində işləyirlər. Ümid edirəm ki, hər iki tərəf üçün olduqca ağrılı olan konfliktin optimal həll yolu tapılacaq, - deyə o əlavə edib.

Yəni belə çıxır, Moskva bu istiqamətdə Bakı və İrəvanla hər halda, hansısa konfidensial çalışmalar (müzakirələr) içindədir. Ukrayna məsələsində - "Normand dördlüyü" müstəvisində Rusiyanın Qərb qarşısında diplomatik geriliyini nəzərə alsaq - heç də istisna deyil. Ancaq məsələ ondadır ki, Rusiya Qarabağ probleminin həllini əsasən Moskvanın dominant olduğu Avrasiya İqtisadi Birliyi çərçivəsində görür. Faktiki surətdə söhbət köhnə SSRİ formatında "həll"dən, daha doğrusu, münaqişəni naməlum müddətə dondurmaqdan gedir.

**Prezident Vladimir Putinin köməkçisi Sergey Qlazyov bugünlərdə elə həmin dərgiyə verdiyi açıqlama buna şübhə saxlamır. Sitat:** "Düşünürəm ki, Ermənistanın Avrasiya İqtisadi Birliyinə qoşulması ilk qaranquşdur. Regiondakı bütün konfliktlərin həlli üç Cənubi Qafqaz ölkələrinin bu ittifaqda təmsilçiliyinə bağlıdır. Əgər bizim vahid iqtisadi məkanımız olsa, o zaman heç bir sərhəd olmayacaq və dezinteqrasiya problemləri də aradan qalxacaq. O sırada Qarabağ problemi yoluna qoyulacaq, çünki malların və insanların yerdəyişməsinə mane olan sərhədlər aradan qalxmış olacaq".

Beləliklə, Kreml Avrasiya layihələrini xilas eləmək üçün son həmlə hazırlıqları içində görünür. Bir daha aydın olur ki, Rusiya Azərbaycanı da Ermənistan kimi öz yanında görməklə, onu da özünün Avrasiya layihələrinə qoşmaqla Qarabağ məsələsinə hansısa həll və edir. Ayrı sözlərlə, hansısa məxfi danışıqlar gedirsə də, bu, böyük ehtimalla Putinin köməkçisinin cızdığı kontekstdədir.

Lakin zaman-zaman yazdığımız kimi, rəsmi Bakını münaqişənin dondurulması yox, Rusiyanın təzyiqi ilə işğal altındakı ərazilərin boşaldılması maraqlandırır. Bir çox analitiklərə görə, Azərbaycanın Moskva önündə ən böyük "Avrasiya şərti" də elə budur - öncə ərazilər, sonra birliyə üzvlük.

Düşünmürük ki, Ukrayna böhranı fonunda Bakının bu şərti ciddi korrektəyə uğrasın. Ona görə ki, Rusiyanın postsovet məkanındakı münaqişələrə təsir imkanları 6-7 öncəki ilə müqayisədə zəifləyib ki, güclənməyib. Hərgah, Ermənistana real təsir rıçaqları dəyişməz qalır. Deməli, Kremlin Bakının əsas şərtini ödəmək imkanı da hələ ki, ciddi olaraq qalır...

❑ **Siyasət şöbəsi**

# ATƏT PA-da Ukrayna ilə bağlı müzakirələr aparılacaq

## Siyasi məsələlər və təhlükəsizlik Ümumi Komitəsinin iclasında komitənin sədr müavini Azay Quliyev çıxış edəcək

**Azərbaycan Milli Məclis sədrinin müavini, ATƏT-in Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Bahar Muradovanın başçılıq etdiyi nümayəndə heyəti qurumun 14-cü qış sessiyasında iştirak etmək üçün fevralın 17-dən 21-dək Vyanada səfərdə olacaq.**

Milli Məclisdən APA-ya verilən məlumata görə, nümayəndə heyətinə Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, İnsan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova, Regional məsələlər komitəsinin sədr müavini Fəttah Heydərov, Milli Məclisin deputatı, ATƏT PA-da Siyasi məsələlər və təhlükəsizlik komitəsi sədrinin müavini Azay Quliyev və deputat Ağalar Vəliyev daxildir.




Sessiya çərçivəsində "ATƏT PA-nın Aralıq dənizi forumu" keçiriləcək. Forumda "Aralıq dənizi regionunda təhlükəsizliyə və əməkdaşlığa dəstək" məsələsinə dair açıq diskussiyalar aparılacaq. Sonra deputatlar qurumun ümumi komitələrinin iclaslarında iştirak edəcəklər. Demokratiya, insan hüquqları və humanitar məsələlər Ümumi Komitəsində miqrantlar və qaçqınların insan hüquqları barədə geniş fikir mübadiləsi aparılacaq. Siyasi məsələlər və təhlükəsizlik Ümumi Komitəsinin iclasında komitənin sədr müavini Azay Quliyevin çıxışından sonra "ATƏT regionunda transmilli təhlükəsizlik: terrorizmlə mübarizə" mövzusu ətrafında xüsusi müzakirələr olacaq.

İqtisadi məsələlər, elm, texnika və ətraf mühit üzrə Ümumi Komitənin iclasında isə "ATƏT regionunda enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, ekoloji və iqtisadi çağırışların neytrallaşdırılması sahəsində əməkdaşlıq" məsələlərinə diqqət yetiriləcək.

Üç ümumi komitənin birgə iclaslarında bir sıra müraciətlər oxunacaq, gender məsələləri ətrafında fikir mübadiləsi aparılacaq, ATƏT-in Ukrayna ətrafındakı böhrana münasibəti araşdırılacaq və digər məsələlərə baxılacaq. Qurumun Daimi komitəsinin iclasını ATƏT PA-nın sədri İlkka Kanerva açacaq. Qurumun maliyyə hesabatı dinlənildikdən sonra ATƏT PA-nın baş katibi Oliver Spenser çıxış edəcək. İclasda qurumun xüsusi komitələrinin və xüsusi nümayəndələrinin fəaliyyəti barədə, həmçinin seçkilərin müşahidəsi ilə bağlı məruzələr dinləniləcək, bir sıra təşkilati məsələlərə baxılacaq. Milli Məclis ATƏT PA-dakı nümayəndə heyəti sessiyada fəal iştirak edəcək, müzakirə olunan məsələlərə ölkəmizin maraqları mövqeyindən münasibət bildirəcək.

# ABŞ təcrübəli diplomatını Bakıya göndərir

## Dövlət katibinin müavini Viktoriya Nulandın səfəri iki ölkə arasında münasibətlərə necə təsir edəcək?

**ABŞ dövlət katibinin müavini Viktoriya Nuland Bakıya gəlir. V.Nuland Azərbaycanda ölkənin siyasi rəhbərliyi ilə danışıqlar aparacaq. Bu barədə "Turan"a diplomatik mənbələrdən məlumat daxil olub. Xəbərdə deyilir ki, V.Nulandın səfər proqramının detalları barədə heç nə deyilmir. Amma böyük ehtimalla danışıqlarda əsas diqqət son illərdə pisləşən ikitərəfli münasibətlərin vəziyyəti məsələsinə yönəldiləcək.**



Viktoriya Nuland

Rəsmi Vaşinqtonla Azərbaycan iqtidarı arasında neçə aylardır ki, gərginlik davam edir. ABŞ-da keçirilən dinləmələrdə insan haqlarının və demokratiya normalarının pozulmasına görə rəsmi Bakıya sanksiyalar tətbiq etmək çağırışları son vaxtlar daha tez-tez eşidilir. Rəsmi Bakı isə ya buna cavab olaraq Azərbaycanda da ABŞ-dakı insan haqlarının vəziyyətini müzakirəyə çıxarır, rəsmi qəzetlərdə isə Vaşinqton "rəngli inqilab" törətməkdə suçlanır.

Doğrudur, son günlər hakimiyyətdən Amerikaya münasibətdə qismən yumşalma hiss olunur, gərginliyin yaranmasının bəzi QHT-lərin günahı olduğu vurğulanır. Yeddi aydan sonra yeni təyin edilən ABŞ səfirinin ötən həftə Bakıya gəlməsi və onun xoşməramlı mesajları münasibətlərin ılıqlaşacağına işarə idi. Ağ Ev ən təcrübəli diplomatlarından birini Bakıya göndərməklə yeqin ki, yaranmış soyuqluğu aradan götürmək istəyir.

Viktoriya Nuland 1961-ci ildə Nyu-Yorkda anadan olub. Braun Universitetini məzunu olan V.Nuland 2011-2013-cü illərdə Dövlət Departamentinin rəsmi nümayəndəsi olub. Hazırda o, dövlət katibi Con Kerrinin Avropa və Avrasiya üzrə köməkçisidir.

Son 2 il ərzində - Con Kerri dövlət katibi olandan bəri onun müavinləri nə Viktoriya Nuland, nə də Filip Qordon Azərbaycana səfər etməyiblər. Amerikanın bir sıra analitikləri isə hesab edirlər ki, bu tendensiya dəyişməlidir. Vaşinqton strateji partnyoru olan Azərbaycanla münasibətlərini, birbaşa ünsiyyətini daha yüksək ranqlı məmurların səfərləri ilə tənzimləməlidir.

Qeyd edək ki, Ukrayna krizisi başlayandan Viktoriya Nulandın adı daha tez-tez çəkilir. O, həm Viktor Yanukoviç hökuməti ilə danışıqlarda fəal iştirak edib, həm də Maydan hərəkatına ciddi dəstək verib. Ötən ilin fevralında isə onun ABŞ-ın Ukraynadakı səfiri Cefferi Payet arasında olan telefon danışığının səs yazısı yayılmışdı. Səs yazısında dövlət katibinin müavini ilə səfir Ukraynadakı vəziyyət barədə danışır, ukraynalı müxalifət liderləri haqda fikir mübadiləsi aparılırdı. Söhbət zamanı Nuland Ukraynadakı vəziyyətin tənzimlənməsi işinə BMT-ni də cəlb etmək istədiklərini və bunun Avropa İttifaqına "dərs olacağını" demişdi. Dövlət Departamenti telefon danışığının dinlənilməsini və internetdə yerləşdirilməsini Rusiyanın pis əməli adlandırmışdı.

❑ **Xəbər xidməti**

# "Yəhudilərin Avropadan İsrailə qayıtmaqdan başqa yolu yoxdur"

## Yevda Abramov: "Azərbaycanda yəhudiləri körpə uşağı bəsləyən kimi bəsləyirlər..."

**İsrailin baş naziri Benyamin Netanyahu bazar günü Danimarkanın paytaxtı Kopenhagenin ən böyük sinaqoqunda baş verən qanlı hadisədən sonra Avropada yaşayan yəhudiləri İsrailə köçməyə səsləyib. Parisdəki terror aktından sonra da Netanyahu oxşar bəyanatla çıxış etmişdi. Bəs bu bəyanat Azərbaycandakı yəhudi icması tərəfindən necə qarşılanıb? Mövzu ilə bağlı Azərbaycan Milli Məclisinin yəhudi əsilli deputatı, Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Yevda Abramovla söhbət etdik.**



Yevda Abramov

***- Yevda müəllim, İsrail baş nazirinin yəhudilərə çağırışını siz necə qarşıladınız?***

- Bu, Avropaya aid məsələdir. Yəhudilərin Azərbaycanda heç bir problemi yoxdur. Azərbaycanda yəhudiləri körpə uşağı bəsləyən kimi bəsləyirlər. Bizim cəmiyyətdən, hökumətdən, prezidentdən heç bir umacağımız, Azərbaycan xalqından umu-küsü etmək üçün heç bir problemimiz yoxdur. İtaliyada, Fransada baş verənlərin ardınca Danimarkada eyni hadisələr baş verdi. Sabah başqa yerdə baş verə bilər. Amerikanın özündə də məktəblərdə yəhudi uşaqlar qətlə yetirilir. Bu gün Avropanın durumunda nə ksenofobiya, nə islamofobiya, nə iudazim məsələləri tam həll olunmayıb. Millətlər orda tərəddüd içindədir. Dekabrda üç Avropa ölkəsində oldum və bunları gözümlə gördüm. Xüsusi ssenari ilə dinlər arasında çox dəhşətli ziddiyyətlər yaradırlar. Zənn edirsən ki, burda həmin ölkələrin rəhbərlərinin də maraqları var. Avropada çox çirkin siyasət gedir.

***- Həmin ölkələrin rəhbərliyi nədən bu addımlara getsinlər ki?***

- Avropa bir sıra problemləri həll edə bilmir. Məsələn, ölkədaxili problemlər, iqtisadi böhranlar, maliyyə məsələlərindən irəli gələn etirazlar var. Ona görə də dövlət rəhbərləri öz imiclərini saxlamaqdan, xalqın diqqətini əsas məsələlərdən yayındırıb ikinci dərəcəli məsələlərə yönəltməkdən ötrü belə məsələləri ortaya atıblar.

***- İsrail artıq yəhudiləri qarşılamaq üçün 45 milyon vəsait ayırdığını bəyan edib...***

- 1948-ci ildən sonra İsrail dövləti hansı ölkədə yəhudilər üçün bir problem yaransa, öz millətinə qucaq açır, bu, gizli deyil. İsrailin baş nazirinin bu bəyanatını düzgün başa düşmək lazımdır. O demir ki, ölkələri tərk edib İsrailə gəlin. Deyir, Fransada sizi öldürürlərsə, terror varsa, gəlin İsrailə. Danimarkada sizi qoruya bilmirsə, günün günorta çağı terrorçu gedib sinaqoqu partladırsa, gəlin İsrailə.

***- İsrailə qayıdanların statistikası nə deyir? Böyük axın olacaqmı?***

- Fransadan böyük köç var. Mən əminəm ki, əgər Danimarkada yenidən bu hadisə təkrarlanarsa, ordan da yavaş-yavaş köç başlayacaq. Yəhudilərin İsrailə qayıtmaqdan başqa yolu yoxdur. Çünki bu gün Avropa güvənc yeri ola bilməz. Bu gün Avropada gedən proseslər 1938-39-cu illərin təkrarıdır. O vaxt da belə idi, yəhudilər üçün fəlakət hazırlanırdı, bu gün də qorxu var. Lakin bunun Azərbaycana heç bir aidiyyəti yoxdur. Şükürlər olsun ki, Azərbaycan tolerant dövlətdir. Cənab prezidentin milli məsələlərlə bağlı siyasətini tam müdafiə edirik.

***- Amma eyni zamanda Azərbaycanı da qarışdırmaq istəyən xarici güclər var və burda da hər an nəsə başlada bilərlər...***

- Təbii ki. Elə Azərbaycanı qarışdıranların ikisi qulağımızın dibindədir - İran və Ermənistan. Azərbaycan-İsrail münasibətlərinin pozulmasına cəhd göstərənlər də var. Şemon Peresin bura səfəri vaxtı ayrı-ayrı mediada məqalələr çap edib İsraili burda hörmətdən salmaq istəyənlər olub. Həmçinin Bakı ətrafında elektrik transformatorunda baş verən qəzanı İsrailin adına yazıblar. Yaxud Bakıda sarı qum fırtınası olmuşdu, onu da İsrailin adına yazmışdılar ki, guya Peresin gəlişi ilə tektonik silah istifadə edib. Bunlar uşaq söhbətləri, savadsız şəxslərin xəstə təxəyyülünün məhsuludur... Mən bu yaxınlarda Fransada və Amerikada oldum, Los-Ancelesdə çıxış etdim. Dedim, gəlin əyani surətdə Azərbaycanda yaşayan yəhudilərin həyat şəraitinə baxın, bizim bir Qırmızı Qəsəbəmiz elə Los-Anceles kimi yaşayır, heç də sizdən əskik deyilik. Bildirdim ki, biz bura dollar üçün gəlməmişik, biz erməni deyilik. Biz bura ona görə gəlmişik ki, sizi Azərbaycana dəvət edək, yaşam tərzimizi, sinaqoqlarımızı, xalqımızın əhval-ruhiyyəsini görəsiniz. Dedim, gəlin şahidi olun ki, cənab prezident ildə iki dəfə Qırmızı Qəsəbəyə gəlir, Azərbaycanda yaşayan xırda millətlərlə əyani görüşlər keçirir.

***- Yevda müəllim, hazırda Azərbaycanda nə qədər yəhudi yaşayır?***

- 20 min. Onların 3 minə qədəri Qırmızı Qəsəbədədir. Bir o qədər insanımız da Moskvada yaşayır, ancaq qeydiyyatı burdadır.

***- Vaxtilə Azərbaycandan da İsrailə yəhudilərin böyük bir köçü olub. Deməli, proses dayanıb?***

- Bəli, 70-ci illərdə sovet kommunist rejiminin səhv siyasəti nəticəsində Helsinki Konfransından sonra yollar açıldı, xırda millətlər, o cümlədən yəhudilər də özlərinin tarixi vətəni olan İsrailə getdilər. Bizim 80 min azərbaycanlımız, keçmiş yəhudi vətəndaşımız, qarışıq nikaha malik şəxslər İsraildə böyük bir diaspor yaradıb, biz onlardan istifadə edirik... Biz 2500 ildir Azərbaycandayıq, aborigen xalqıq, millətik. Cənab prezidentə də demişəm, ulu babalarımıza da minnətdarıq ki, bütün dünyanı dolanıb gətirib bizi Azərbaycanda məskunlaşdırıblar, buna heç də peşman deyilik.

❑ **Elşad PAŞASOY**

# Vergi şapalağı



**Xalid KAZIMLI**

**Neftin qiymətinin dünya bazarında düşməsinin fəsadları bir çox ölkələrin, xüsusilə də neft idxal edən dövlətlərin işinə yarasa da, neft hasil edən ölkələrin çoxunda fəsadlar törədib.**

Yalnız Səudiyyə Ərəbistanı, Norveç və Küveyt kimi ölkələr istisna ola bilər. Adları çəkilən ərəb ölkələrində neftdən gələn pulların həcmi olduqca böyükdür, o baxımdan böhranı hiss etmirlər. Norveçdə isə dövlət büdcəsi neft satışından gələn milyardlardan asılı deyil.

Azərbaycan özünü heç nə olmamış kimi aparmaq, neftin qiymətinin ölkədə iqtisadi sferada heç bir böhran yaratmadığını israrla bildirsə də, elə deyil. Neftin qiymətinin düşməsi, bu səbəbdən ölkəyə daxil olan xarici valyuta ehtiyatının azalması bəzi fəsadlar törədib. Sadəcə, hələlik panikaya əsas yoxdur.

Bir də hakimiyyət xalqın təlaşlanmaması üçün özünü təmkinli aparır. Əslində isə neft satışından gələn maliyyə vəsaitinin çatışmayan hissəsinin yerini doldurmaq üçün çoxşaxəli tədbirlər görülür.

Bunlar qeyri-populyar tədbirlərdir, bir qədər gizli, əl altından aparılır, çalışırlar ki, ictimailəşdirilməsin, ajiotaj doğurmasın.

Ancaq on minlərlə, yüz minlərlə insanın həyatına, güzəranına təsir göstərən həmin tədbirləri gizlətmək, pərdələmək mümkün deyil.

Məsələn, artıq özəl tibb müəssisələrində çalışan minlərlə insan "büdcə doldurma" tədbirlərinin mənfi təsiri ilə üz-üzədir.

Bu barədə qəzetlərə məlumat verən mənbələr bildirirlər ki, təkcə ötən həftə 150-yə yaxın tibb müəssisəsində "xronometraj" yoxlaması başlayıb və yoxlama sona çatdıqdan sonra hər bir tibb müəssisəsinə əvvəlcədən müəyyən edilmiş xərac kəsilib.

Bildirilir ki, özəl tibb müəssisələrinə qoyulan aylıq vergi ödənişlərin miqdarının 30-50% və bəzi yerlərdə 100% (ikiqat) artırılması nəzərdə tutulur. Bu isə təxminən 20-50 min manat miqdarında aylıq ödəniş deməkdir.

Özəl tibb müəssisələrində müalicə və müayinə haqlarının bahalığı onsuz da çoxdan məlum idi. Məzənnələrin yüksəkliyinin nədən qaynaqlandığı barədə qənaətlər də haçalıydı. Bəziləri bunu müvafiq sahibkarların tamahkar olması ilə bağlayırdılar, bəziləri isə sahibkarların əlavə ödənişlərinin çoxluğu ilə izah edirdilər.

Özəl tibb müəssisələrində bundan sonrakı qiymət artımları isə sırf vergi amili ilə izah edilməlidir.

Bəs bu durum özəl tibb müəssisələrinə sərf edirmi? Qətiyyən. Bu, onların çöküşünün başlanğıcı deməkdir. Çünki müalicə və müayinə qiymətlərini bundan artıq bahalaşdırmaq mümkün deyil. Qiymətlərin artırılacağı təqdirdə onlar olan-qalan pasiyentlərini də itirəcəklər.

Ona görə də özəl tibb müəssisələri artıq acınacaqlı bir seçim qarşısında qalıblar: ya müəssisəni bağlamalıdırlar, ya da qiymətləri qaldırmalıdırlar. Əslində sonuncu variant da müəssisəni bağlamaq anlamına gəlir. Müştəri, pasiyent olmayandan, müəssisə özünü maliyyələşdirə bilməyəndən sonra onun fəaliyyət göstərib-göstərməməsinin mənası yoxdur.

Bəs şəfa axtaran minlərlə xəstə necə olacaq? Onlar müalicə-müayinə qiymətlərinin daha ucuz olduğu qonşu ölkələrə gedəcəklər. Əlbəttə, adi bir əməliyyata 5 min manat verməkdənsə, bu əməliyyatın qonşu ölkədə 1000 manata olduğunu bilən xəstə təbii olaraq həmin ölkəyə yollanacaq.

Bu, il ərzində ölkədən ən azı 50 milyon dollar maliyyə vəsaitinin ölkədən xaricə axması, özəl tibb müəssisələrinə çalışan insanların işsiz qalması və ya az maaşla çalışması, ümumilikdə səhiyyə sferasının tənəzzülü deməkdir.

Son nəticədə özəl sektora tətbiq edilən "vergi şapalağı" umulan nəticələri verməyəcək. Sıradan çıxan, bağlanan müəssisələr dünənə qədər müəyyən həcmdə vergi ödəyirdilərsə, bu gün heç vergi ödəməyəcəklər və dövlət büdcəsi dolmayacaq.

Əlbəttə, ən dürüst çıxış yolunu iqtisadçılar, maliyyəçilər bilər və onlar hökumətin hansı addımlar atmasını deməlidirlər. Elə bir siyasət yeridilməlidir ki, nə şiş, nə də kabab yanmasın.

Bu vəziyyətdən minimal itki ilə çıxmağın ən etibarlı yolu neftin qiymətinin yenidən bahalaşması ola bilər, o da ki bizdən asılı deyil.

YENİ MÜSAVAT
N 36 (6064) 17 fevral 2015

# Əməkdaşlarımız "Lamiyə işi"ni Şəmkirdə araşdırdı


Vüqarın atası ailəyə haqsızlıqlardan danışır


Vüqarın ailəsi həbslərdən söz açır


Bıçağı satan Arzu Sadıqov

# Aslan Aslanovun məhv etdiyi iki ailədən reportaj

## "Yeni Müsavat" Lamiyə Quliyevanın icra başçısının oğlunu öldürməsinin detallarını yazır, ömürlük məhkum olan keçmiş nişanlısının atası üzünə duranların siyahısını açıqladı

**Əməkdaşlarımız Şəmkirin sabiq başçısı Aslan Aslanovun oğlunu öldürməkdə təqsirləndirilən Lamiyə Quliyeva və keçmiş nişanlısı Vüqar Əliyevin ailəsində olub. "Yeni Müsavat"ın reportyor qrupu Ruslan Aslanovun qətlinin təfərrüatlarını yerindəcə araşdırıb. Hər iki ailə başına gələn müsibətləri əməkdaşlarımıza danışıb.**

### "Vüqarla Ruslanın münasibəti yaxşıydı, hətta.."

Ondan başlayaq ki, hadisəyə qədər Vüqar Əliyevlə Ruslan Aslanovun yaxşı münasibəti olub. Atası İbrahim İsmayılov danışır ki, hətta Vüqarın xahişi ilə Ruslan bu ailəyə "Şəmkir" stadionundan ayrıca elektrik xətti verib. Həmçinin İbrahim İsmayılovun A.Aslanovdan xahişi əsasında magistral su kəmərindən ayrıca xətt də verilib: "Yəni bizim Aslanla, onun oğlu ilə heç bir problemimiz olmayıb. 2003-cü il aprelin 3-də Vüqarla Lamiyə nişanlandı. Biz sonradan bilmişik ki, bundan sonra Ruslan Lamiyə ilə münasibətləri haqda orda-burda danışırmış.

Deyirmiş ki, qızın bakirəliyini pozub. Bu söhbət Vüqara çatandan sonra məsələni Ruslandan soruşub. O da əvvəlcə təkzib edib. Sonra Vüqara deyib ki, Lamiyə ilə üzləşmək istəyir. Bu məsələ üstündə başlanan mübahisədən xəbərimiz olmayıb".

**Apreldə nişanlanan gənclərin arasında mübahisələr may ayına qədər davam edib. İ.İsmayılovun sözlərinə görə, mayın 8-dən 9-na keçən gecə Ruslanın təklifi ilə görüşüblər:** "Ruslan öz maşını ilə Vüqarı mənim meyvə-tərəvəz piştaxtamın yanından götürüb. Ordan Lamiyəgilin evinə gediblər. Lamiyə də maşına oturub və həmin "SMU-28" deyilən əraziyə gediblər.

Ora həmin vaxt gözdəniraq bir yer idi. Maşının qabaq oturacağında Vüqar, arxada isə Lamiyə əyləşib və sözügedən ərazidə mübahisə başlayıb. Ruslan Şəmkirdə intim əlaqədə olduğu qızların adlarını sadalayarkən onlardan birinin də Lamiyə olduğunu deyib. Bu zaman Lamiyə arxadan Ruslana iki bıçaq zərbəsi vurub. Ruslan maşından düşüb qaçmağa başlayıb və 17 metr irəlilədikdən sonra qarşıdakı kol-kosun arasına, Morul kəndinə gedən kanala yıxılıb. Sonradan onun meyitini kanalda aşkarlamışdılar".


Aslanovun oğlunun meyiti burada aşkarlanıb

### Anası: "Aslanov məni, qardaşımı və bacılarımı tutdurdu"

**Vüqarın anası Məlahət İsmayılovanın dediklərindən:** "Vüqarla Lamiyənin aprelin 3-də nişanı oldu. Mayda da bu iş başımıza gəldi. Heç kimin də bu işdən xəbəri olmayıb. Həmin gün bizim mağazaya getmişdim, gördüm Vüqar orda yoxdu. Sonra Ruslanın dostları gəlib Vüqarı soruşdular. Dedim, Vüqar yoxdur. Gecə hərbi polis rəisi və Ruslanın cangüdəni bizə gəldi. Gecə saat iki olardı, icra nümayəndəsi Tariyel Quliyev bizə gəldi. Dedi, başçı tapşırıb ki, uşaqları yığ, Ruslanın harda olduğunu soruş. Hadisədən sonra da Vüqar gəlib evə yatıb və bizə də heç nə deməyib. Evdə narahatlığı da hiss olunmurdu. Gecə yarısı Vüqarı gəlib apardılar. Biz ertəsi günün axşamı xəbər tutduq ki, Lamiyə bu işi görüb. Ondan sonra Aslanov bütün ailəmizi həbs etdirdi. Mayın 10-da oğlum Eynuru, 12-də yoldaşım İbrahimi tutdular.

İyunun 14-də məni və iki bacımı həbs etdilər. Bizi üç ay Gəncə İstintaq Təcridxanasında saxladılar. Guya əvvəlcədən cinayəti bilib məlumat verməmişik. Qanunda bu maddənin ailə üzvlərinə şamil edilməsi yoxdur. Bizi avqustda sərbəst buraxdılar. O da Andres Qrossun hesabına oldu, həmin ərəfədə Gəncəyə gəlmişdi və bizi azad etdilər".



**Vüqarın anası bildirir ki, Ruslan onların evinə heç zaman gəlməyib:** "Amma Vüqarla əlaqəsi yaxşıydı. Bir-birinə hörmət edirdilər. Biz Ruslandan bir pislik görməmişdik. Ancaq atası onun hərəkətlərini görüb vaxtında yığışdırmalıydı. Aslan Aslanov isə ailəmizdə kim var, hamını həbsə atdı. Yoldaşımı, oğlumu, bacılarımı, qardaşımı tutdurdu. Bu zülmü Allah götürməz. Bacımla iki ay bir kamerada yatırdıq. Sonra iki bacıma 2 il şərti cəza verildi".

### "Bu kuklalar üzümə durdu"

**Vüqarın atası əlavə edir ki, ailə üzvlərinin həbsindən sonra A.Aslanov onun təhsil şöbəsinin qarşısındakı obyektlərini yerlə-yeksan etdirib:** "Hazırda "Abidələr parkı" olan yerin 5 sotu sənədlərlə mənə məxsusdur. Bu gün də həmin sənədlər məndədir.


İbrahim İsmayılov Aslanovla torpaq mübahisəsi olmadığını deyir



Həmin 5 sot torpağı və üzərindəki tikililəri mən "Aşıq Teymur" adına müəssisədən balans dəyərini ödəməklə almışdım. Orada meyvə-tərəvəz piştaxtası qoymuşdum. Vüqar da oradakı tikilidə maşın təmir edirdi. Yolun əks tərəfində Qönçə Lətifovanın meyvə-tərəvəz dükanı vardı. Həmin dükan piyada səkisinin üstündə idi. Bu hadisə baş verəndən sonra Aslan Aslanov ora gəlib Qönçə ilə söhbət etmişdi. Demişdi ki, əgər İbrahim İsmayılovun üzünə durmasan, obyektini şumlayıb dağıdacağam. Qönçəni öyrətmişdilər desin ki, guya icra hakimiyyətindən əraziyə gəlib deyiblər İbrahimin obyekti plana düşüb və söküləcək. Guya həmin vaxt da mən gələnlərə demişəm ki, əgər obyektim sökülsə, mən Aslan Aslanovu və ya onun oğlunu öldürtdürəcəyəm. Əslində belə bir hadisə, söhbət olmayıb. Qönçə Lətifova Ağır Cinayətlər Məhkəməsində üzümə dayandı və dükanını xilas etdi. Qönçədən başqa Aslan Aslanov üzümə icra hakimiyyətində işləyən, özünün tabeçiliyində olan xeyli canlı kuklanı da qoydu. Onların da ifadələri Qönçənin ifadələrindən fərqlənmirdi".

**İ.İsmayılov üzünə duran şəxslərin adlarını açıqlayır:** "Şəmkir icra başçısının 1-ci müavini Tariyel Məmmədov, Şəmkir Torpaq Şöbəsinin müdiri Rüstəm Rüstəmov, mərkəzi poçtun müdiri Vilayət Cabbarov, Şəhər Sovetinin sədri Hacımurad Həsənov, Gənclər şöbəsinin rəisi Nizami Əhmədov, icra hakimiyyətində şöbə müdiri Vahid Əkbərov, icra hakimiyyətinin işçisi Mustafa Mustafayev, Şəmkir hərbi komissarı Həsrət İsmayılov, Şəmkir İH-də şöbə müdiri Sultan Məmmədov bir-bir üzümə durdular".

### "Guya Aslanovu dəfələrlə döymüşəm, halbuki..."

**Onun sözlərinə görə, Şəmkir İH-dən adı şahidlər siyahısına salınan bələdiyyələrlə iş şöbəsinin müdiri Abdulla Sadıqov da olub:** "Lakin özünün vicdanını, şərəfini vəzifəsinə dəyişmədi. O, Aslanovun uydurma söhbətlərini sona qədər təsdiqləmədi.

Baxmayaraq ki, Aslanov onu təhqir edib işdən qovmuşdu, həmin adam yalan ifadə vermədi. Üzümə dayananlardan biri də "kor Kamil" kimi tanınan Kamil Yusifov oldu. O, Regional Torpaq Şöbəsinin müdiri idi. Dedi ki, guya onun yanında Aslanova demişəm ki, pay torpağımı verməsən səni və ya oğlunu öldürəcəyəm. Bu adamların yalan ifadələri ilə məni cinayətin sifarişçisi kimi təqdim etməyə nail olmaq istəyirdilər".

**İ.İsmayılov deyir ki, üzünə duran şəxslər onun A.Aslanovun kabinetinə dəfələrlə gələrək orada döydüyünü söyləyiblər:** "Halbuki onun kabinetinə düşmək mümkün deyildi. Aslanın qapısında polis dayanırdı, 1 nəfər kişi və qadın köməkçisi da vardı. Gəlib üzümə qarşı həyasızcasına yalan ifadə verdilər.

Məhkəmələr də onlara qulaq asdı. Onların yalan ifadələri ilə cinayətin əsl mahiyyətini gizlətməyə, pərdələməyə çalışırdılar. Bu işin Ruslan Aslanovun Lamiyəyə qarşı təcavüzü zəmində baş verdiyini gizlətmək üçün Aslan min hoqqadan çıxdı.

Guya oğlunun qətli sifarişini Elpərəst Həsənli, Şahbaz Süleymanov, Arif Səməndərov verdiyi barədə Vüqarı döyə-döyə ifadə almaq istəyirdilər. Xəyyam Vəliyev adlı əməliyyatçı oğlumun dişlərini sındırmışdı. Halbuki bu adamların hər biri ilə Aslan Aslanovun özünün şəxsi konflikti vardı".

V.Əliyevin atası xatırladır ki, Ruslanın qətlindən sonra ona 3 maddə ilə ittiham elan olunub. Ona Cinayət Məcəlləsinin 307.3 - xüsusilə ağır cinayət barəsində xəbər verməmə, 188-ci - torpaq üzərində mülkiyyət hüququnu pozma, 134-cü öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə maddələri ilə ittiham irəli sürüb həbs ediblər.

Qeyd edək ki, növbəti reportajda Lamiyənin anasının, onu zorlamaqda ittiham edilərək həbs olunan xalası oğlunun, Vüqarın tutulan dayısının açıqlamalarını təqdim edəcəyik.

*ardı var...*

❑ **"Yenì Müsavat"ın reportyor qrupu Şəmkìr**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**





# Uydurma soyqırım iddiası - 100, ərazi iddiası 27...

## Nə saxta "genosid", nə də Qarabağ məsələsində strateji hədəfinə çatmayan ermənilərin yeganə "uğuru" Rusiya və Qərbin bəzi dairələrinin əlində Türkiyə və Azərbaycana qarşı təzyiq alətinə çevrilmək oldu; yeni ABŞ səfirinin "Münaqişənin həlli zora əsaslana bilməz" mesajı əslində kimə ünvanlanıb?..

**Fevral ayı həm də Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiasının açıq fazaya keçdiyi aydır. 27 il öncə məhz soyuq fevral günlərində Dağlıq Qarabağda erməni separatçıları bütöv bir regiona və bu regionun xalqlarına uzunmüddətli fəlakət, çoxsaylı qurbanlar gətirən, imperiya iddiaları ilə yaşayan Rusiyanın isə bölgədən həmişəlik çıxıb getməsini əngəlləyən xain bir hərəkata başladılar.**

Acı nəticələr ortadadır: nə ermənilər de-yure Dağlıq Qarabağı özününküləşdirə və ya Ermənistana birləşdirə bildilər, nə Ermənistan və erməni xalqı ağ günə çıxdı, nə də Azərbaycan normal, daha sürətli inkişaf yoluna ayaq basa bildi. Əsas da o səbəbə ki, Rusiya məhz ermənilərin Azərbaycana torpaq iddiaları sayəsində Güney Qafqazda hərbi cəhətdən daha da möhkəmləndi, Ermənistanla 50 illiyə hərbi saziş imzalamaqla regionda özünün hüquq mövcudluğunu qanuniləşdirdi.

Problem bununla da qurtarmır: bədxah qonşular Türkiyəyə, Gürcüstana da *(Cavaxetiya)* torpaq iddiaları ilə alışıb-yanır. Qardaş ölkəyə qarşı bu iddia saxta soyqırımın 100-cü ildönümündə xüsusilə qabarıq şəkildə görünməkdədir. ABŞ-dakı bir sıra daşnak qurumları, Ermənistandakı müəyyən dairələr uydurma və tanınmayan "genosidə" görə Türkiyədən fantastik maddi kompensasiya ilə yanaşı, indi artıq həm də torpaq təzminatı tələb eləməyə başlayıblar...

***

Belə absurd və maksimalist iddialarla yaşayan bir ölkə, daha doğrusu, Rusiyanın marioneti 21 ildir guya Qarabağ məsələsinin dinc yolla həlli ilə bağlı Azərbaycanla sülh danışıqları aparır. Türkiyədən, Gürcüstandan torpaq uman İrəvan Azərbaycandan qopardığı "nağd ərazi"ni xoşluqla qaytararmı? Əlbəttə ki, yox. Darıya girmiş donuz özbaşına, xoşluqla oradan heç vaxt çıxmır.

Aydın məsələdir ki, işğalçıya qarşı konkret sanksiyaları, başqa addımları nəzərdə tutan beynəlxalq strukturlar və bu strukturların qərar-qətnamələrini reallaşdıran əsas güclər bunu təmin edir. Necə ki, Küveyti işğal edən İraqa qarşı dərhal hərəkətə keçildi. Necə ki, oxşar qətiyyəti hazırda Ukraynaya soxulmuş Rusiyaya münasibətdə görməkdəyik Bəs Ermənistan nə oldu? ABŞ-ın bu ölkəyə münasibətdə qətiyyəti harda qaldı?

***

"Necə ola bilər ki, "Normand dördlüyü" Ukrayna münaqişəsinin həllinə bu qədər canfəşanlıqla yanaşır. Ancaq Minsk Qrupunun iki üzvü də daxil olan bu dövlətlərin nümayəndələri Qarabağ məsələsində passivlik nümayiş etdirdilər?!" Bunu **politoloq Arzu Nağıyev** həmsədrlərin son günlər Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində fəallaşmasına münasibət bildirərkən deyib (Anspress).

**Onun sözlərinə görə, Minsk Qrupu həmsədrləri və onların təmsil edildikləri dövlətlərin Qarabağ münaqişənin həll edilməməsində öz maraqları var:** "Sülh danışıqları, ikitərəfli görüşlər, məsləhətləşmələrdən başqa bu illər ərzində irəliyə addım ata bilməyən Minsk Qrupu BMT-nin qətnamələrinin yerinə yetirilməsi və ərazi bütövlüyü ilə bağlı da heç bir fəaliyyət göstərmir. Təəssüf ki, bu "gəlib-getmələrin" əsas məqsədi münaqişənin həllinin yubadılmasına xidmət edir. Yəni bunu istəsək də, istəməsək də Qarabağ münaqişəsi donmuş haldadır. Ancaq belə bir status-kvo Azərbaycan tərəfini qətiyyən qane edə bilməz. Bu gün bu qurumun fəaliyyətsizliyi nəticəsində hərbi əməliyyatlar səngimir və deməк olar ki, hər gün daha da intensivləşir. Ermənilərin "nazı ilə oynamaq" prinsipini seçən qrup münaqişənin uzanmasına və bugünkü status-kvonun saxlanmasında özlərini sanki maraqlı bir tərəf kimi aparırlar. Bütün bunlar isə Azərbaycan tərəfini qane etmir. Almaniya kansleri Anqela Merkellə görüşündə Azərbaycan prezidenti İlham Əliyev də Azərbaycan tərəfinin mövqeyini bildirməklə öz narazılığını ifadə etdi. Necə ola bilər ki, "Normand dördlüyü" Ukrayna münaqişəsinin həllinə bu qədər canfəşanlıqla yanaşır. Minsk Qrupunun iki üzvü də daxil olan bu dövlətlərin nümayəndələri Dağlıq Qarabağ məsələsində passivlik nümayiş etdirdilər?"




**Təhlilçi hesab edir ki, MQ həmsədrləri Ceyms Uorlikin simasında məsələnin həllinə olduqca başdansovdu yanaşır:** "Əlbəttə ki, bunun da öz səbəbləri var. Lakin bu gün bir üstünlüyümüz bizi Ukraynadan fərqləndirən iqtisadi, texniki və hərbi potensialımızın olması və münaqişənin qeyri-sülh yolu ilə, yəni müharibə ilə həll etmək imkanımızın olmasıdır. Buna baxmayaraq, sülh yolunu seçməklə dünya dövlətləri ilə həmrəylik göstərərək, biz dinc yola üstünlük veririk. Öz fəaliyyətsizliyini və ünvanlarına söylənən iradları dərk edən Minsk Qrupu artıq öz fəaliyyət spektrlərini müəyyən qədər dəyişmək fikrindədirlər. Məhz buna görə də iki ölkə prezidentlərinin görüşməsi istiqamətində çağırışlar edir, lokal müharibənin başlamasından çəkinirlər".

***

"Heç bir nizamlama zora əsaslana bilməz". Bu sözləri isə **ABŞ-ın Ermənistana təzə təyin olunan səfiri Riçard Millz** İrəvanda ilk mətbuat konfransında söyləyib. "ABŞ Dağlıq Qarabağ üzrə danışıqlar prosesini tamamilə dəstəkləyir. Heç bir nizamlama qərarı zora və yaxud müharibəyə əsaslana bilməz. Amerika ATƏT-in Minsk Qrupunu müdafiə edir və problemin nizamlanmasında onun fəaliyyətini optimal sayır" - deyib diplomat.

**Bununla belə, səfir Minsk Qrupunun yalnız vasitəçi olduğunu və tərəflərə nəyisə sırımaq fikrində olmadığını da qeyd edib:** "Birləşmiş Ştatlar Azərbaycan və Ermənistanla münasibətlər qurur. Biz aydın şəkildə hər iki tərəfdaşımıza, iki dost ölkəyə bildiririk ki, konfliktin yalnız dinc yolla, Minsk Qrupu çərçivəsində həlli mümkündür".

Ancaq iş də ondadır ki, Ermənistan Qarabağ məsələsini illərdir məhz güc müstəvisində həll etməyə çalışır. Dağlıq Qarabağ ətrafındakı 7 rayonun işğalı məhz buna xidmət edir - Azərbaycanla "müstəqillik əvəzinə 7 rayon" bazarlığını eləmək! Bunun özü güc yolu deyil ki? Beynəlxalq hüququn ayaqaltı edilməsi, Azərbaycanın torpaqla təhdid olunması, "hərbi qələbə"nin nəticələrini Bakıya qəbul etdirmək cəhdləri zor yolu deyil bəyəm? Ermənistanın bu xüsusda Ukraynanın şərqindəki Donbas separatçılarını hər cür silahlarla silahlandıran işğalçı Rusiyadan hansı fərqi var, görəsən?

Təəssüf ki, Minsk Qrupu həmsədrlərinin nəzərincə, fərq var. Yoxsa Moskvaya tətbiq edilən iqtisadi-maliyyə və siyasi sanksiyalardan İrəvana qarşı da tətbiq olunar, Dağlıq Qarabağın separatçı liderlərinin Qərbə çıxışı da Kreml, Abxaziya, Cənubi Osetiya, Donbasın separatçıları kimi yasaqlanar, onlara qarşı da sanksiyalar həyata keçirilər, Amerikanın maliyyə yardımları dərhal dayandırılardı. Daha Avropa Birliyinin rəsmi təmsilçisi İrəvanda saxta "DQR"-in "xarici işlər naziri" ilə həvəslə bir araya gəlib birgə şəkil çəkdirməzdi...

***

Əlbəttə ki, belə ikili standart yanaşmanı, özünə qarşı məxsusi isti münasibəti görən təcavüzkar Ermənistan *(o Ermənistan ki, BMT səsverməsi zamanı Qərbin iradəsinə qarşı gedərək Ukraynanın ərazi bütövlüyünün əleyhinə səs verib)* beynəlxalq hüquq normalarını hərləməz. Ukraynanın ərazi bütövlüyünə hörmət etməyən rəsmi İrəvanın müharibə vəziyyətində olduğu və ərazi iddiası olan Azərbaycanın sərhəd bütünlüyünə saygılı olması mümkünmü?

Özümüzü aldatmayaq. Ancaq axı Ermənistan özbaşına deyil. Beynəlxalq təşkilatlar, BMT, ATƏT, Avropa Şurası, ABŞ, Avropa Birliyi var. Nədən Rusiyanı ərazi bütövlüyü məsələsində küncə sıxan beynəlxalq qurumlar, ABŞ və Avropa Birliyi Ermənistana ayrı yanaşma sərgiləyir? Bəlkə Azərbaycan torpaqlarını yadplanetlilər işğal edib?

# Azərbaycan XİN başçısından Qarabağ çağırışı

## Elmar Məmmədyarov: "Sülh sazişi üzərində işə başlamaq zamanıdır..."



Elmar Məmmədyarov

**"Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı dəfələrlə öz mövqeyini bəyan edib". Bu fikirləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov dünən Bakıda İranın xarici işlər naziri Məhəmməd Cavad Zəriflə keçirdiyi birgə mətbuat konfransında ATƏT-in Minsk Qrupunun (MQ) amerikalı həmsədri Ceyms Uorlikin "Azərbaycanla ciddi danışıqlar aparmaq lazımdır" fikrinə münasibət bildirərkən deyib.**

Onun sözlərinə görə, həmsədrlər də Madrid prinsipi əsasında böyük sülh sazişi üzərində iş aparılmasına razıdırlar: "Sülh sazişi üzərində işə başlamaq lazımdır. Fransa prezidenti Fransua Olland da bunu bəyan edib. Bu danışıqlar ciddi danışıqlardır".

Məmmədyarov qeyd edib ki, ciddi danışıqlar başlamalıdır ki, regiona sülh gəlsin: "İlk növbədə Ermənistan qoşunları işğal edilmiş ərazilərdən çıxarılmalıdır". XİN rəhbərinə görə, MQ həmsədrləri atəşkəsin pozulmasından söz açarkən Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasının vacibliyini mütləq bəyan eləməlidirlər. " Onda atəşkəs də pozulmaz" - əlavə edib nazir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 36 (6064) 17 fevral 2015




# Mərkəzi Bankdan şok manat qərarı

## Milli valyutanın dollardan asılılığından imtina edildi; ekspertlər bildirirlər ki, hökumətin bu addımı manatın ucuzlaşmasını şərtləndirəcək...

**Azərbaycan manatı dollardan asılılıqdan imtina edib. Bildirilir ki, Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti fevralın 16-dan etibarən məzənnə siyasətində ikitərəfli məzənnənin hədəflənməsindən valyuta səbəti dəyərinin hədəflənməsinə keçid barədə qərar qəbul edib. AMB-dən APA-ya verilən məlumata görə, məzənnə siyasətinin ABŞ dolları və avronun daxil olduğu iki valyutalı səbət mexanizmi əsasında həyata keçirilməsi məqsədəuyğun hesab edilib.**

“Bu zaman müəyyən olunmuş dəhliz çərçivəsində valyuta bazarında Mərkəzi Bankın iştirakı davam edəcək. Tətbiq edilən yeni əməliyyat çərçivəsi iqtisadi subyektlərin tədricən adaptasiyasına şərait yaratmaqla, eyni zamanda məzənnə siyasətinin çevikliyini və makroiqtisadi effektivliyini təmin edəcək”, - deyə məlumatda vurğulanır.

Həmçinin AMB-nin İdarə Heyətinin sədri Elman Rüstəmov “Financial Times” qəzetinə müsahibəsində bildirib ki, Azərbaycan Mərkəzi Bankı manatın dollardan asılılığını azaldacaq. “Büdcə və pul-kredit siyasətinə düzəlişlər etmək həddən artıq vacibdir. Biz hesab edirik ki, daha da çevik məzənnə siyasətinə keçməliyik”, - deyə E. Rüstəmov bildirib.

Bununla belə, E. Rüstəmov Azərbaycanın nə vaxt manatın dollardan faktiki asılılığından imtina edəcəyinə dair suala cavab verməyib. Baş bankir qeyd edib ki, valyutanın dəyərdən düşməsi tədricən baş verə bilər və Mərkəzi Bank “bu məsələdə əhalinin maraqlarını nəzərə alacaq”. AMB rəhbəri deyib ki, Mərkəzi Bank məzənnə siyasətində ikitərəfli məzənnənin hədəflənməsindən valyuta səbəti dəyərinin hədəflənməsinə keçir. Məzənnə siyasətinin dollar və avronun daxil olduğu iki valyutalı səbət mexanizmi əsasında həyata keçirilməsi məqsədəuyğun hesab edilib: “Burada avronun payı 20-30 faiz, inflyasiya ilə bağlı oriyentir isə 5-7 faiz təşkil edəcək”.

**E.Rüstəmov onu da qeyd edib ki, 2015-ci il ən çətin illərdən biridir:** “Bu ildə əsas məqsəd iqtisadiyyatın diversifikasiyası, yeni inkişaf modelinə keçmək və xammaldan asılılığın azaldılmasıdır”. Sədr bildirib ki, cari ilin əvvəlindən Mərkəzi Bank manatın məzənnəsinin saxlanması məqsədilə 1 milyard dollar həcmində vəsait xərcləyib.

**Ekspertlər isə bu qərarı manatın ucuzlaşması qərarı hesab edirlər. İqtisadçı Samir Əliyevin sözlərinə görə, bivalyuta səbəti manatın ucuzlaşması deməkdir:** “Mərkəzi Bankın məzənnə siyasətində valyuta səbəti dəyərinin hədəflənməsinə keçid barədə qərarını bircə cümlə ilə belə ifadə etmək olar: hökuməti manatın yumşaq ucuzlaşdırılmasına start verdi. Əslində bu addım gözlənilən idi. Çünki baş verən proseslər manatı ciddi təzyiq altında saxlayırdı. Mərkəzi Bank iki ayda manatın saxlanmasına 2,3 milyard dollar sərf edirdi. Bu isə valyuta ehtiyatının 15 faizinə bərabər idi. Mərkəzi Bank 2 yoldan birini seçməli idi: ya manatı kəskin ucuzlaşdırmaq, təxminən 20-30 faiz, ya da tədricən ucuzlaşdırmaq yolunu tutmalı idi. Göründüyü kimi, ikinci yol seçildi. Çünki qeyri-neft sektorunun inkişafının prioritet elan edildiyi bir zamanda manatın devalvasiyası ehtimalı yüksək idi. Bu gün artıq manat dollara nəzərən 0,05 faiz ucuzlaşıb. Bu ucuzlaşma avronun dünya bazarlarında dollara münasibətindən asılı olaraq davam edəcək.

Manatın məzənnəsinin bivalyuta səbəti əsasında müəyyənləşdirilməsi mexanizmi bizdə mövcud olub və ondan 2011-ci ildə imtina edilib. Həmin səbət 90/10 nisbəti əsasında dollar-avrodan ibarət idi. İndi səbətdə dollar və avronun payı haqqında məlumat verilməsə də, ehtimal etmək olar ki, ilkin dövür üçün əvvəlki səviyyədə saxlanılıb. Sonrakı dövrlərdə xarici ticarət dövriyyəsinin avrozonanın xüsusi çəkisindən asılı olaraq avronun payı artırıla bilər. Hər bir halda bivalyuta səbəti manatın ucuzlaşmasını şərtləndirəcək".



**Ekspert Pərviz Heydərov isə qeyd edir ki, manatın məzənnəsini Mərkəzi Bank nəzərə alanda indiyədək yalnız ABŞ dollarını əsas götürürdü:** “Bundan sonra onun avroya görə kursu ayrıca olaraq nəzərə alınacaq. Buna manatın kursunu müəyyənləşdirməkdə bivalyuta səbəti deyilir. Manatın məzənnəsini müəyyənləşdirməkdə bivalyuta səbətindən 2008-ci ildən istifadə edilirdi. Amma Mərkəzi Bank 2011-ci il yanvarın 10-dan manatın məzənnəsini müəyyənləşdirməkdə bivalyuta səbətindən manat və ABŞ dollarının nəzərə alınması siyasətinə keçmişdi. Söhbət hələ devalvasiyadan getmir. Sadəcə olaraq, dövlət başçısı ”Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın 1-ci ilinin yekunlarına dair bu ayın əvvəlində keçirilən konfransda demişdi ki, avronun manata nəzərən çox da ucuzlaşmasına yol vermək olmaz. Bu da o deməkdir ki, Mərkəzi Bank 2011-ci il yanvarın 10-dan manatın məzənnəsini müəyyənləşdirməkdə bivalyuta səbətindən manat və ABŞ dollarının nəzərə alınması siyasətinə keçidi ləğv etməlidir. Məsələnin mahiyyəti bundan ibarətdir. Manatın ucuzlaşmağı qəpiklərlə ifadə olunacaq".

**Məsələ ilə bağlı iqtisadçı Vuqar Bayramov isə atvxeber.az-a açıqlamasında bildirib ki, manatın məzənnəsi dollara birbaşa müəyyən edilmişdi və Mərkəzi Bank yalnız dollara birbaşa, avroya isə çarpaz olaraq məzənnə hesablayırdı:** “Bu, o deməkdir ki, əgər avro dollara nisbətən 5 faiz dəyəri itirirdisə, manat da 5 faiz dəyər itirirdi. Əgər avro dollara nisbətən dəyər qazanırdısa, avtomatik manat da bu qazancı əldə edirdi”. Qeyd edək ki, bundan sonra avro ilə də birbaşa məzənnə müəyyənləşəcək. Həm də dünya bazarında da, bu iki pulun məzənnələri tərəddüd etməkdədir. İqtisadçı deyir ki, bu addım manatın dollardan birbaşa asılılığını aradan qaldıracaq: “Manatın məzənnəsi səbət prinsipi ilə hər iki valyutaya görə müəyyən ediləcək. Bu innovativ bir addımdır. Daha əvvəlki kimi manatın məzənnəsi xarici valyutaya görə düşməyəcək”.

❑ Röya RƏFİYEVA

# Azərbaycanın qaz ümidi...

## SOCAR qiyməti endirməyəcəyini bəyan etdi, ekspertlər isə bildirirlər ki, qaz layihələri uzun illər rentabelli olmayacaq...

**Azərbaycan qaz bazarına vaxtilə böyük maraq göstərən Qərbin bir müddət öncədən başlayaraq bürokratik əngəllər yaratması bir sıra suallar ortaya çıxarır. Bildirilir ki, Avropa Birliyi ölkələri iri layihələrə maliyyə qoymaq istəmir. Yunanıstan isə Trans-Adriatik Qaz kəməri ilə Azərbaycan qazının daşınması məsələlərinə və DESFA qaz paylayıcı şəbəkəsinin özəlləşdirilməsi mexanizminə yenidən baxmaq niyyətindədir. Yunanıstan hesab edir ki, Azərbaycandan alacağı qazın qiymətlərinin rəsmi Afinanın nəzərincə bahalı olmasıdır.**

Bu məsələdə son olaraq SOCAR fevralın 16-da açıqlama yayaraq qazın qiymətinin aşağı salınmayacağını bildirib. “Yunanıstanın Trans-Adriatik qaz kəməri (TAP) layihəsi çərçivəsində Azərbaycandan alacağı qazın satış qiymətinin aşağı salınması kimsə istəsə belə, mümkün deyil”,- bunu jurnalistlərə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) sərmayələr və marketinq üzrə vitse-prezidenti Elşad Nəsirov bildirib.

**APA-nın xəbərinə görə, E.Nəsirov qeyd edib ki, bu, qəbul edilən beynəlxalq təcrübənin tələblərinə uyğun gəlmir:** “Yunanıstanla 25 il müddətinə müqavilə bağlanılıb. Müqaviləyə görə, tərəflər qazın alış və ya satış qiymətinin dəyişdirilməsi ilə bağlı danışıqların aparılması mümkünlüyü barədə müddəalar var. Bu da bazar vəziyyətində kəskin dəyişikliklərin olduğu zaman baş verən bilər. Amma bu proses qazın tədarükündən sonra baş tuta bilər. Yunanıstan tərəfi hələlik qaz almadığı üçün hər hansı qiymətin dəyişdirilməsindən söhbət gedə bilməz”.

*Vitse-prezident deyib ki, bundan başqa, qazın qiymətinin düşməsi nə Yunanıstan, nə Azərbaycan, nə də ki SOCAR-dan asılı deyil:* “Qiymətlə bağlı müqavilə Yunanıstan şirkəti ilə Yunanıstana qaz tədarük edəcək 7 şirkətin daxil olduğu konsorsium tərəfindən imzalanıb. Bununla bağlı mexanizm Yunanıstan tərəfi və qaz tədarük edəcək və danışıqları həyata keçirən qrup tərəfindən işlənilib. Müqavilə imzalandıqdan sonra bu qrup öz fəaliyyətinə xitam verib. Məhz buna görə qazın qiymətinin aşağı salınması ilə bağlı danışıqlar aparılacaq heç bir tərəf yoxdur”. **E.Nəsirov Yunanıstan tərəfinin Azərbaycan qazının TAP layihəsi çərçivəsində nəql ediləcəyi tranzit haqlarının artımı ilə bağlı irəli sürdüyü tələbə də aydınlıq gətirib. O bildirib ki, bu məsələ birbaşa Avropa İttifaqına ünvanlanacaq məsələdir, lakin “Avropa İttifaqının şərtlərinə uyğun deyil”. O qeyd edib ki, bütün bu şərtlərin qarşılığında SOCAR-ın Yunanıstan tərəfindən əsas tələbi tədarük ediləcək təbii qaza görə vaxtında ödənişin edilməsi və kəmərin tikintisinin gecikməməsidir. E.Nəsirovun sözlərinə görə, SOCAR mütəmadi olaraq Yunanıstanın yeni hökuməti ilə əlaqədədir:** “Əgər Yunanıstan iqtisadiyyatı TAP-ın mövcudluğundan daha intensiv templərlə inkişaf edəcəksə, biz bu layihəyə istənilən dəstəyimizi verməyə hazırıq”.



**Ekspertlər isə bildirirlər ki, Azərbaycanın mühüm iştirakçısı olduğu “Şahdəniz-2", TANAP və TAP layihələri uzun illər rentabelli olmayacaq. Ekspert Natiq Cəfərlinin sözlərinə görə, Beynəlxalq Energetika Agentliyi və Dünya Bankı yeni, maraqlı bir hesabat yayıb. Hesabatda deyilir ki, yaxın 3 ildə dünyada qaz qiymətləri 30-60 faiz aşağı düşəcək.** ”Bu, tək neftin ucuzlaşması ilə əlaqədar deyil. Əsas səbəb dünyada yeni, iri qaz hasilat və ixracı ilə məşğul olan oyunçuların yaranması və qazın tankerlərlə daşınmasına görə baş verəcək. Sıxılmış qazın tankerlərlə daşınması həm qaz təchizatının mobilliyini artırır. Həm tranzit xərclərini azaldır. Həm də boru keçən ölkələrdə baş verən və ya baş verə biləcək siyasi riskləri sığortalayır".

**O qeyd edib ki, qaz qiymətlərinin enməsi artıq başlayıb:** “Qiymətlər xeyli ucuzlaşacaq. Bizim hökumət mütləq bunu nəzərə almalı, TANAP və TAP layihələrində izafi xərcləri azaltmalı, yeni payçılar cəlb etməlidir. Yoxsa 48 milyard dollara başa gələcək ”Şahdəniz-2", TANAP və TAP layihələri uzun illər rentabelli olmayacaq. Ancaq qoyulan vəsaitin geri götürülməsi üçün çalışılacaq ki, ölkəmiz bu layihələrdən qazanc götürə bilməyəcək. Azərbaycan bu layihələrə liderliyi ələ alması çox yaxşıdır və indi çalışmalıdır ki, TANAP-a, sonradan isə TAP-a İran və İraq qazının cəlb olunmasında operator olsun. Bundan da pul qazansın, yoxsa bu layihələrin səmərəsi olmayacaq".

**Ekspert daha bir təklif də verib:** “Azərbaycan gəmiqayırma zavodu tikir, əslində rentabelli layihə deyil. Xəzər dəniz deyil, okeana çıxışımız yoxdur, gəmiqayırma zavodunun önəmi azdır. Amma yeni yanaşma ilə bu zavodu rentabelli etmək olar. Rusiya «Transxəzər» kəmərini çəkməyə qoymur. Ona görə də Türkmənistan qazının Azərbaycan üzərindən Avropaya çatdırılması mümkün olmur. Xəzərin dibi ilə boru çəkməyə Rusiya da, İran da imkan vermir. Amma Azərbaycan Yaponiya və Cənubi Koreyadan mütəxəssislər, texnologiyalar cəlb etməklə Ələtdəki yeni gəmiqayırma zavodunda Xəzərdə üzə biləcək kiçik tutumlu sıxılmış qaz tankerləri istehsal edə bilər. Bu, yüzlərlə yeni iş yerləridir. Kəmər çəkmədən Türkmənistan qazının Azərbaycana daşınması, buradan da Avropaya çatdırılması mümkündür. Rusiya və İranın təzyiqlərindən, boru çəkilməsinə maneələrindən canımız qurtaracaq. Belə olan şəraitdə Türkmənistan qazı da TANAP və TAP layihəsinə qoşulacaq ki, bu da layihənin gəlirliliyini və cazibəsini artıracaq. Tək bizim 10-12 milyard kubmetrlik kiçik qaz həcmi ilə bu layihələr rentabelli olmayacaq. Uzun müddət gəlir gətirməyəcək, nə də bizim Avropa bazarında söz sahibi olmağımıza imkan yaratmayacaq. Avropanın illik qaz istehlakı indi 490 milyard kubmetrdir, 2020-ci ilə, qazımız Avropa çatanda istehlak 550 milyard olacaq, yəni bizim 10-12 milyard ilə bazarda "hava" dəyişməyəcək. Bu da sizə “milyonluq” təklif, götürün, həyata keçirin, biz də deyək, sağ olsun hökumət, dinləyir, əməl edir, işləyir".

❑ RÖYA

YENİ MÜSAVAT
N 36 (6064) 17 fevral 2015

**Sabunçu rayonunda, 90 saylı orta məktəbin 7-ci sinfində təhsil alan Orxan Həsənovun bədən tərbiyəsi müəllimi Elnur Cəbrayılov tərəfindən döyülməsi təhsil ocaqlarında şagirdlərə qarşı törədilən zorakılıq hallarını gündəmə gətirib. Qeyd edək ki, fevralın 14-də baş verən faktla bağlı ilkin araşdırmanın nəticələri məlum olub. Müəllim Emil Cəbrayılov məktəbdən uzaqlaşdırılıb.**

# 90 saylı məktəbdə şagirdin döyülməsi olayı böyüyür

## Firudin Cəlilov: “Bu, təkcə bir məktəbin yox, bütövlükdə təhsil sisteminin problemidir”

**Baş verən hadisə ilə bağlı “Yeni Müsavat”a açıqlama verən 90 saylı məktəbin direktoru Qurbantac Qazıbəyova bildirdi ki, şagirdi döyən müəllim məktəbdən uzaqlaşdırılıb:** “Müəllim əsəbləşib və şagirdi o ki var çırpıb. Hadisəni Bakı Şəhər Təhsil İdarəsi və 12-ci polis bölməsi araşdırır. Hazırda istintaq gedir və istintaq yekunlaşana qədər müəllim müvəqqəti olaraq işdən uzaqlaşdırılıb. Şagirdin vəziyyəti isə normaldır, hadisədən bir gün sonra məktəbə gəldi və dərslərdə iştirak edir”.

**Məktəb direktoru bildirdi ki, şagirdin valideyni ilə də görüşüblər:** “Valideynin bizə, məktəbə qarşı münasibəti normaldır, ancaq Emil müəllimə qarşı yox. Valideyn müəllimi polisə verib. Müəllimin əvvəllər uşaqlara qarşı zorakılığı olmayıb. Bu birinci dəfə idi. Mənim münasibətim isə odur ki, məktəbdə, küçədə, evdə və ya başqa yerlərdə uşaq döyülməməlidir. Uşağı döymək, danlamaq, zorakılıq etmək olmaz”.

**Orxan Həsənovun atası Mirələm Həsənov mətbuata açıqlamasında oğlunun döyülməsinin səbəbini açıqlayıb. O bildirib ki, bir həftə əvvəl şagird bədən tərbiyəsi müəlliminin maşınının yanından keçəndə yerə tüpürərkən, tüpürcək onun maşınına düşüb:** “Maşının üstündə tüpürcək görən müəllim bərk qəzəblənib. Bunu Orxanın etdiyini öyrənəndən sonra isə onu axtarmağa başlayıb. Orxan müəllimin yanına gedərək ondan üzr istəyib. Bununla qəzəbi soyumayan müəllim Orxanı məktəbin boş otağına aparıb. Daha sonra Orxandan şalvarını soyunmağını tələb edib və şlanqla onun bədəninə vurmağa başlayıb. E.Cəbrayılov Orxanı döyərkən yanında onun sinif yoldaşları - Fuad və Xəyal da olub. Fuad və Xəyala da zərbə dəydiyi bildirilib”.

**Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov bildirdi ki, hadisə araşdırıldıqdan sonra hüquqi qiymət veriləcək:** “Bu məsələ araşdırılır, araşdırma nəticəsində həmin fakt öz təsdiqini tapacaqsa, günahkarlar cəzalandırılacaq. Başqa cür ola bilməz”.

Nazirlik sözçüsü onu da bildirdi ki, müəllimlər işə qəbul olunarkən psixoloji durumu yoxlanılır, sınaq qiymətləndirməsində və diaqnostik qiymətləndirmədə müəllimlərin kommunikativ bacarığı, auditoriya ilə işləmək bacarığı dəyərləndirilir, yalnız bundan sonra işə alınır.

**Hüquqşünas Müzəffər Baxış bildirdi ki, müəllimin əməli araşdırılmalı və şagirdə yetirdiyi xəsarətin dərəcəsindən asılı olaraq məsələyə hüquqi qiymət verilməlidir:** “Əgər müəllim şagirdi xuliqanlıq məqsədi ilə döyübsə, şagird az ağır və ya ağır xəsarət alıbsa, onda həmin fakt həm xuliqanlıqla tövsif olunur. Əgər müəllimin istifadə etdiyi şlanq silah kimi dəyərləndiriləcəksə, onu AR Cinayət Məcəlləsinin 221.3-cü maddəsi ilə 3 ildən 7 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir. Müəllimin hərəkəti nəticəsində şagird yüngül xəsarət alıbsa və müəllimin xuliqanlıq niyyəti olmayıbsa belə halda müəllimi 200 manatadək cərimə və ya 6 ayadək azadlıqdan məhrumetmə cəzası gözləyə bilər. Əgər şagirdin bədənində hər hansı xəsarət müəyyən edilməyibsə, müəllimin əməli AR İXM-in 38.1-ci maddəsi ilə 500 manatdan 1000 manatadək cərimə edilə və ya iki ay müddətinə inzibatı qaydada həbs edilə bilər. Müəllimin əməlinə necə hüquqi qiymət verilməsi onun şagirdə yetirdiyi xəsarətlərin dərəcəsindən asılıdır”.



**Sabiq təhsil naziri Firudin Cəlilov bildirdi ki, bu cür hadisələr məktəblərdə təlim-tərbiyə işinin aşağı səviyyədə olmasını göstərir:** “Bəzən müəllim şagirdi, bəzən tələbə müəllimini döyür. Təəssüf ki, bu kimi xoşagəlməz hadisələr yaşanır. Bunun bir səbəbi də odur ki, yaxşı, peşəkar müəllimlər, peşəsini sevən, şagirdləri öz övladı kimi görən müəllimlər artıq məktəblərdən uzaqlaşıb. Bu məsələyə daha geniş şəkildə baxmaq lazımdır ki, təhsilimiz niyə bu səviyyəyə düşdü? Bu səbəbləri təhlil etmək lazımdır”.

**Müəllimlərin əmək haqlarının aşağı olmasını və məişət problemlərinin çox olduğunu deyən Firudin Cəlilov qeyd etdi ki, bu istiqamətdə islahatlar aparılmalıdır:** “Yeni nazir islahatlara yaxşı başlamışdı, amma yarımçıq apardı islahatları. Müəllimlərin dərs yükünü bir az çoxaldıb maaşlarını artırdılar. Ancaq bunu başqa formada aparmaq lazımdır. Müəllimlərin maaşı artırılmalıdır. Ucuz ətin şorbası olmaz. Bu təkcə bir məktəbin problemi deyil. Bütövlükdə təhsil sisteminin problemidir. Təhsil sistemi bir zəncirdir, onun həlqələri var. Biz bir həlqəsini götürüb onun üzərində dayanırıq. Təhsil sistemi ümumilikdə təhlil olunmalıdır, islahatlar aparılmalıdır”.

### Müəllimlərin maddi və psixoloji durumu

**Psixoloq Dəyanət Rzayev “Yeni Müsavat”a bildirdi ki, müəllimlərin psixoloji gərginliyinin əsas səbəbi maddi sıxıntılardır:** “Müəllimlərin maaşı həddindən artıq aşağıdır. Ayda 150-200 manat maaş alan müəllimin ailədə hansı çətinliklərlə üzləşdiyini təsəvvür etmək çətin deyil. Təbii ki, hansısa şagirdin döyülməsinə haqq qazandırmaq olmaz. Hətta müəllim heç bir maaş almasa, aclıqda ölməli olsa belə bu ona şagirdləri döyməyə haqq vermir. Bəzən bədən tərbiyəsi müəllimləri idmançı olmaq istəyən, lakin bu arzusuna çatmayan və müəllimliklə qane olan insanlar olur. İdmançı olmağı arzulayarkən gəlib ayda 150 manata müəllim işləyir, ailəsini dolandıra bilmir, daim gərginlikdə olur. Şagird də bir uşaqdır, o nadinclik də edə bilər. Lakin müəllim bunu həzm edə bilmir. Ola bilər ki, müəllim psixopatdır. Mən o müəllimi qınamıram. Mən müəllimin orada çalışmasına icazə verəni qınayıram”.

❑ **Nərgiz LİFTİYEVA**

# Amerikada 3 müsəlmanın qətli...

## Şimali Karolinada baş verən qanlı hadisənin nifrət cinayəti olması təsdiqini taparsa, Vaşinqton üçün yeni problemlər yaranacaq; müşahidəçilər isə ABŞ-da islamafobiyanın yenidən artdığını qeyd edirlər

**ABŞ-ın Şimali Karolina ştatında fevralın 10-da 3 müsəlman tələbə evlərində güllələnərək öldürülüb. Hadisə səhər saat 5 radələrində baş verib. Qətli törətməkdə ittiham olunan 46 yaşlı Kreyq Stefen Hiks adlı bir nəfər həbs olunub.**

Qətlə yetirilənlər Şimali Karolina Dövlət Universitetində stomatoloq təhsili alan 23 yaşlı suriyalı Şaddi Bərəkət, onun 21 yaşlı həyat yoldaşı Yusor Məhəmməd Əbu Səlha və Yusorun 19 yaşlı bacısı Razan Məhəmməd Əbu Səlha olub. Bu hadisə bütün dünyada geniş əks-səda doğurub. ABŞ telekanallarının, o cümlədən BBC-nin hadisəni təzə baş verdiyi gün işıqlandırmaması böyük təpkilərə səbəb olub. Müsəlmanlar BBC-nin ofisi qarşısında etiraz aksiyası keçirib.

Qatilin özünü ateist kimi təqdim etməsi, şəxsi facebook səhifəsində dinləri təhqir edən statuslar paylaşması bu hadisənin dini motivli olması, İslama qarşı nifrət cinayəti olması haqda fikirlərə səbəb olub.

Bərəkət Suriya əsilli olub, onun öldürülən həyat yoldaşı və baldızı isə İordaniya vətəndaşları olub. Öldürülən gənclərin dostları onları “pisliklərdən uzaq, tərtəmiz” insanlar kimi xarakterizə ediblər. O da məlum olub ki, stomatoloq ixtisası üzrə təhsil alan Şaddi Bərəkət bu ilin yayında Türkiyəyə gedərək orda çadır düşərgələrində suriyalı qaçqın uşaqlar üçün pulsuz stomatoloji müayinələrin təşkil olunması məqsədi ilə kampaniyada iştirak edib. Hətta onun bu kampaniyaya dəvət edən videoroliki də çəkilib. Dostlarının bildirdiyinə görə, Bərəkət bu ilin yayında Türkiyəyə getməyi planlayırdı. Artıq kampaniya üçün 195 min dollar yığılıbmış və bu pula suriyalı qaçqın uşaqlara uyğun ləvazimatlar alınacaqmış.

ABŞ polisi isə qətlə səbəb olaraq avtomobil park etmək üstündə yaranan münaqişənin üzərində dayanır. Yerli mətbuatın yazdığına görə, qətli törədən Hicks əsəbi biri olub və uzun müddət avtomobil park etmək üstündə qonşularla savaşıb. Ancaq eyni zamanda o, facebookdakı hesabında dinlər əleyhinə çıxır, bütün dinləri təhqir edir və hətta əlindəki silahla hədə mesajları verir. Lakin öldürülən müsəlmanların qonşuluğunda yaşayan Atiş Laxu mətbuata müsahibəsində park davası iddialarını təkzib edib. Bu məhəlləyə ötən yayda köçdüyünü deyən Laxu bu müddətdə Bərəkət ailəsi ilə bağlı hər hansı şikayət eşitmədiyini deyib. “Əgər park yeri ilə bağlı münaqişə olsaydı, mən bu haqda eşidərdim. Burda park problemi olduğunu eşitməmişəm. Bizim də park yerimizdə kimsə maşın saxlayır, ancaq bu zaman biz yol kənarında maşınımızı saxlayırıq, yəni heç bir problem olmur” - deyə qonşu bildirib.



Bu isə Amerikada islamafobiya müzakirələrinə səbəb olub. Amerikada 11 sentyabrla başlayan islamafobiya son illərdə xeyli dərəcədə zəifləsə də, son olaraq ötən il İŞİD iki amerikalını, xüsusən də jurnalist Ceyms Foleyi qətlə yetirdikdən sonra yaydığı kadrlar Amerikada İslam əleyhinə çağırışları artırıb.

**Şadi Bərəkətin qohumu İsmayıl Muharib də mətbuata müsahibəsində cinayətə park münaqişəsinin səbəb olmadığını bildirib:** “Bərəkət ötən ildən orda yaşayırdı. Həyat yoldaşı yanına köçənə qədər qonşularla heç bir problem yaşanmamışdı. Həyat yoldaşı Yusor hicablı idi və bu da onun müsəlman olduğunu açıq şəkildə göstərirdi. Bütün problemlər də bundan sonra başladı”.

Bəzi iddialara görə, hətta qatil daha əvvəl bir neçə dəfə Yusor Məhəmmədin qarşısını kəsərək onu hədələyib, Amerikanı tərk etmələrini tələb edib. Ancaq ailə bu hadisənin daha da böyüyərək qətlə çevriləcəyini güman etməyib.

Hökumət isə təmkinli davranmağa çalışır. ABŞ hakimiyyət dairələri olayla bağlı “terror hücumu” və ya “nifrət cinayəti” ifadəsini işlətməkdən qaçaraq bu hadisənin islamafobiya ilə bağlanmamasına çalışır. Çünki bu cür olması ABŞ-da ilk dəfə olaraq müsəlmanların inancına görə öldürülməsi faktı olacaq və çox ağır nəticələrə səbəb ola bilər. Eyni zamanda bu faktın təsdiqin tapması ABŞ-ın müsəlman müttəfiqləri ilə arasının açılmasına səbəb ola bilər. Çünki artıq bir sıra ABŞ müttəfiqi olan dövlətlər Vaşinqtona çağırış ediblər. Xüsusən də nəzərə alanda ki, hazırda Yaxın Şərqdə ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiya İŞİD-a qarşı savaşır, bu cür hadisələr Vaşinqton üçün ciddi başağrısına çevrilə bilər. Yeri gəlmişkən, artıq Vaşinqtonun regiondakı ən sadiq müttəfiqi olan Səudiyyə Ərəbistanı hakimiyyəti bu olayı pisləyən bəyanat yayıb.

ABŞ-da sosial media üzərindən “Müsəlmanların həyatı önəmlidir” adlı kampaniya başladılıb. Amerikalı müsəlmanlar bu hadisənin islamafobiya olduğunu bildirirlər. Ötən həftə Vaşinqtonda Ağ Evin qarşısında müsəlmanlar cümə namazı qılıblar.

**Hadisə baş verdiyi dövrdə Latın Amerikasında səfərdə olan Türkiyə prezidenti ABŞ prezidenti Obamaya, eləcə də vitse-prezident Bayden və dövlət katibi Con Kerriyə müraciət edərək mövqe bildirməyə çağırıb. Sitat:** “Amerikaya yaxın olduğum üçün burdan bildirmək istəyirəm. Mən cənab Obamaya səslənirəm, "Hardasan prezident" deyirəm. Xarici işlər naziri Baydenə səslənirəm, “hardasınız” deyirəm. Biz siyasilər ölkəmizdə baş verən cinayətlərə görə cavabdehik. Siz də mövqeyinizi ortaya qoymalısınız. Çünki xalq sizə səs verərkən “mənim şəxsi təhlükəsizliyim, əmlak toxunulmazlığımı qoruyacaqsınız” - deyə səs verir. Əgər siz bu cür olaylarda səssiz qalsanız dünya da sizə qarşı səssiz qalacaq. Və deyirəm ki, unutmayın, dünya 5-dən böyükdür".

Ancaq Vaşinqton Ərdoğanın bu iddialarını qəbul etməyib. Dövlət Departamenti sözçüsü Cen Psaki Ərdoğanın “səssiz qalmaqla” bağlı iddialarını qəbul etmədiklərini, “dualarımız və düşüncələrimiz qurbanların ailələri ilədir” deyib.

Eyni zamanda hadisədən 3 gün sonra ABŞ prezidenti Barak Obama yazılı açıqlama ilə çıxış edərək olayı qınayıb. Obama bildirib ki, artıq FTB hadisə ilə bağlı təhqiqata başlayıb. Obama açıqlamasında “ABŞ-da heç kimsə kim olduğu, görünüşü və ya ibadət fərqinə görə hədəfə alınmamalıdır” deyə qeyd edib.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 36 (6064) 17 fevral 2015

# “Sarkisyana mahnı da bəstələyirəm...”

## **Elza Seyidcahan:** “Mənim yaradıcılığımı Firəngiz Əlizadə, Gövhər Həsənzadə, Nailə Mirməmmədli, Aygün Səmədzadə və digərləri də dəstəkləyir”

**Müğənni, bəstəkar Elza Seyidcahan mətbuatın, medianın gündəmində qalmaqda davam edir. Onun Ermənistan prezidenti Serj Sarkisyana həsr etdiyi şeir xeyli müzakirə obyekti oldu. Bundan əvvəl də bəstəkar özünəməxsus şeirlərini mətbuata təqdim etmişdi. Lakin bu şeiri xüsusi qalmaqal yaratdı. Yazıçı və şairlər onun bu hərəkətini gülünc adlandırdılar. Xüsusən də bəstəkarın bugünlərdə “İlin şairəsi” adını almağı onları özündən çıxartdı.**



Bəstəkar “Yeni Müsavat”ın əməkdaşına yeni açıqlama verərək bildirdi ki, artıq Sarkisyana həsr etdiyi şeirə mahnı da bəstələyir. Elza Seyidcahan onu dəstəkləyən musiqiçilər barəsində danışdı:

“Mənim yaradıcılığımı Firəngiz Əlizadə, Gövhər Həsənzadə, Nailə Mirməmmədli, Aygün Səmədzadə və digərləri də dəstəkləyir. Aygün xanım İctimai TV-də musiqi redaksiyasında işləyərkən məndən həmişə kliplərimi istəyirdi. Onu da deyim ki, üzümə gülüb arxamca isə başqa söz danışan bəstəkarlar da var, amma onların heç adlarını belə çəkmək istəmirəm.

Vaqif Mustafazadənin 60 illik yubileyində Nəsiminin sözlərinə yazdığım kompozisiyanı təqdim etdim. Bunu V. Mustafazadəyə həsr etmişdim. Həmin vaxt onun qızı Əzizə xanım tədbirə gəlməmişdi. Royalda ifa edəndə bəzi xaricilər elə bilmişdi ki, mən Əzizəyəm(gülür). Liviyadan olan musiqiçilər bu mahnıma görə qarşımda baş əyib öz papaqlarını mənim başıma qoydular. Bu, onlarda hörmət əlamətidir".

**Bəstəkar əməkdaşımıza son mahnısı haqqında da danışıb:**

“Bu Nəsiminin sözlərinə yazdığım üçüncü mahnımdır. Hələlik onun janrı və xüsusiyyəti barədə məlumat vermək istəmirəm. Tezliklə öz ifamda təqdim edəcəm”.

Yazıçı və şairlər Elza Seyidcahanın şeirlərini heç yaxın da qoymaq istəmədilər, bəs görəsən, professional musiqçilər onun mahnı yaradıcılığı barədə nə düşünürlər?

**Xalq artisti Flora Kərimova onun haqqında danışmaq istəmədiyini bildirdi:**

“Bu söhbətlər mənə aid deyil. Çox xahiş edirəm ki, bu barədə məndən heç nə soruşmayasız. Hamınız bilirsiz ki, onun anası...(fikrə gedir). Yox, heç nə danışa bilmərəm”.

**Əməkdar artist, bəstəkar Gövhər Həsənzadə isə onun mahnılarını əsl kompozisiya adlandırıb:** “Elza professional məktəb keçib. Onunla mən Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının bəstəkarlıq sinfində təhsil almışıq. Doğrudur, biz ayrı-ayrı kurslarda oxumuşuq, yəni bir qrupda olmamışıq. Mən dahi sənətkarımız Cövdət Hacıyevin, Elza isə Arif Məlikovun tələbəsi olub. O, daima öz üzərində işləyir, yaradıcılıq tədbirlərində yaxından iştirak edirdi. Bizim tələbəlik illərimiz birgə keçib. Bu baxımdan onun yaradıcılığı ilə yaxından tanışam. Onun musiqisi çox ciddidir. Bilirəm ki, onun tamaşaçılara təqdim edə biləcək çox gözəl əsərləri var. Bu gün gülünc vəziyyətdə olan xeyli musiqiçilərimiz var, onlar qalıb kənarda, hamısı Elzanın üzərinə düşür.

Bir sözlə, Elza peşəkar, professional bəstəkardır, musiqisində heç bir problem yoxdur, onun hər bir mahnısı bir kompozisiyadır. O bəzən istəyir ki, orkestri, ansamblı əvəz edərək, tək özü mahnısını ifa etsin, buna görə də hərdən qəribə qarşılanır. Elza mahnılarını çox cüzi tərkiblə təqdim edir. Əgər onun üçün bir qədər şərait yaradılsa və o, mahnılarını orkestr səviyyəsində təqdim edə bilsə, anlaşılmaz heç nə qalmayacaq. Mən arzu edirəm ki, onun yaradıcılığı, əsərləri lazımi səviyyədə təqdim edilsin.

Bir çoxları fikirləşir ki, onun psixoloji durumu yerində deyil. Amma mən əsla belə düşünmürəm. Hər bir yaradıcı insanın qəribəlikləri var, bunu tarixdə də görmüşük. Buna görə də onun hansısa ideya və yaxud layihə barəsində fikirləri qəribə ola bilər. Fikrimcə, bu cür ideyaları da şou-biznes, gündəmdə qalmaq xətrinə yaranır.

Ümumiyyətlə, cəmiyyət demək olar ki, onu yalnız mahnıları ilə tanıyır, lakin Elza çox gözəl klassik əsərlərin yaradıcısıdır. Əsasən onun klassik əsərlərini dəstəkləyirəm. Çox istərdim ki, onun klassik əsərləri bu gün gündəmə gəlsin, çünki bu əsərlər professional şəkildə yazılıb. Bəlkə də bundan sonra onun haqqında olan fikirlər öz yerini tutacaq".

Qeyd edək ki, bəstəkar Sərkisyana yazdığı şeiri onun cinayətkar kimi tanınması məqsədi ilə yazdığını bildirib. Bəstəkar “Yeni Müsavat”ın əməkdaşına verdiyi müsahibədə jurnalistləri də bu petisiyaya qoşulmağa çağırıb.

Adıçəkilən qalmaqallı şeiri təqdim edirik:

***Sarkisyan***
***danışır Bakı...!!!!!***
***Nahaqdan axıdılan qanlara***
***haqq verir Yerevandakı...!!!???***
***Yer üzündə***
***haqq verən insanlara...,***
***Göy üzündə***
***sülh sevən qartallara....***
***Ucaldıram səsimi...!***
***Səsimə səs ver a dünya........?***
***Haqqımıza girdilər..!***
***Bizə haqq ver dünya.....?***
***Xocalıya, Şuşaya***
***soxuldular, cırdılar...,***
***vurdular, yandırdılar..!!!***
***Sarkisyanlar, yanyanlar***
***sizdə yan var, yan, yan***
***bizdə can var!***
***Can...Can...!***
***Azərbaycan...can ..can...***
***Canı candan ayırana***
***bizdə qan var.***
***Qan..qan...!***
***Qanmırsan sən?!***
***Qanmalısan!!!***
***Canı candan ayırırsan?!***
***Qan.! Qan..!!!***
***Qanmayana dam, dam..!!!***
***Damcılanın qanımızın hesabını***
***dan, dan...!???***
***Sarkisyan..?!***
***Üsyan edərik, sənə üsyan..!!!***
***Atasız qalan övladlar***
***sənə küsyan..!***
***Yurdsuz qalan torpağımız***
***sənə tüğyan..!!!***
***Yan.., yan..!***
***Yanyana duran yanyanlar...!***
***Yuyanlar....!!!!!***
***Hamımızı tanrı verdi!***
***O sevərmi sən tökəsən***
***körpə quzuların qanın..!?***
***O qıyarmı sən sayasan***
***yetim körpələrin sayın!?***
***Heç qoyarmı tanrı....???***
***Məsum anaların ahın..., ahın...!!!???***
***Mübarizlər ölümüylə***
***Ödürərlər yanları...!!!!!***
***Siz yanansız!!!***
***Yana-yana qalansız..!!!***
***Bu dünyada sülh sevən,***
***haqq sevən insanlar var...!!!***
***Tamamsan sən!***
***Talansan. Sən..!***
***Sadə dildə danışıram səninlə...!***
***Şairlərim çox dedilər***
***Səbrlə..!***
***Əzimlə..!!!***
***Bəxtiyarlar, Şəhriyarlar verdi bizə***
***bu cürəti, bu qüdrəti...!!***
***Sarkisyan...!?***
***Sənə üsyan edirəm!***
***Mən üsyan!!!***
***Vətənimdən əl çək.!!!***
***Yurdumuzdan, obamızdan,***
***Elimizdən yan çək...!!!***
***Sarkisyan yan! Yan!!!***
***Sən bir dayan??!!***
***Sənə od qoyacam..!!!***
***Alacam səndən qayamı, tayamı!!!***
***Xalamı, atamı sən öldürdün..!!!***
***Gorumu, tayfamı sən söydürdün..!!!***
***Ocağımızı sən söndürdün???***
***Allahı özünə küsdürdün???***
***Küsdürdün Allahı özünə..!!!***
***Söndürməyəcək sənin yanyananını...!!!***
***Yana-yana qalacaqsan Sarkisyan!!!!! Yann!!!!!***

❑ **Xalidə Gəray**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**



## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

- Arı südü
- Möhtəşəm ağ bal
- İssık-Kul balı
- Esmarset balı
- Çask balı
- Karkıra balı və s.

**Ünvan:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34


## Masazırda kişi keçmiş arvadını moteldə öldürdü

**Abşeron rayonunda qətl törədilib. Abşeron Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, hadisə Masazır qəsəbəsində yerləşən “Romi” motelində qeydə alınıb. Zöhrab adlı şəxs qısqanclıq zəmində keçmiş arvadını bıçaqlayaraq öldürüb. Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya bildirilib ki, bu gün saat 14 radələrində 1980-ci il təvəllüdlü Zöhrab İsmayılov keçmiş həyat yoldaşı, 1988-ci il təvəllüdlü Vəfa Abdullayevanı Masazır qəsəbəsində yerləşən “Romi” motelində qısqanclıq zəminində üstündə gəzdirdiyi bıçaqla boyun nahiyəsinə bir neçə zərbə endirməklə qətlə yetirib.**

Aznews.az saytının yazdığı məlumata görə, hadisəni törədən şəxs arvadının moteldə olmasından xəbərdar olub və hadisə yerinə hazırlıqlı gəlib. O, hətta arvadının hansı avtomobillə gəldiyini də müəyyənləşdirib və əvvəlcə həmin VAZ 21-07 markalı avtomobilin şinlərini deşərək, onların qaçmaq ehtimalını aradan qaldırıb. Bundan sonra otağa daxil olaraq, arvadını öldürüb.

Faktla bağlı Abşeron Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, cinayəti törətməkdə şübhəli bilinən Z. İsmayılov hazırda rayon prokurorluğunda dindirilir.


*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- Əla tələffüz və güvənlə danışmaq
- Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT
N 36 (6064) 17 fevral 2015

# Siyasətçilər çıxış öncəsi güzgü qarşısında məşq edirmi?

## Onların əksəri bunu etmədiyini, edənlərə də normal baxdığını deyir; ekspert: “Böyük siyasətçilərin bədən dili məşqçiləri, psixoloqları da olur...”

**Yəqin ki, hər kəs “Həm ziyarət, həm ticarət” filmindəki Mustafa müəllimin gecəyarı güzgü qarşısına keçib məşq etdiyi epizodu xatırlayır. Səhər verilişə çıxacağını zənn edən Mustafa müəllim (Hacı İsmayılov) jestlərlə uzun-uzun danışır.**

Əslində hələ qədimlərdən güzgü qarşısında məşq etmək ənənəsi olub. Bu yaxınlarda da “Buzzfeed” adlı internet saytına müsahibə verməyə hazırlanırmış kimi davranan Obama güzgü önündə üz əzələlərini oynatmağa, sonra isə çıxış etməyə hazırlaşırmış kimi danışmağa başlayıb. Ən sonda da günəş eynəklərini taxaraq şəkillər çəkdirib.

Azərbaycanda necə, göz önündə olan siyasətçilər kütlə qarşısında və televiziyada çıxış etmədən öncə güzgü qarşısında məşq edirlərmi?

**Deputat Fazil Mustafa heç vaxt hansısa tədbirə güzgü qarşısında məşq edərək çıxmadığını dedi:** “Əgər mən məruzə edəcəyəmsə, onun mətni üzərində işləyirəm, yazıram. Amma hansısa televiziya, parlament çıxışıma heç vaxt öncədən hazırlaşmıram. Sadəcə olaraq, mövzu haqqında nə danışacağımı müəyyən edirəm. Diqqət etsəniz görərsiniz ki, mən heç vaxt mətindən oxumuram, birbaşa danışıram. Əgər kimlərsə çıxış etmədən öncə güzgü qarşısında məşq edirsə, buna da pis baxmıram. Bu bir siyasətdir və təbii ki, şəxs özünün ampluasına, manevrlərinə uyğun hazırlaşmalıdır. Danışıq üslubu hər kəs üçün spesifikdir. Mən daha çox bədahətən, kompleksiz, hazırlıqsız, amma mövzuya hakim olaraq danışmağa üstünlük verirəm”.

**F.Mustafa bunun bir az da güvən məsələsi ilə bağlı olduğunu bildirdi. Deputatın sözlərinə görə, özündə kompleksi olmayan insanlar bu cür məşqlərə maraqlı olmur:** “Prezidentlərin bu cür məşqlərə vərdiş etməsinə normal yanaşıram. Çünki bizim masştabda olan insanların çıxışı ilə dünyanın, yaxud da cəmiyyətin taleyinə təsir göstərən prezidentlərin müəyyən jestləri, çıxışları bir deyil. Məsələn, prezidentin hüznlü bir məsələyə gülərək fikir bildirməsi çox ciddi narahatlıq yarada bilər. Ona görə də onun daha kədərli mimikada olması yaxşıdır. Amma hər halda, hər şeyin təbii olması daha gözəldir. Cəmiyyətin düşünən insanları qeyri-təbii jestlərə yaxşı baxmır”.

**Deputat Zahid Oruc da güzgü qarşısında məşq etməyənlər sırasındadır:** “Güzgü haqqında bir fikir var: deyirlər ki, o yeganə tərəf müqabilidir ki, adamı təhrif etmədən olduğu kimi özünə göstərir. Siyasətçinin böyük auditoriyalara çıxmazdan öncə məşq prosesində güzgüdən istifadəsinə gəlincə, siyasətdə olduğum bu 20 ildə bir dəfə də olsun belə etməmişəm. Bəzən media mənsubları günün istənilən saatında bizdən hansısa məsələlərə açıqlama istəyirlər. Düşünürəm ki, güzgüdən asılı olmayaraq insan özünü bu tələblərə hazırlamalıdır. Barak Obama ilə bizim Şəki ləhcəsində məşq edən Mustafa müəllim arasındakı paraleliniz mühüm tapıntıdır. Amma düşünürəm ki, bizim filmimizdə bu, daha mənalı və orijinal səslənib”.

**ADP sədri Sərdar Cəlaloğlu isə güzgüyə yalnız çıxış öncəsi qalstukunu düzəltmək üçün baxdığını dedi:** “Heç vaxt güzgü qarşısında məşq etməmişəm. Amma televiziyaya çıxanda güzgüyə baxıb qalstukumu düzəltmişəm. Mən haradan bilim ki, mənə nə suallar veriləcək və buna uyğun da məşq edim. O vaxt məşq edirlər ki, çoxluq qarşısında hansısa mühüm məsələ ilə bağlı monoloq deyirlər. Düşünürəm ki, bunu da hamı edir. Dövlət başçılarının imici və qayğıları ilə bizim qayğımız eyni deyil. Yəni zəruri deyil ki, biz güzgü qarşısında məşq edək”.





**Ümid Partiyasının sədri İqbal Ağazadə güzgü qarşısında məşq etməsə də, məşq edənlərə də pis baxmadığını bildirdi:** “Mən heç vaxt güzgü qarşısına keçib məşq etməmişəm. Fikirlərini ifadə edərkən insanın hansı formaya düşdüyünü bilmək istəməsi və bunun üçün də güzgü qarşısına keçib məşq etməsi də normaldır”.

Maraqlıdır, bəs nəyə görə məhz güzgü? İnsanlar video qarşısına keçib də məşq edə və daha sonra qüsurlarına baxa bilərlər. Yaxud yaxınından onu dinləməsini və qüsurlarını deməsini xahiş edə bilər. Niyə məhz güzgü?

**Psixoloq Azad İsazadəyə görə, güzgü qarşısında məşq etmək psixoloji cəhətdən normal bir hal kimi qəbul olunmalıdır:** “Məsələn, balet ustaları hər hərəkətlərini bütün incəliklərinə qədər düzəltmək üçün güzgü qabağında məşq edirlər. Bundan başqa, görüntüsünü, hərəkətlərini daha dəqiqliyi ilə çatdırmaq istəyən şəxslər güzgü qarşısında həmişə məşq edirlər. O cümlədən natiqlər də güzgü qarşısına keçib danışırlar. Psixologiyada bədən dili deyilən bir anlayış var. Bədən dili çox vaxt sözdən də əhəmiyyətli məlumatı insanlara ötürə bilir. Bədən dili ilə deyilən söz arasında uyğunluq yoxdursa, deyilən sözlərə heç kim inanmaz. Biz sözlərimizi hansısa hərəkətlərimizlə dəstəkləməliyik. Hətta böyük siyasətçilərin bədən dili məşqçiləri, psixoloqları olur. Güzgü qarşısında bu cür məşq etmək məqsədəuyğundur. Auditoriyanı öz çıxışına daha da inandırmaq üçün düzgün bədən hərəkətləri olmalıdır”.

❑ **Günel MANAFLI**

# Özgəcan Aslan azərbaycanlı olsaydı...

**Azad İsazadə:** “Bizim etirazımız sakit şəkildə, ailə içərisində və ya öz daxilimizdə baş verir”

**Zeynal Məmmədli:** “Bizdə sadə insanlar bu məsələlərə adi bir hal kimi baxanda, rəhbər vəzifəli şəxslər də eyni mövqeni nümayiş etdirəcək”

**Türkiyədə baş verən Özgəcan Aslan cinayəti ölkə ictimaiyyətini ayağa qaldırıb. Xatırladaq ki, fevralın 13-də Mersin şəhərinin Tarsus qəsəbəsində Özgəcan Aslanın yanmış cəsədi aşkarlanıb. Qətldə şübhəli bilinən Sübhi Altıntökən deyib ki, qız rəfiqəsi ilə evə getmək üçün avtobusa minib, yolda rəfiqəsi enib və Özgəcan Aslanın sonuncu sərnişin olduğunu görən sürücü yolu dəyişərək avtobusu səssiz bir yerə sürüb.**

Avtobusun yolunu dəyişdiyini görən gənc qız sürücünün üstünə qışqırıb və geri qayıtmasını istəyib. Ancaq avtobusu saxlayan sürücü təcavüz etmək məqsədilə qıza hücum çəkib. Lakin Özgəcan bibər qazını onun gözünə sıxıb. Sürücü bundan qəzəblənərək gənc qıza bıçaq zərbələri endirib, sonra isə dəmirlə başından vuraraq öldürüb. Bundan sonra qızın əllərini kəsərək, atasını və dostunu köməyə çağırıb. Birlikdə cəsədi yandırıb izi itirməyə çalışıblar. Qatilin qızın əllərini kəsməsinin səbəbi təcavüz etmək istəyərkən üzünü cırmaqlaması olub. Sürücü qızın əlində DNK izi qalmasın deyə əllərini kəsdiyini bildirib.

Türkiyənin yüksək rütbəli məmurları, tanınmış incəsənət adamları və minlərlə sadə insan gənc qızın vəhşicəsinə öldürülməsinə etirazlarını bildiriblər. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Özgəcan Aslanın anası Songül Aslanla telefon əlaqəsi yaradaraq ailəyə başsağlığı verib. Ərdoğanın qızları isə dəfn mərasiminə qatılıblar. Bu hadisədən sonra Türkiyədə ölüm cəzasının geri qaytarılması ilə bağlı tələblər səsləndirilib, qatillərə ölüm cəzası istənilib.

Bu hadisəyə başqa bir tərəfdən yanaşsaq Türkiyə cəmiyyətinin nə dərəcədə həssas olduğunu da bir daha görmüş olarıq. Çünki oxşar cinayətlər, bəzən bundan daha dəhşətli olaylar Azərbaycanda da baş verir. Ancaq nadir hallarda ictimaiyyətin və ölkə rəsmilərinin diqqəti bu cür hadisələrə yönəlir.

Bir neçə gün öncə, Bakının Xəzər rayonunda amansızlıqla qətlə yetirilən, ağzı cırılan, daxili orqanları zədələnən 1968-ci il təvəllüdlü Rzayeva Xatirə Saməddin qızının qətli ilə bağlı təfərrüatlar nə mətbuatı, nə də ictimaiyyəti maraqlandırdı. Bəs görəsən, Azərbaycan cəmiyyətinin bu qədər laqeyd olmasının səbəbi nədir? Ölkə mediası niyə bu tipli cinayət hadisələrinin arxasınca getmir? Niyə insan taleyinin təfərrüatları kimsəni maraqlandırmır?

**Psixoloq Azad İsazadə Azərbaycan cəmiyyətinin daha passiv olduğunu bildirdi:** “Azərbaycanda insanlar bu kimi hadisələrə reaksiya vermir. Sadəcə olaraq, bizim etirazımız sakit şəkildə, ailə içərisində və ya öz daxilimizdə baş verir. Bu bir etiraz şəklində deyil, passiv qınaq formasında olur. Biz nədənsə etirazımızı nümayiş etdirməkdən çəkinirik. Cəmiyyət apatik vəziyyətdə olduğuna görə reaksiyası da zəif olur”.




**Media eksperti Zeynal Məmmədli isə bildirdi ki, Özgəcan Aslan cinayəti ilə son günlər Azərbaycanda aktual olan Lamiyə məsələsi arasında paralellər aparsaq, cəmiyyətimizin məsələlərə necə reaksiya verməsini aydın görə bilərik:** “Son olaraq Lamiyə məsələsində biz cəmiyyətin qadına münasibətini gördük. Düzdür, burada əks tərəf ölüb, ancaq bu qadının həyatı dağılıb. Burada paralellər aparmaq mümkündür. Türkiyədə cinayəti hər hansı bir avtobus sürücüsü törədibsə, Azərbaycanda bunu vəzifəli şəxs edib. Ancaq məsələ yalnız Lamiyə üzərində müzakirə olunur. Azərbaycanda ictimai rəy duyarsızdır. Bizdə sadə insanlar bu məsələlərə adi bir hal kimi baxanda, rəhbər vəzifəli şəxslər də eyni mövqeni nümayiş etdirəcək. Çünki onlar da bizim aramızdan çıxanlardır. Onlar da bu cəmiyyətdə yetişdiyi üçün bütövlükdə ictimai rəyin biganəliyi onlara da yoluxur. Türkiyədə yuxarıların reaksiyası aşağıların kəskin reaksiyasından sonra başladı. Ancaq bundan sonra yuxarılardan reaksiya gəldi. Prezident Ərdoğanın qızları dəfndə iştirak etdilər. Bunlar bizim üçün də bir norma olmalıdır. Bizdə cəmiyyətin təpkisi çox zəifdir. Sanki hər şeyi normal qəbul edirik. Bu düşüncə tərzi dəyişməsə yuxarılar da buna reaksiya verməyəcək”.

**Medianın bu kimi hadisələrə laqeyd yanaşmasına gəlincə, Z.Məmmədli bildirdi ki, bu, Azərbaycan mediasının xarakterindən irəli gəlir:** “Burada birbaşa medianı qınamaq olmaz. Hər hansı hadisənin arxasınca getmək vaxt istəyir, maliyyə istəyir, azadlıq istəyir. Məsələn, Lamiyə ilə bağlı "Azərbaycan" qəzetindəki məqalə, Mir Şahinin qiymətləndirməsi və sair tamamilə məsələni yanlış yönlərə çəkmək məqsədi daşıyır. Ancaq burada məsələnin mahiyyəti başqadır. Burada əsas məsələ icra hakimidir. Biz necə idarə olunuruq, idarə edənlərin bizə münasibəti necədir? Əsas məsələ budur. Fikrimcə, qadınlarla bağlı məsələlər daha çox qabardılmalıdır. Bütün bunların səbəbi idarəçilikdə və ona cəmiyyətin reaksiyasının zəif olmasındadır”.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT

Son səhifə

N 36 (6064) 17 fevral 2015



# Acı bibərin faydaları

Acı bibər çoxumuzun vaz keçə bilmədiyi bibər növüdür. Tərəvəz yeməklərində və ətin yanında bol-bol istifadə edilən acı bibərin faydaları yüz illərdir bütün mədəniyyətlər tərəfindən bilinir. Acı bibər dünyanın hər yerində və hər iqlim şəraitində yetişən tərəvəzdir. Bir çox yeməyi dadlandıran bu tərəvəz xüsusilə kalsium, kalium və vitaminlər baxımından olduqca zəngindir. Ondan bir çox xəstəliklərin müalicəsində istifadə edilir. Acı bibər ürək üçün çox xeyirlidir. Tərkibində ürəyin ehtiyacı olan qida maddələri olan acı bibər bədən istiliyini artırar və qan dövranını sürətləndirir. Bundan başqa, qan hüceyrələrinə yapışan toksinləri də təmizləyir. Yüksək təzyiqi olan xəstələrə bu tərəvəz təklif edilir. Təpədən dırnağadək qan dövranını sürətləndirən acı bibər qan təzyiqini də tarazlayır. Tərkibində olan kapsaisin maddəsi xərçəng hüceyrələrinə öldürücü təsir edir. Buna görə də qan xərçəngi və ağciyər xərçəngi xəstələrinə məsləhət görülür. Araşdırmalar kapsaisinin xərçəng hüceyrələrini apoptosis mərhələsində öldürdüyünü göstərir. Acı bibər mədə-bağırsağa da yaxşı təsir edir. Bağırsaq hərəkətlərini artıraraq həzmi sürətləndirən acı bibər mədədəki turşuluq və qaz kimi narahatlıqları aradan qaldırır. Antifungal xüsusiyyətləri olan acı bibər göbələk problemlərində də təsirlidir. Bundan başqa, tənəffüs yolu narahatlığı çəkən insanlardakı infeksiyaların aradan qaldırılmasında da əhəmiyyətli rol oynayır. Əsrlərdir acı bibərdən alternativ tibbdə istifadə edilir.

# 2758 metrlik fast-food



Meksika aşpazları növbəti dəfə dünya rekorduna imza atıblar. Qvadalaxara ştatında 130-dan çox aşpaz bir araya gələrək, milli mətbəxə aid tako adlanan fast-food yeməyi hazırlayıblar. Bir-birinə birləşdirilmiş takoların uzunluğu təxminən 2758 metr olub. Bunun üçün aşpazlar 1,2 ton donuz ətindən və 1,1 ton xəmirdən istifadə ediblər ki, bu da indiyədək rekord göstərici olub. Fast-food yeməyinin içliyi üçün məhsullar məxsusi olaraq Meksikanın Yukatan ştatından gətirilib. İndiyədək ən uzun və ən çox ərzaq istifadə edilən tako ilə bağlı sənədlər Ginnesin Dünya rekordları komissiyasına göndərilib. Meksikalı aşpazlar növbəti uğurlarının təsdiqlənməsini gözləyərkən, nəhəng tako qısa vaxt ərzində Qvadalaxara sakinləri tərəfindən yeyilib.

# Marsa gedib geri dönməyəcək

Maggie Lieu adlı qadın həyatının sonuna qədər Marsda yaşayacağını dünən öyrənib. İlk testlərdən keçən qadın birdəfəlik Marsa getmək planları haqqında "BBC" telekanalına müsahibə verib: "Geri qayıtmaq üçün çoxlu pul lazımdır. Çünki Marsdan geri qayıtmaq üçün yanacağa ehtiyac olacaq. Marsdan raket göndərmək də mümkün deyil. Səhhətimdə problemlər yarana bilər. Ailəmi və dostlarımı bir daha görə bilməsəm də, şəkillərinə baxa biləcəyəm. Orada internetimiz olacaq. Marsda yaşamaq fikri məni qorxutmur, əksinə, həyəcanlandırır. Orada uşağım dünyaya gələrsə, o ilk marslı olacaq. Marsda istifadə edilmiş paltarları da geyinə biləcəyik. Yeməklərimizi də özümüz hazırlayacağıq".

Məlumat üçün bildirək ki, M.Lieu Marsda yaşayacaq olan yeganə insan deyil. Onunla birlikdə bir neçə nəfər Marsın daimi sakini ola bilər.





# Xərçəng əleyhinə papaq

Beyin xərçənginin irəliləyişini kimya terapiya və radio terapiyaya ehtiyac olmadan yavaşladan və xəstələrin əhvalını düzəldən yeni papaqlar hazırlanıb. "Novo TTf-100A" adlı papaq xərçəng xəstələrinin müalicəsi üçün hazırlanıb. "Antixərçəng" papağı elektrikli təsirə malikdir. Bu təsirin köməyi ilə xərçəng hüceyrələrinin bölünərək çoxalmasının qarşısı alınır. Papağı istehsal edən "Novocure" adlı şirkətin əməkdaşları onu bir neçə dəfə yoxlayıblar. Mütəxəssislərin sözlərinə görə, papaq daha çox "glioblatoma" adı verilən beyin xərçəngin növünün müalicəsinə yaxşı təsir edir. Beyin xərçəngindən əziyyət çəkənlərin ömrü bu papaqları köməyi ilə 2 il uzana bilir. Antixərçəng papaqlarından istifadə etmək üçün ayda 23 min avro ödəmək lazım gəlir.




**QOÇ** - Ümumi məziyyətlərinə görə, düşərli gün hesab etmək olar. Bir tərəfdən maraqlı insanlarla görüşləriniz, digər tərəfdənsə şəxsi işlərinizdə baş qaldıran müsbət dönüş sizi sevindirəcək.

**BUĞA** - Hiss olunur ki, qismən kasıb dövr yaşamaqdasınız. Amma darıxmağa lüzum yoxdur. Ən azı ona görə ki, Göy qübbəsi bu gündən maddi durumunuza müsbət təsir göstərəcək. Əsas vaxtınızı yalnız bu amilə ayırın.

**ƏKİZLƏR** - Astroloji göstəricilər saat 12-dək səhhətinizlə bağlı problemlərin yaranacağını bildirir. Odur ki, orqanizminizə uyğun olmayan işlərdən uzaq olun. Sonrakı saatlarda isə çoxsaylı sürprizlərlə rastlaşacaqsınız.

**XƏRÇƏNG** - Maliyyə problemlərinizin artdığı bu ərəfədə özünüzü üzməməlisiniz. Çünki bu, qısa zamanı əhatə edəcək. Nahardan sonra köhnə dostlarınızın köməyi ilə mövcud çətinliklərinizi dəf edəcəksiniz.

**ŞİR** - Saat 11-13 aralığı sizin üçün bir qədər mübahisəli keçə bilər. Odur ki, maksimum təmkin nümayiş etdirməyiniz vacibdir. Günün qalan hissəsini isə normal şəkildə başa vuracaqsınız. Axşam qonaq getməyiniz yaxşı olar.

**QIZ** - Nahar saatlarını neytral şəkildə başa vurmağa çalışın. Çünki göstərilən ərəfədə müəyyən xoşagəlməzliklər baş verə bilər. Xüsusən də pulla bağlı söhbətlərdə ehtiyatlı olun. Günün qalan hissəsi qismən düşərlidir.

**TƏRƏZİ** - Astroloji göstəricilər bu günə böyük ümidlərlə yanaşdığınızı bəyan edir. Konkret olaraq saat 14-dən bütün sahələrdə uğurlarınız mümkündür. O vaxta qədərsə əsas enerjinizi münasibətləri yaxşılaşdırmağa yönəldin.

**ƏQRƏB** - Bu tarix çoxları kimi sizin də taleyinizdə əsaslı rol oynayacaq. Saat 11-14 aralığında gözlənilməz təsadüf nəticəsində mövcud problemləriniz aradan qalxmağa başlayacaq. O vaxta qədərsə yarımçıq problemlərinizin aradan qaldırmağa çalışın.

**OXATAN** - Ulduzların düzümü xoş məqamların şahidi olacağınızı bəyan edir. Lakin bu kimi şansları qaçırmamaq üçün özünüz də aktivlik göstərməlisiniz. Əgər daxilinizdə paxıllıq və eqoistlik varsa, dərhal ondan təmizlənin.

**OĞLAQ** - Sağlıq durumunuz imkan versə, paralel olaraq bir neçə işin öhdəsindən gələ biləcəksiniz. Şəxsi həyatınıza hakim kəsilən problemlərə də işıq düşəcək. Bu gün qonaqlıqlar, birgə gəzinti və səfərlər sizə yalnız ruh yüksəkliyi gətirə bilər.

**SUTÖKƏN** - Yeni əlaqələrə başlamaq üçün konkret addımlar atmağa dəyər. Amma hansısa məsələyə görə ciddi məbləğdə xərc çəkməyə lüzum yoxdur. Rəhbərliklə münasibətləri mülayimləşdirin.

**BALIQLAR** - Fevralın bəxtinizə düşən ən uğurlu günü yetişməkdədir. Nəzərə alın ki, artıq aparıcı bürc kimi şanslarınız da artmaqdadır. Bunu özünüz də hiss edəcəksiniz. Xüsusən də fəaliyyətlə bağlı uğurlu məqamlarınız artacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Hədiyyə Kembric yerinə Kambocaya getdi



Fransadakı övladlarından yeni il hədiyyəsi gözləyən ailəsinin bağlaması Kembric əvəzinə Kambocaya göndərilib. Üzərindəki ünvan yanlış oxunduğu üçün hədiyyələr 20 min kilometr yol qət etməli olub. İngiltərədə yaşayan ailənin Fransadakı uşaqları onlara kitablar göndəriblər. Kembric sözü fransızca "Cambodge" yazıldığı üçün hədiyyə paketi Kambocaya göndərilib. Ailənin hədiyyələri səhvən Kambocaya göndərilsə də 2 ay sonra sahiblərinə təslim edilib. Lakin bu anlaşılmazlığın aradan qaldırılması 120 min sterlinqə başa gəlib.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.